www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 may 2019-cu il Cümə № 106 (7276) Qiyməti 60 qəpik

Xəbər

**İranı haradan vuracaqlar - mümkün versiyalar**

yazısı səh.9-da

## Gündəm

### “Qarabağın açarı” və ABŞ-ın 18 il sonrakı ev sahibliyi



Üçüncü ölkədə keçiriləcək danışıqlara Moskvanın “xeyir-duası” olacaqmı?; **politoloq:** “Rusiya Ermənistanın əli ilə Vaşinqton görüşünün nəticəsiz qalmasını təmin edəcək”

yazısı səh.3-də

### Eldar Əzizovun korrupsiya mübarizəsi və Abutalıbovun günahı...

yazısı səh.5-də

### Cəmil Həsənlinin iddialarına deputatdan sərt reaksiya

yazısı səh.6-da

### Konqresdə yeni anti-Rusiya sanksiyaları-Azərbaycana təhlükə varmı?

yazısı səh.3-də

### Jurnalistlərə “qıcıqlı” Ənvər Seyidov unudulmaq istəyir

yazısı səh.6-da

### Müharibə üçün ən uyğun fəsil-ekspertlər danışır

yazısı səh.9-da

### QAT-ın mitinqinə icazə verilmədi

yazısı səh.11-də

### Fazil Məmmədovun “müflisləşməsi”nin pərdəarxası

yazısı səh.12-də

### İlan mələyən çöllərimizdəki “ilan zəhəri”adlı böyük xəzinə

yazısı səh.14-də

**Ramazan ayının 12-ci günü**

İftar 20.07. İmsak 03. 39-dək (QMİ)

12-ci günün duası: “İlahi, məni bu gün günahdan qorunub, iffətli olmaqla zinətləndir! Mənə kifayət edən halal mal ver və qənaət libasını mənə geyindir! Məni belə bir gündə ədalət və insafla yaşamağa müvəffəq et! Məni qorxduğum işlərdən amanda saxla! Ey, qorxanların İsməti və Qoruyanı!”

İftar duası: “Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla”.

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

# ABŞ-IN İRƏVANA SON İSMARIŞI, KÖHNƏLƏN “RUSİYA KARTI”...

İnqilab liderinin “iki stul” siyasəti özünə qarşı işləyir; Paşinyan Ermənistan Təhlükəsizlik Şurasının “qərbyönlü” rəhbərini Amerikaya niyə göndərib? ABŞ-ın İrəvandakı yeni səfiri də “Moskva ilə qırılmaz bağlar”dan danışdı; **erməni politoloq:** “Paşinyan Trampla görüşsə, ona nə deyəcək?”



yazısı səh.8-də

# Keçmiş nazir Füzuli Ələkbərov ABŞ-ın brend traktorlarını satır

İsmayıllı hadisələrinə görə işdən çıxarılan F.Ələkbərov “Massey Ferguson”un Bakıdakı təmsilçisidir; bu traktorların çox bahalı modelləri var...

yazısı səh.10-da



*Cavanşir Paşazadə:*

### “Buyursunlar, qayıtsınlar, Azərbaycandan onları heç kim qovmayıb”

yazısı səh.4-də



Akif Çovdarov

### Mahmudov həbsə gedir, Çovdarov isə azadlıq istəyir

yazısı səh.5-də



Zaur Yusifov

### Həbs olunan dünya çempionunun atası “Yeni Müsavat” a danışdı

yazısı səh.11-də

YENİ MÜSAVAT
N 106 (7276) 17 may 2019



# Prezident Pirallahıda şpris istehsalı zavodunun açılışında iştirak edib

**Prezident İlham Əliyev mayın 16-da Pirallahı Sənaye Parkında "Diamed Co" şpris istehsalı zavodunun açılış mərasimində iştirak edib. "Report" xəbər verir ki, dövlət başçısı zavodu işə salıb, istehsal prosesi ilə tanış olub. Sonra prezident zavodun kollektivi ilə görüşüb.**

# Baş Prokurorluqdan açıqlama: "Ona SOCAR-la bağlı yazıların dayandırılması tövsiyə olunmayıb"

**Baş Prokurorluq açıqlama yayıb. "Report"un xəbərinə görə, açıqlamada deyilir ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin 18 mart 2019-cu il tarixli hökmü ilə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə nəzərdə tutulmuş cinayət əməllərini törətməkdə təqsirli bilinmiş Anar Məmmədov baş redaktoru olduğu "Criminalaz.com" internet saytında və facebook sosial şəbəkəsinin özünə aid səhifəsində guya Bakı Şəhər Prokurorluğunda SOCAR-la əlaqədar məqalələrin dərc edilməsinə irad bildirilməsinə dair yalan informasiyalar yayıb: "Həmin məlumatlar həqiqəti əks etdirmədiyindən tərəfimizdən təkzib edilir.**

Baş Prokurorluqda aparılmış araşdırmalarla müəyyən edilib ki, məhkəmənin qeyd edilən hökmü ilə Bakı Şəhər Prokurorluğunda iş üzrə saxlanılan maddi sübut - "MacbookPro" markalı kompüterin hökm qanuni qüvvəyə mindikdən sonra qanuni sahibi Anar Məmmədova qaytarılması nəzərdə tutulduğundan, sonuncu müraciəti əsasında şəhər prokurorluğuna dəvət olunub. Aparılmış söhbət zamanı məhkəmənin hökmündən A.Məmmədov tərəfindən apelyasiya şikayəti verildiyi müəyyən edildiyindən və beləliklə, hökm qanuni qüvvəyə minmədiyindən maddi sübut ona qaytarılmayıb.

İstər 15 may 2019-cu ildə, istərsə də əvvəlki tarixlərdə Anar Məmmədova baş redaktoru olduğu internet saytında hər hansı məlumatların, o cümlədən SOCAR-la bağlı yazıların dayandırılması tövsiyə olunmayıb.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinə bir daha izah edilir ki, "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən yalan və qərəzli yazılar, böhtan atmaq, yaxud digər qanunazidd əməllər törətmək məqsədilə kütləvi informasiya vasitələrindən istifadə olunmasına yol verilməməlidir".

# Heydər Əliyev Beynəlxalq Aeroportunda Avropa Liqası Finalına xüsusi hazırlıq

**Bakıda UEFA Avropa Liqası Finalının keçiriləcəyi dövr üçün Heydər Əliyev Beynəlxalq Aeroportu çox sayda təyyarə və sərnişinləri qəbul etmək məqsədilə xüsusi tədbirlər planı hazırlayıb. Bakının hava limanının bütün xidmətləri gücləndirilmiş rejimdə fəaliyyət göstərəcək.**

Heydər Əliyev Beynəlxalq Aeroportunun mətbuat xidmətindən virtuaz.org-a bildirilib ki, aeroportun buraxılış qabiliyyəti saatda 10 min sərnişin təşkil edir və bununla da əlaqədar olaraq, heç bir aviaşirkətə müntəzəm və çarter reyslərini yerinə yetirməyə rədd cavabı verilməyəcək.

Hazırda Heydər Əliyev Beynəlxalq Aeroportu mayın 28-də və 29-da çarter reyslərinin yerinə yetirilməsi üçün 45-dən çox müraciəti təsdiqləyib. Buraya həmçinin 16 biznes aviasiya reysi daxildir, 2 aviareys ilə futbol komandaları və 10 reys ilə klubların fanatları gətiriləcək. Həmçinin "Türk Hava Yolları", "Air Arabia", "Fly Dubai", "ISRair", "Jazeera Airways" və sair kimi xarici aviaşirkətlər əlavə uçuşlar yerinə yetirmək üçün müraciət ediblər.

Finalın keçiriləcəyi dövrdə Heydər Əliyev Beynəlxalq Aeroportunda bütün reyslərin maneəsiz yerinə yetirilməsi və terminaldan çox sayda sərnişinin rahat keçməsi üçün bütün şərait yaradılacaq.

Qeyd edək ki, Bakının hava limanı artıq böyük beynəlxalq tədbirlərin, o cümlədən İlk Avropa Oyunları, Formula 1, İslam Həmrəyliyi Oyunları və sair kimi idman tədbirlərinin keçirilməsində geniş təcrübəyə malikdir.

# Türkiyədə "Canfəda" ləqəbli təhlükəli terrorçu məhv edildi

**Türkiyənin cənub-şərqindəki Şirnak vilayətində PKK terror təşkilatının silahlılarına qarşı növbəti əməliyyat keçirilib. Əməliyyat zamanı PKK-nın xüsusi təhlükəli terrorçusu məhv edilib.**

Qeyd olunur ki, "Canfəda" ləqəbli Mehdi Danıy terrorçuların ideoloji hazırlığı ilə məşğul olurmuş.

«Trend» bildirir ki, bundan başqa, o, Türkiyə ordusuna qarşı dağlıq ərazilərdə hücumların təşkil olunmasında iştirak edib.

# Məhbus jurnalistdən yeni xəbər var

**Bakupress.az saytının təsisçisi və baş redaktoru, məhbus Şəfəq Ağacanın səhhətinin pisləşdiyi bildirilir.**



Şəfəq Ağacan

Şəfəq Ağacan qızı Ağabalayeva mayın 1-i Bakıda tutulub. Polisin onu paytaxtın Nərimanov rayonunda, 5 saylı xəstəxananın qarşısında narkotik satarkən tutduğu açıqlanıb. Məlumata görə, Şəfəq Ağacan çəkisi 311 qramdan çox olan qurudulmuş marixuananı 100 ABŞ dolları və 1830 manata satarkən yaxalanıb.

Mayın 3-də Xətai Rayon Məhkəməsi onun haqqında 3 aylıq həbs-qətimkan tədbiri seçib. Bakı İstintaq Təcridxanasında saxlanan jurnalist ittihamları qəbul etmir, şərləndiyini deyir.

Mayın 16-da Şəfəq Ağacana məxsus facebook səhifəsində onun səhhətinin pisləşdiyi xəbəri yayılıb. Açıqlamaya görə, jurnalist təcridxananın tibb otağına götürülüb. Şəfəq Ağacanın anemiya xəstəsi olduğu, ürək çatışmazlığından əziyyət çəkdiyi vurğulanır.

Novator.az bildirir ki, 1976-cı il təvəllüdlü Şəfəq Ağacan Sumqayıtdakı 27 saylı orta məktəbin məzunudur. Bakı Slavyan Universitetini filoloq ixtisası ilə bitirib.



# "Bakı Metropoliteni"nə qarşı 1,6 milyon manatlıq məhkəmə iddiası

**"Safe Life" MMC "Bakı Metropoliteni" QSC-ni məhkəməyə verib.**

"Report"un xəbərinə görə, 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə müraciət edən MMC pul tələbinə dair iddia ərizəsi qaldırıb.

Ərizədə qeyd edilib ki, "Safe Life" MMC ilə "Azərtunelmetrotikinti" SC-nin Xüsusi Tamamlama İşlər İdarəsi ilə 2013-cü ildə müqavilə bağlanıb. Müqavilə üzrə "Bakı Metropoliteni" QSC MMC-yə ümumilikdə 1 milyon 600 min 577 manat məbləğində pul ödəməlidir.

Məhkəmə iddia ərizəsini və ona əlavə olunmuş sənədləri nəzərdən keçirərək, hesab edib ki, iddia ərizəsi geri qaytarılmalıdır. Belə ki, hazırki məhkəməyə təqdim olunan iddia ərizəsindən görünüb ki, iddiaçılardan biri Tağıyev Azad Hüseyn oğlu fiziki şəxsdir və iddia ərizəsinə onun fərdi sahibkar statusunu təsdiq edən sənəd əlavə edilməyib.

Məhkəmənin qərarı ilə iddia ərizəsi və ona əlavə edilmiş sənədlər geri qaytarılıb.

# Ermənistanda 17 nazirlikdən 12-si qaldı

**Ermənistanda nazirliklərin sayı 17-dən 12-yə endirilib. Modern.az Ermənistan KİV-nə istinadən xəbər verir ki, bu barədə qanunu prezident Armen Sarkisyan imzalayıb.**

Bu qanunun lehinə 79, əleyhinə isə 41 deputat səs verib.

Bir neçə universitetin prorektoru dəyişdirilib.




# "Nar" "Facebook"səhifəsinə daxil olmuş müraciətləri 100% cavablandırıb

**"Nar" sosial media vasitəsilə yüksəkkeyfiyyətli, operativ və tam müştəri xidmətləri göstərməkdə davam edir. Belə ki, mobil operator sosial şəbəkələr vasitəsilə daxil olan müraciətlərin hamısına cavab verir. 2019-cu ilin birinci rübü ərzində sosial şəbəkələrdən daxil olan müraciətlərin 25 %-dən çoxu 1 dəqiqə, 53%-ə qədəri isə 10 dəqiqə ərzində cavablandırılıb. Ümumilikdə, "Nar"-ın bütün sosial şəbəkələrindən daxil olan sorğularına ortalama 8 dəqiqə ərzində cavab verilib. Mobil operatorun üstün müştəri xidmətini nəzərə alan "Socialbakers" beynəlxalq tədqiqatı "Nar"-ın "Facebook" səhifəsini "Socially Devoted" sertifikatına layiq görüb. Belə ki, təşkilatının 2019-cu ilin birinci rübü ərzində apardığı monitorinqin nəticələrinə görə, "Nar" "Facebook" şəbəkəsinə daxil olmuş müraciətləri 100% cavablandırıb.**

**Qeyd edək ki, "Nar" abunəçiləri "Facebook", "Twitter" və "Instagram", eyni zamanda elektron poçt və onlayn-çat vasitəsilə öz suallarını ünvanlaya və qısa müddət ərzində mobil operatorun sosial media komandası tərəfindən cavab ala bilərlər. Abunəçilərə sosial şəbəkələr üzərindən əsasən balans haqqında məlumat, şəbəkə/internet çətinliklərinin aradan qaldırılması, "Nar"-ın xidmətləri, tarifləri, internet paketləri, nömrələr üzərində əməliyyat, gələn mesajlar, texniki problemlərin həlli, endirim kampaniyaları, keçirilən müsabiqə və tədbirlərdə iştirak və s. haqqında ətraflı məlumat əldə edə bilərlər. Qeyd edək ki, "Nar" sosial şəbəkələr üzərindən tam müştəri xidməti göstərən ilk telekommunikasiya şirkətidir.**

**Mobil operatorun müştəri xidmətləri haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək olar.**

**"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.**

# YAP-ın sədr müavini: "Radikal müxalifəti xalq tərbiyəli etməlidir"

"Radikal müxalifəti xalq tərbiyəli etməlidir. Çünki onlar xalqdan səs gözləyirlər. Xalqsa səsini kimə vermək lazım olduğunu hamıdan yaxşı bilir".

"Report" xəbər verir ki, bunu baş nazirin müavini, hakim Yeni Azərbaycan Partiyası (YAP) sədrinin müavini-icra katibi Əli Əhmədov deyib.

"İstərdim ki, radikal müxalifət "Radikal müxalifət" adını öz üzərindən götürsün. Dünyanın hər bir yerində radikalçılıqdan həm cəmiyyət, həm xalq, həm də dövlət həmişə ziyan çəkib. İstəməzdim ki, Azərbaycan müxalifətinin hansısa bir hissəsi radikal olsun. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bəzi müxalif dairələr radikallığı ilə bəlkə də fəxr etmək dərəcəsində səhvə yol verir. Radikallıq böyük bir faciə və nöqsandır. Bunun aradan qaldırılması Azərbaycan xalqının və vətəndaşlarının üzərinə düşən vəzifədir", - Ə.Əhmədov qeyd edib.

# Azərbaycanın bir neçə ali təhsil müəssisəsinin prorektorları dəyişdirilib

"Report"un əldə etdiyi məlumata görə, bu barədə Təhsil Nazirliyi müvafiq əmr imzalayıb.

Əmrə əsasən, Bakı Dövlət Universitetinin (BDU) ümumi işlər üzrə prorektoru, fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru Vüqar Mehrabov işdən çıxarılıb. O, Azərbaycan Dillər Universitetində həmin sahə üzrə prorektor vəzifəsinə təyin olunub. Bundan başqa, Bakı Slavyan Universitetinin (BSU) ümumi işlər üzrə prorektoru Cəfər Eyvazov da tutduğu vəzifədən azad edilib. Ona BDU-nun ümumi işlər üzrə prorektoru vəzifəsi həvalə olunub. BSU-nun ümumi işlər üzrə prorektoru vəzifəsinə isə Əbdül Xaliqov gətirilib. Ə.Xaliqov bundan əvvəl Azərbaycan Dövlət Pedaqoji Universitetində çalışıb.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi işlər üzrə prorektoru vəzifəsinə isə Tural Cəlilov təyin edilib. O, bu təyinata qədər ADU-da işləyib.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

Telefon: (012) 434 93 01

**Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan Qarabağ münaqişəsinə dair növbəti yüksək səviyyəli danışıqların ABŞ-da baş tutacağına eyham vurub. Erməni nazir Belçikanın paytaxtı Brüssel şəhərində deyib ki, Vaşinqtonda Əliyev-Paşinyan görüşü hazırlanır.**



# "Qarabağın açarı" və ABŞ-ın 18 il sonrakı ev sahibliyi

## Üçüncü ölkədə keçiriləcək danışıqlara Moskvanın "xeyir-duası" olacaqmı?; **politoloq:** "Rusiya Ermənistanın əli ilə Vaşinqton görüşünün nəticəsiz qalmasını təmin edəcək"

Qeyd edək ki, ilk olaraq Vaşinqton görüşünün anonsunu ötən ay Azərbaycan XİN başçısı Elmar Məmmədyarov vermişdi. Nazir Varşavada keçirdiyi brifinqdə demişdi ki, ABŞ tərəfi Azərbaycan və Ermənistan xarici işlər nazirlərinə Qarabağ münaqişəsinin həlli ilə bağlı müzakirələri davam etdirmək üçün növbəti görüşü Vaşinqtonda təklif edib.

Maraqlısı və təəccüblüsü budur ki, ABŞ indiyədək danışıqların növbəti raundu ilə bağlı açıqlamaları rəsmən təsdiqləməyib. ABŞ-ın Azərbaycandakı səfiri Li Litzenberger isə ötən həftə mətbuata müsahibəsində bu barədə sualın cavabında birmənalı mövqe bildirməyib. Diplomat deyib ki, ABŞ xarici işlər nazirləri arasında görüşləri alqışlayır. Li Litzenberger deyib ki, görüşə qatılan tərəflər hələ ictimaiyyətə görüş barədə bəyanat verməyiblər: "Düşünürəm ki, hazırda aidiyyəti olan bütün məsələlər müzakirə edilir. Bu kimi görüşlər barədə bir tərəf qərar vermir. Bütün dövlətlər tərəfindən ümumiləşdirilmiş qərar verilir" - səfir əlavə edib. Bu açıqlamadan belə aydın olur ki, ABŞ görüşə ev sahibliyi etməyə tərəddüd edir.

Qeyd edək ki, Qarabağ münaqişəsinin tarixində çoxsaylı görüşlər keçirilib. Lakin ABŞ həmsədr ölkələrdən biri olsa da, ən az görüş bu ölkədə baş tutub. Sonuncu dəfə isə düz 18 il öncə Qarabağ danışıqları ABŞ-ın moderatorluğu və ev sahibliyi ilə aparılıb. 2000-ci illərin əvvəllərində Rusiya Qarabağ məsələsində təşəbbüskar olmadığı üçün Paris və Vaşinqton bu məsələdə daha çox önə çıxmışdı. Belə olan təqdirdə prezident Buşun təşəbbüsü ilə mərhum prezident Heydər Əliyevlə Robert Köçəryan ABŞ-da bir araya gəldi. O zaman Ki-Uest şəhərində baş tutan danışıqlara təkcə Minsk Qrupunun həmsədrləri və ABŞ dövlət katibi deyil, Qarabağ məsələsi və Cənubi Qafqaz regionu üzrə bəzi tanınmış ekspertlər - amerikalı Pol Qobl və britaniyalı Tomas de Vall da cəlb olunmuşdular. Sonradan Tomas de Vall yazırdı ki, prezidentlərin heç biri öz xalqlarını müzakirə edilən kompromislərə hazırlamaq üçün addım atmadılar. Hesab olunur ki, uzun fasilə boyunca prezidentlərin və nazirlərin görüşlərinə ABŞ-ın ev sahibliyi etməməsi ABŞ-ın okeanın o tayında, uzaq məsafədə yerləşməsi ilə əlaqədar deyil, burada Rusiya amili öz sözünü deyir.

Xatırladaq ki, 2016-cı il martın 31-də Azərbaycan və Ermənistan prezidentlərinin Nyu-Yorkda, nüvə təhlükəsizliyi ilə bağlı sammitdə bir araya gələcəyi xəbəri yayılmışdı. Lakin qəfildən aprel döyüşləri başladı və görüş baş tutmadı. Bu mənada iddialar var ki, Kreml postsovet məkanını özünün təsir dairəsinə daxil olan ərazi hesab etdiyindən ABŞ-ın Qarabağ məsələsində təşəbbüslərlə çıxış etməsində maraqlı deyil. Bu mənada Vaşinqton görüşü ərəfəsində hansısa gərginliklərin baş verə biləcəyi iddiası da var.

Qeyd edək ki, İrəvan da Vaşinqton görüşü ilə bağlı "nala-mıxa" vurur. Çox güman ki, burada Rusiyanın təsiri də var. Çünki Lavrovun moderatorluğu ilə keçirilən son görüşdə hansısa uğur əldə olunmadığı halda, Vaşinqton görüşündən irəliyə doğru addımın atılması şimal qonşumuzu razı sala bilməz. Ermənistan Xarici İşlər Nazirliyi isə Qarabağa dair nazirlər səviyyəsində növbəti görüşün Vaşinqtonda keçirilməsi təklifini şərh etməyib. Nazirliyin mətbuat xidmətindən bildiriblər ki, növbəti görüşün yeri və vaxtı rəsmən məlum olan kimi ictimaiyyətə bu haqda məlumat veriləcək.

**Azərbaycanın xarici işlər naziri bildirib ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri may ayının sonunda regiona səfər edəcəklər.** "Hələlik həmsədrlərin regiona ayın sonunda gələcəyini düşünürük, bunu sonra ətraflı müzakirə edəcəyik. İndi gündəmdə nazirlərin görüşü var, amma bunu hazırlamaq lazımdır. Əvvəl də dediyim kimi, həmsədr ölkələrdən biri tərəfindən nazirlər səviyyəsində görüş keçirmək barədə təklif verilmişdi və bu görüşə hazırlıq görülməlidir" - nazir qeyd edib.

Çox güman ki, həmsədrlərin səfərindən sonra hansısa aydınlıq gətiriləcək. Bəs növbəti görüşdən nə gözləyək? Qarabağın açarı Vaşinqtondadırmı?

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a dedi ki, Vaşinqton Azərbaycan və Ermənistan liderlərini öz ərazisində görüşdürmək istəyir:** "Baş tutsa, 18 illik uzun fasilədən sonra ABŞ ərazisində ilk bu növ görüş olacaq. Sonuncu dəfə Azərbaycan və Ermənistan liderləri 2001-ci ildə ABŞ-ın Ki-Uest şəhərciyində görüşmüşdülər. Masa üzərinə sazişin mətni qoyulsa da, imzalanmadı. Çünki Azərbaycanın təhlükəsizlik maraqlarına cavab vermirdi. Budəfəki görüşdən də iki səbəbə görə real nəticə gözləmək çətindir".

**Ekspertin fikrincə, birinci səbəb odur ki, Ermənistanın baş naziri Nikol Paşinyan münaqişənin köklü həllinə hazır deyil, o, sadəcə, bu mövzuları müzakirə etməyə hazırdır:** "Atəşkəsi necə qoruyaq, inam atmosferini necə yaradaq, gediş-gəlişi bərpa edək. Bu mövzular isə münaqişə həll olunmadan bizi maraqlandırmır, maraqlandırmamalıdır da. Çünki bu detallar münaqişənin uzanmasına xidmət edir ki, bu da Ermənistanın maraqlarına uyğundur".

**E.Şahinoğlu deyir ki, Vaşinqton görüşünün nəticəsiz qalmasına dəlalət edəcək ikinci səbəb Ermənistan hakimiyyətinin əvvəlki tək Moskvadan asılı olmasıdır:** "ABŞ hazırda Rusiyanın rəqibidir, demək olar ki, bütün məsələlərdə fərqli mövqelərə malikdirlər, üstəgəl, Amerikanın Rusiyaya qarşı sanksiyaları mövcuddur. Belə şəraitdə Moskva Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin görüşündə uğur qazanılmasını istəməz. Görüşün Vaşinqtonda baş tutması həm də o deməkdir ki, Amerika da Cənubi Qafqazda söz sahibi olduğuna eyham vurur. Kreml isə bu cür eyhamları rədd edir və ABŞ-ın Cənubi Qafqazdakı varlığına qısqanc yanaşır. Ona görə də Kreml İrəvanın əli ilə Amerikanın Dağlıq Qarabağ münaqişəsinin həllindəki mümkün fəallığına mane olmağa çalışacaq".

**Politoloq görüş ərəfəsində savaşın təhlükənməsini real saymır:** "Vaşinqton görüşünü pozmaq üçün savaşa ehtiyac yoxdur. Onsuz da Rusiya Ermənistanın əli ilə Vaşinqton görüşünün nəticəsiz qalmasını təmin edəcək".

**Görüş baş tutacağı halda əldə olunacaq nəticələrə gəldikdə, ekspert hesab etmir ki, Qarabağın açarı Vaşinqtonda tapılacaq:** "Yenə münaqişənin həllinə təsir etməyəcək detallar üzərində fikir mübadiləsi aparılacaq, hansısa şifahi razılaşmalar əldə ediləcək. Ancaq bu razılaşmaların münaqişənin həllinə təsiri olmayacaq və bir müddət sonra unudulacaq".

Və belə aydın olur ki, bu görüşlər, sadəcə, statistika üçün lazımdır. Görüş baş tutsa, 2019-cu ildə Paris, Moskvadan sonra Vaşinqton da Qarabağ danışıqlarına ev sahibliyi etmiş olacaq. Yaxud "ABŞ da Qarabağ məsələsinin tənzimlənməsində maraqlıdır", "arqument"ini söyləmək üçün bu görüş lazımdır... Əks təqdirdə, Vaşinqton işğalçı Ermənistana sanksiya tətbiq edərdi, vaxtilə Küveytə müdaxilə edən İraqı cəzalandırdığı kimi sərt addımlar atardı...

❑ **E.PAŞASOY, "Yeni Müsavat"**

# Konqresdə yeni anti-Rusiya sanksiyaları-Azərbaycana təhlükə varmı?

## Natiq Cəfərli: "Bu addımın ölkəmizə təsir edəcəyini düşünmürəm"

**Rusiyanın enerji sektoruna investisiya qoyan ölkələrə də sanksiyalar tətbiq oluna bilər. Hazırda ABŞ Konqresində şimal qonşumuzun enerji sektoruna tətbiq ediləcək yeni sanksiyalarla bağlı gedən müzakirələrdən biri də budur.**



Burada bizləri əsas maraqlandıran Azərbaycandır. Doğrudur, ekspertlər belə bir qərar qəbul olunarsa, bunun ölkəmizə təsirlərinin olmayacağını düşünürlər.

**İqtisadçı ekspert Natiq Cəfərli Amerikanın hədəfinin başqa olduğunu düşünür:** "Son müzakirəyə səbəb olan məsələ əslində konkret bir layihə ilə bağlıdır. "Şimal Axını-2" layihəsinin reallaşmasına Amerika ciddi mane olmağa çalışır. Burada təbii ki, öz maraqları var. Çünki bu ildən başlayaraq, ABŞ Avropaya kifayət qədər böyük həcmdə qaz ixrac etməyə başlayıb. Gələn il hətta bu ixracat həcmini iki dəfə artırmağı düşünür. Burada ən böyük rəqib "Şimal Axını-2" layihəsidir ki, bu layihənin həyata keçirilməsi mümkün olsa, bu zaman Amerika qazının Avropa bazarına çıxışında ciddi problemlər yaşanacaq. Ona görə də sanksiyaların əsas hədəfi "Şimal Axını-2" və digər alternativlər, həm də "Türk Axını" kimi qaz layihələridir. Burada xarici ölkələrin investisiya maraqları var. Avropa ölkələri burada iştirak edir, hətta Almaniya şirkətləri iştirakçıdırlar. Onlarla bağlı ciddi problemlər yaşanacaq. Bu da əslində Amerika ilə Avropanın gizli rəqabətinin nəticəsidir. Azərbaycana gəldikdə isə ölkəmizin Rusiyada enerji sektorunda ciddi bir yatırımları yoxdur. Birgə müəssisələrin yaradılması ilə bağlı danışıqlar gedirdi, əsasən benzin və dizel yanacağı istehsalı müəssisələri ilə bağlı idi. Amma o danışıqlar hələ ki bir nəticə verməyib. Ona görə Rusiyada ciddi yatırımlarımız yoxdur. Rusiyanın Azərbaycanda müəyyən dərəcədə enerji sektorunda yatırımları var. "LUKoil" şirkətinin yatırımları mövcuddur. Bu şirkətlə kiçik həcmli müqavilələr var. Onlarla bağlı müəyyən problemlərin yaşanması ehtimalı ola bilər. O şirkətlərə qlobal sanksiyalar tətbiq olunsa, o zaman təbii ki, Azərbaycandakı işləri ilə bağlı bəzi problemlərin yaranması realdır. Amma bunun birbaşa ölkəmizə təsirini düşünmürəm. Əgər total bir yanaşma olsa, Rusiyanın enerji sektorunun tamamilə dünya bazarlarından, iqtisadiyyatından kənarda qoyulması ilə bağlı ciddi addımlar Amerika tərəfindən atılsa, o zaman dünyada neft qiymətlərinin çox keskin şəkildə artmasının şahidi ola bilərik ki, bu da əslində ABŞ-ın strateji maraqlarına cavab vermir. Çünki nə qədər çalışsalar da, Rusiya dünyanın enerji sektorundan tamamilə kənarda qalmayacaq. Rusiyadan enerji asılılığı olan Avropa ölkələri var. Avropada elə ölkələr var ki, az qala Rusiyadan 90% qaz asılılıqları var. Rusiya Avropaya hər il 150-160 milyard kubmetr qaz verir. Bu da Avropanın istehlakının 1/3-dir. Bunu əvəz edəcək ikinci bir ölkə də yoxdur. Amerika istəsə belə Rusiyanı əvəz edə bilməz. Ona görə də son təşəbbüsü birbaşa "Şimal Axını-2" ilə əlaqələndirirdim. O layihənin müəyyən problemlər yarada biləcəyini Amerika düşünür. Amma bu addımın Azərbaycana kiçik dərəcədə belə təsir edəcəyini düşünmürəm. Çünki elə bir təsirli layihə imkanlarımız da yoxdur".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 106 (7276) 17 may 2019

# "Buyursunlar, qayıtsınlar, Azərbaycandan onları heç kim qovmayıb"

## Cavanşir Paşazadə: "Xaricdəki "söyüş müxalifəti"nə demək istəyirəm ki, dövlətə, dövlət başçısına həqarət etmək, bunu dünyaya yaymağın özü böyük tərbiyəsizlikdir"

**Bu il Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illiyi tamam olur. Prezident İlham Əliyev ötən ay yubiley tədbirləri ilə əlaqədar sərəncam imzalayıb. Şeyxülislamın qardaşı, YAP üzvü olan deputat, Milli Məclisin Aqrar siyasət və İctimai birliklər və dini qurumlar komitələrinin üzvü Cavanşir Paşazadə ilə müsahibəmizə əvvəlcə yubiley hazırlıqları və digər məsələlərdən başladıq.**

***- Cavanşir bəy, bu il Şeyxülislamın iki yubileyi dövlət səviyyəsində qeyd olunacaq. Yəqin ailə üzvləri olaraq siz də yubiley tədbirlərinə hazırlıq görürsünüz. Nələri planlaşdırırsınız? Bu məsələ ilə bağlı Şeyxülislamla söhbətləriniz olurmu?***

- Təbii ki. Cənab prezident İlham Əliyevin bir gündə iki fərman verməsi - həm Şeyxülislam həzrətlərinin 70 illiyi, həm də şeyxlik fəaliyyətinin 40 illiyi ilə bağlı imzaladığı fərman Paşazadələr ailəsini hədsiz dərəcədə qürurlandırdı. İlham Əliyev cənablarına biz öz minnətdarlığımızı bildiririk. Təbii ki, bu, böyük bir diqqətdir. Özü də bu diqqət təkcə Azərbaycanın Şeyxülislamına, Allahşükür Paşazadəyə yox, Azərbaycanın dindarlarına, ağsaqqallarına, keçmişinə, ənənələrinə verilən dəyərdir. Ailəmizdə bununla bağlı geniş söhbətlər oldu və biz ailə olaraq yubileylərə hazırlaşırıq.

***- Bəs Şeyxülislamın özünün yubileylərlə bağlı xüsusi arzu-istəyi, təklifi varmı?***

- Şeyxülislamın başqa istəyi nə ola bilər? Onun şeyxlik fəaliyyətinin bir hissəsi sovet dönəminə təsadüf edib, qalanı müstəqillik dövrünə. Sovet dövründə kəşməkeşli, çətin mərhələlərdən keçən bir insan olaraq Şeyx bu gün azad bir ölkənin vətəndaşı, müstəqil dövlətin Şeyxi olaraq 40 illik fəaliyyətinə dövlət səviyyəsində qiymət verilməsindən təbii ki, çox razıdır. Bundan artıq nə istək ola bilər? Ailə, nəvələr, nəticələr də verilən bu qiymətdən çox məmnundur.

***- Qardaşınızın Şeyxülislam vəzifəsinə təyin olunduğu günü xatırlayırsınızmı?***

- 1980-ci ilin əvvəlləri idi. Ulu öndər Heydər Əliyev cənabları o vaxt respublikaya rəhbərlik edirdi. O zaman Azərbaycanda dinə olan münasibət hər birimizin gözünün qabağındadır. O dövrdə tələbələri Özbəkistanda, Daşkənddə oxumağa göndərmək, onların dini savad almasına nail olmaq və geri qayıdıb burada dini məsələlərlə məşğul olmalarına nail olmaq təbii ki, böyük məsələydi. Şeyx həzrətləri hiss etsə də, etməsə də, bu qərarın arxasında Heydər Əliyevin dəstəyi var idi. Bu dəstək sırf Allahşükür Paşazadəyə deyildi. Sadəcə, məqsəd bu idi ki, dini lider Azərbaycanın içərisindən yetişsin. Bu da dini ənənələrin qorunub-saxlanması, yaşaması üçün çox mühüm addım idi. Allahşükür Paşazadə təhsil alıb qayıdandan sonra ulu öndərin Şeyxülislam seçimi ilə biz bir daha onun böyük dəstəyini gördük. Məhz ulu öndərin dövrünün yadigarı olan bir şeyxdir və bu gün artıq 40 ildir ki, Azərbaycana dini sahədə xidmət edir.

***- Şeyxülislamın qardaşı olmaq həm də müəyyən məsələlərdən özünü təcrid etmək, özünə qadağalar qoymaq deməkdir. Bu kimi məsələlərdə sizi narahat edən məqamlar yəqin ki, az olmayıb...***

- Təbii ki, olurdu. Hələ sovet dönəmində Moskvada "Oqonyok" və digər jurnallar çıxırdı. Həmin jurnallarda yazılırdı ki, Şeyxin 9 bacısı, 1 qardaşı var. O zaman mənim Kommunist Partiyasının üzvü olmağım mütləq idi. Bu, onunçün lazım idi ki, SSRİ-də bir ailədə azad seçimin olduğunu nümayiş etdirəsən. Yəni o azadlığın sübutu budur ki, bir qardaş dini məsələlərə rəhbərlik edir, digər qardaş isə kommunistdir, bunlar bir-birinə zidd məsələlər deyil. Təbii ki, bu da imperiya siyasəti idi. Mənim özümdən asılı olan bəzi məsələlər var idi. Yəni o zaman mən də təbii olaraq müəyyən məsələləri özümə rəva bilməməliydim ki, Şeyxülislamın apardığı işlərə və fəaliyyətinə xələl gətirməyim. Bu zaman harada, necə, kiminlə oturmağıma, hansı işlərlə məşğul olmağıma diqqət yetirməliydim. Başqalarının özünə rəva bildiyi bəzi məsələləri təbii ki, mən özümə rəva bilməzdim.

***- Şeyxülislam özü böyük qardaş kimi sizə nələrisə qadağan edibmi?***

- Yox. Bizim aramızda həmişə qardaşlıq, böyük-kiçiklik məsafəsi olub. Bizim aramızda 4 yaş fərq var. Baxmayaraq ki, mən də atıq müəyyən yaşa çatmışam, amma aramızdakı pərdə heç vaxt götürülməyib. Münasibətlərin bu şəkildə davam etməsi təbii ki, həm də onun sayəsində olub. Ancaq mənə heç zaman qadağa qoymayıb. Mən özüm daim hiss etmişəm ki, bu yolu getsəm, nəticəsi necə olar. Deyək ki, mən sizinlə beş gün yoldaşlıq edirəm. Bu zaman Şeyxin adına, onun apardığı dini siyasətə uyğun olmayan hansısa hərəkəti məndə görsəniz, deyəcəksiniz ki, əgər bir adam öz qardaşına hörmət eləmirsə, o, dostuna hörmət edərmi? Ona görə də mən artıq hərəkətlərə yol versəm, təbii ki, mənim özümü hörmətdən salar. Ona görə də sağ olsun dostlar, bu illər ərzində məni başa düşüblər, həmişə məni o işlərdən kənar saxlayıblar. İndi də elə tədbirlər olur ki, orada başqa məsələlər də olur...

***- Yəni içki masası...***

- Olur da. Toydur, bayramdır, yaxud başqa bir tədbir olur. O tədbirlərdə hörmətlə yanaşırlar, məni başa düşürlər. Bilirlər ki, mən belə məsələlərdən uzağam, artıq öyrəşiblər. Bu da ilk illərdən fərqli olaraq, indi mənə çox yüngüllük gətirir.

***- İbadət edirsinizmi?***

- Bəli.

***- Oruc tutursunuz?***

- Təbii ki.

***- Bəs, övladlarınız necə?***

- Onlar da oruc tutur.



"O zaman mən də müəyyən məsələləri özümə rəva bilməməliydim ki, Şeyxülislamın apardığı işlərə və fəaliyyətinə xələl gətirməyim"

***- Cavanşir bəy, orta məktəblərdə dinin tədrisi təklifinə sizin münasibətiniz necədir? Qeyd edim ki, cəmiyyətdə bu məsələ ilə bağlı fikir ayrılığı var...***

- Fikir ayrılığının hansı formada olduğunu bilmirəm. Ancaq mən onu bilirəm ki, bütün sivil ölkələrdə bu məsələ həllini tapıb. Mən demirəm ki, bu gün bizim məktəblərdə ancaq İslam dini tədris olunsun. Yox. Bütün bu kimi məsələlər qanunvericiliyə əsaslanmalıdır. Yəni bunun üçün ayrıca qanun qəbul olunmalıdır. Bütün dinlərin daşıyıcıları olan insanlar dinlərin sülh dini olmasını elə uşaqlıqdan bilsələr, daha yaxşıdır. Fikrimcə, bundan heç də qorxmaq lazım deyil. Körpə uşaq bilirsə ki, yalan danışmaq günahdır, başqasının haqqına sahiblənmək, özgəsinə ziyan vurmaq, onun qəlbini sındırmaq yaxşı iş deyil, onu küsdürmək bunun nəyi pisdir? Yaxud bir uşaq öyrənirsə ki, imkansıza əl tutmaq, yaxşılıq etmək savabdır, bunun nəyi pisdir? Uşağın hələ uşaqlıqdan vətənpərvər olmasında, Vətən üçün bütün fədakarlıqlara hazır olmağın zəruriliyini bilməsində pis nə var ki? Burada demirlər ki, sən get, mollalıq elə! Deyirlər burada yaxşı şeyləri götür. Hesab edirəm ki, heç bir dində - nə xristianlıqda, nə yəhudilikdə, nə İslamda - kiməsə zərər vermək məsələsi ola bilməz. Nə üçün uşaq bilməsin ki, kiməsə zərər yetirmək, yaxşı oxumamaq, narkotiklə məşğul olmaq, siqaret çəkmək, içki içmək pis şeydir? Bunların nəyi pisdir? Çoxları deyir ki, kəbin məsələsi düzgün deyil. Təbii ki, dövlətimizin qanunları var və qanun çərçivəsində bu işlər görülməlidir. Qanuna görə 18 yaşına çatmış vətəndaş ailə qura bilər. Dövlət nikahı olandan sonra kəbinin olmasının nəyi pisdir ki? Mən də bunun olmağının tərəfdarıyam. Hər bir insanın nədənsə qorxusu var, biri Allahdan, biri ölümdən, digəri pulunu, başqası həyatını itirməkdən, başqası cəmiyyətdə xar olmasından qorxur. Əgər bir kişi bir qadının kəbininin olduğunu bilirsə, o halda ona başqa gözlə baxmağın günah olduğunu bilirsə, bunun nəyi pisdir? Zinanın qabağını almaq üçün belə məsələləri orta məktəbdən bilməyin nə ziyanı var? Mən istərdim ki, bütün bunlarla yanaşı, bizim gənclərimiz oturuş-duruşlarını da bilsinlər. Oğlanlarımız bilsinlər ki, kişilik nə deməkdir. Elə olmasın ki, adı var, özü yox. Kişi xarakterçə kişi olmalıdır, ailə başçısı, vətəndaş, vətənpərvər olmalıdır. Hərbi xidmətdə olanda özünü əsl kişi kimi göstərməlidir. Qızlarımız bilməlidir ki, onlar sabahın analarıdır. Bu mənada düzgün istiqamət verməkdən çox şey asılıdır.

***- Növbəti seçkilərdə iştirak barədə düşünürsünüz?***

- Mən YAP-dan seçilən bir millət vəkiliyəm. Ona görə də YAP nə məsləhət bilərsə, mən də ona uyğun olaraq hərəkət edəcəyəm.

***- Son zamanlar Azərbaycanda keçiriləcək növbəti beynəlxalq miqyaslı tədbirlər ərəfəsində yenə də xarici dairələr tərəfindən ölkəmizə hücumlar artıb. Həmçinin bu sırada bəzi mühacir azərbaycanlıların da yer alması təəssüf doğurur. Siz inanclı şəxs olaraq, həmçinin dini komitənin üzvü olaraq bu barədə nə deyə bilərsiniz?***

- Bu kimi hallar əvvəllər də olub. Ümumiyyətlə, bəzi insanlar Azərbaycandakı inkişafı görmək istəmirlər. Bundan əvvəl də beynəlxalq səviyyəli tədbirlər ərəfəsində belə qaralama kampaniyaları başladıblar. Cənab prezidentin gördüyü işlərə qara yaxmaq cəhdləri daim olub. Əslində Azərbaycanda görülən işlər hər birimizin gözümüzün qabağındadır. Mən Youtube-də bir materiala baxdım. Orada Rusiyadan Azərbaycana gəlmiş bir turistdən bəhs olunur. Onun anası erməni, atası rusdur. Həmin turistin pulu olmadığından Bakıda bir binanın girişində yatır. Bu adam bir azərbaycanlı ilə tanış olur. Oğlan bunu evinə aparır, yedirib-içizdirir, deyir bu barədə heç kimə demə, biz qardaşıq. Sonra oğlan bu turisti şəhərdə gəzdirir, "Sovetski"dəki söküntü ərazisinə aparır, hansı ki, insanlar pulunu alıb oradan köçüblər. Oğlan isə buradakı xarabalıqları ona göstərir ki, Azərbaycanda insanların yaşam yeri budur. Azərbaycanlı bir gənc şərait yaradır, deyir ki, bu çəkilişi aparın və xaricdə göstərin, görün azərbaycanlılar hansı şəraitdə yaşayır. Bu azərbaycanlıda əqidə var?! Bu gün xaricdə oturub hansısa dairələrin maraqlarına uyğun olaraq Azərbaycanda həyata keçirilən böyük işlərə xələl gətirməyə çalışırlar. Həmin şəxslər etik normaları tapdayıb Azərbaycan rəhbərliyinin ünvanına özlərinin layiq olduqları ifadələri səsləndirirlər, yazırlar. Belə şəxslər ən əqidəsiz insanlardır.

***- Cavanşir bəy, amma bu da var ki, qarşılıqlı ittihamlar çıxış yolu deyil. Bəlkə də gecikmədən ortaq məxrəcə gəlmək lazımdır. Ermənistan bizim torpaqları məhz ölkədə qarışıqlığın olduğu dönəmdə işğal edib, bunu Ermənistanın keçmiş prezidenti də bu günlərdə söylədi. Bu mənada, heç olmasa böyük problemlərimizin həlli naminə daxili çəkişmələri dayandırmaq daha faydalı olmazmı? Yeri gəlmişkən, bu günlərdə Səməd Seyidov da mühacirlərə çağırış edərək onları ölkəyə qayıtmağa səslədi. Artıq bəzi mühacirlərdən müsbət reaksiya da gəlib...***

- Mən də Səməd müəllimin fikirləri ilə razıyam və təşəbbüsə qoşuluram. Həmin mühacirlərin sırasında olan ağıllı fikirlər, ideyalar müəllifi olan şəxslər varsa, buyursunlar, qayıtsınlar Azərbaycana! Azərbaycanda onlara ehtiyac var. Özü də Azərbaycandan onları heç kim qovmayıb. Gəlsinlər, burada "tet-a-tet" sözlərini desinlər. Dövlət başqa şeydir, hökumət başqa şey. Hansısa məmurdan narazılıqları ola bilər, amma bu narazılığı dövlətə qarşı çevirməməlidirlər. Xaricdəki "söyüş müxalifəti"nə demək istəyirəm ki, dövlətə, dövlət başçısına həqarət etmək, bunu dünyaya yaymağın üzə böyük tərbiyəsizlikdir. O insanlar ki, bu gün Azərbaycanı doğrudan da müdafiə edirlər, öz xalqı, öz cəmiyyəti, öz dövlətidir, buyurub gəlsinlər. Ata-anası, bacı-qardaşı, qohumları buradadır, gəlsinlər. Bəli, onlara da bu ölkədə ehtiyac var. Siz görürsünüz ki, cənab prezident bütün sahələrdəki çatışmazlıqlara şəxsən özü reaksiya verir. Buyurub cənab prezidentə müraciət etsinlər, necə ki, Emin Milli müraciət etdi, cənab prezidentdən üzr istədi. Qoy digərləri də səmimi, aydın şəkildə öz fikirlərini bildirsinlər, daha təhqirlə yox. Hökumətə "kartoşka gülləsi" atmaq lazım deyil. Özlərini də biabır edirlər, dövlətə də çamur atırlar. Belə olan şəraitdə pislərin hərəkətlərinə görə yaxşılar da gözdən düşür, necə deyərlər, qurunun oduna yaş da yanır. Mən hesab edirəm ki, mühacirlərin içərisindəki yaxşılar, sağlam düşüncə sahibləri, ideya müəllifləri digərlərindən, dövləti yadellilərin ayağına verən, ölkəmizə, prezidentimizə çamur atan şəxslərdən ayrılmalıdırlar. Normal düşüncə sahibləri həmin destruktiv qüvvələrlə bir sırada dayanmağı özlərinə rəva bilməməlidirlər. Mən istəmirəm ki, Azərbaycan xalqı bir dəstə xəstə düşüncəli şəxslərin hesabına digər sağlam fikirli insanlarımıza da nifrət bəsləsin. Həmin adamlar bilməlidirlər ki, onlar da bizim qardaşlarımızdır, onlara ehtiyacımız var. Fikir ayrılığı ola bilər, amma dövlətə qarşı çıxmaq olmaz. Qayıdıb gəlsinlər, bu Vətənin inkişafına dəstək olsunlar. Bizim düşmənlərimiz də görsünlər ki, bu xalqı parçalamaq mümkün deyil. Qayıtmaq fikri olmayanları da diaspora təşkilatlarında birləşməyə çağırıram. Bir neçə ay bundan əvvəl biz Moskvada, səfirimiz Polad Bülbüloğlu ilə birgə diaspora nümayəndələri ilə görüşdük, onların fikirlərini dinlədik. Sağlam qüvvələrimiz diaspora təşkilatlarında birləşməli, öz fikirlərini deməlidir. Diaspora Komitəsinin sədri Fuad Muradov da gənc kadrdır, bizim keçmiş həmkarımızdır, işləyən adamdır. İstərdim ki, diasporadakı insanlarımız Azərbaycan naminə fəaliyyət göstərsinlər. Umu-küsüləri bir kənara qoyub Azərbaycan naminə, Qarabağ naminə birləşmək lazımdır. Kimlər ki, xarici qüvvələrin əlində oyuncağa çevriləcək, Azərbaycana qarşı qaralama kampaniyalarında yer alacaq, onları nə xalq, nə tarix bağışlamayacaq...

❑ Elşad PAŞASOY,
"Yeni Müsavat"

# Mahmudov həbsə gedir, generallar isə azadlıq istəyir

## Sabiq nazirin əmisi oğlu həbsxana yolunda; yaxın günlərdə isə Ali Məhkəmədə Akif Çovdarov və digərlərinin kasasiya şikayətinə baxılacaq...

**"MTN işi" üzrə gözlənilməz gəlişmə müşahidə edilməkdədir. 2015-ci ilin oktyabrında Eldar Mahmudovun həbsə alınan komandasının üzvlərinə məhkəmələrində loyal münasibət sərgilənir. Əvəzində Mahmudovun özünə və yaxınlarına qarşı addımlar atılmaqdadır. Məsələn, MTN-in Nəqliyyat və Energetika və Sahələrində Təhlükəsizlik Baş İdarəsinin tabeliyindəki idarələrdən birinə rəhbərlik etmiş Akif Əliyevin cəzası 1 il azaldılaraq, 4 ilə endirilib. Bu barədə Ali Məhkəmədə qərar çıxarılıb. Qərara əsasən, A.Əliyevə verilən ittiham maddələri də dəyişib. A.Əliyev Nəqliyyat və Energetika Sahələrində Təhlükəsizlik Baş İdarəsinin rəisi Akif Çovdarovla birlikdə mühakimə olunmuşdu.**

2015-ci ilin oktyabrında MTN-də keçirilmiş əməliyyat nəticəsində nazirliyin 21 əməkdaşı cinayət məsuliyyətinə cəlb olunub. Onlardan biri - MTN-in Antiterror Mərkəzinin rəis müavini olmuş polkovnik İlqar Əliyevin asılmış vəziyyətdə meyiti saxlandığı istintaq təcridxanasındakı kamerasında aşkar olunmuşdu.

Qalan 20 nəfərin işi bir neçə yerə ayrılıb. Nazirliyin İstintaq İdarəsinin şöbə rəisi olmuş Vüsal Ələkbərov və Əks-Kəşfiyyat İdarəsinin keçmiş şöbə rəisi Mirəziz Əsgərov ayrılıqda mühakimə olunublar. M.Əsgərova 3, V.Ələkbərova 12 il cəza verilib. Bakı Apelyasiya Məhkəməsi keçmiş müstəntiq V.Ələkbərovun cəzasını 5 ilə endirib. MTN generalı Akif Çovdarov nazirliyin Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik İdarəsində onun tabeliyində işləmiş daha 3 nəfərlə birlikdə məhkəmə qarşısına çıxarılıb. Akif Çovdarova 12, işçilərinə isə 4 ildən 11 ilədək həbs cəzası kəsilib. Uzun illər MTN-in Antiterror Mərkəzinə rəhbərlik etmiş general Elçin Quliyev də keçmiş işçisi Azər Mehdiyevlə birlikdə məhkum edilib. E.Quliyev 10 il 6 ay, işçisi isə 8 il azadlıqdan məhrum olunub. Nazirliyin Transmilli İqtisadi Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisi olmuş general Sübahir Qurbanov, Monitorinq Mərkəzinin sabiq rəisi, general Teymur Quliyev, Natəvan Mürvətova və daha yeddi nəfər isə birlikdə mühakimə olunub. Hökmə əsasən, təqsirləndirilən şəxslərdən üçünə, o cümlədən N.Mürvətovaya şərti cəza, qalanlarına isə 3 ildən 14 ilədək həbs verilib. Bakı Hərbi Məhkəməsinin hökmündə onların rütbələrinin alınması, bir çox əmlaklarının müsadirəsi də var.

Eldar Mahmudovun komanda üzvlərinin həbsindən 2 il sonra - 2017-ci ilin noyabrında sabiq nazirin köməkçisi olmuş əmisi oğlu Vüqar Mahmudov da həbs olunub. Hazırda onun məhkəməsi gedir. Eldar Mahmudova vəzifədən çıxarılandan sonra həbs olunan sabiq MTN-çilərdən bir neçəsi isə artıq azadlığa buraxılıb.

Yaxın günlərdə Ali Məhkəmədə MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov, MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov və digərlərinin kasasiya şikayəti üzrə məhkəmə prosesi başlayacaq.



Akif Çovdarov, Səlim Məmmədov, Akif Əliyev və Orxan Osmanov Bakı Apelyasiya Məhkəməsinin barələrindəki qərarından narazıdırlar. Onların kasasiya şikayətinə Ali Məhkəmədə hakim Əziz Seyidovun sədrliyi ilə baxılacaq.

Bakı Hərbi Məhkəməsinin hökmü ilə Akif Çovdarov 12 il, Səlim Məmmədov 11 il, Akif Əliyev 5 il və Orxan Osmanov 4 il müddətinə azadlıqdan məhrum edilib. Onların 33 milyon manatlıq əmlaklarının əksəriyyəti müsadirə edilib. Bundan başqa, A.Çovdarovun ailə üzvləri - oğlu Ruslan Çovdarov, həyat yoldaşı İbadət Çovdarova, qızları - Günay Əmircanova və Aidə Qadımova da apelyasiya şikayəti ilə məhkəməyə müraciət ediblər. Bakı Apelyasiya Məhkəməsi A.Çovdarov və digərlərinin apelyasiya şikayətini təmin etməyib. A.Əliyev cəza müddət başa çatdığı üçün bir müddət əvvəl azadlığa buraxılıb.

Belə bir vaxtda Eldar Mahmudovun əmisi oğlu Vüqar Mahmudovun işi Bakı Hərbi Məhkəməsinə daxil olub və hakim Elbəy Allahverdiyevin icraatına verilib. Cinayət işi üzrə 7 zərərçəkən var və onlardan biri YAP-ın Yasamal təşkilatının sədri Tağı Əhmədovdur. Tağı Əhmədov MTN-çilər tərəfindən ona 3 milyon manat ziyan vurulduğunu, həmin məbləğin alınmasında Eldar Mahmudovun əmisi oğlu Vüqar Mahmudovun da adını çəkib. Belə görünür ki, Vüqar Mahmudovun məhkməsində digər zərərçəkənlər Tağı Əhmədovun kölgəsində qalacaqlar. Sabiq nazirin əmisi oğluna Tağı Əhmədov epizodu üzrə ittihamedici hökm veriləcəyi istisna deyil.

Vüqar Mahmudov MTN-in Antiterror Mərkəzinin şöbə rəisinin müavini vəzifəsində işləsə də, faktiki olaraq nazirin köməkçisi funksiyasını həyata keçirib. Onun adı "MTN işi"nin istintaqı başlayandan dərhal sonra gündəmə gəlib. Vəzifədə olduğu dövrdə V.Mahmudovun MTN-də hətta nazir müavinlərindən də səlahiyyətli şəxs olduğu heç kimə sirr deyildi. Belə iddialar da vardı ki, MTN-çilərin qeyri-qanuni yığdıqları pullar V.Mahmudova verilib ki, bu səbəbdən də onu "qara kassa" adlandırırdılar. Onun bu pulları nazir üçün yığdığı bəlli olduğundan "obşiy kotyol"dan kimsə yayına bilməzdi. V.Mahmudovun nazirin adından danışmaq, əmr vermək və cəzalanacaq iş adamlarının siyahısını hazırlamaq kimi səlahiyyətlərinin olması xəbərləri də təkzib olunmur. Göründüyü kimi, sabiq nazirin ən yaxın adamı həbsxana yolunda olsa da, Eldar Mahmudovun generalları israrla azadlıq istəyir.

**❑ E.MƏMMƏDƏLİYEV**
**"Yeni Müsavat"**

# Eldar Əzizovun korrupsiya mübarizəsi və Abutalıbovun günahı...

## Ekspert: "BŞİH-in maliyyəsi, hətta polisi olmalıdır"

**Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov qurum daxilində korrupsiyaya bulaşmış kadrları təmizləyir. Aprelin 24-də Bakı Şəhər İcra Hakimiyyətində aparatın və struktura daxil təsərrüfat xidmətlərinin rəhbərlərinin iştirakı ilə iş forma və metodlarına, eləcə də neqativ hallar və korrupsiya ilə mübarizə məsələlərinə həsr olunmuş geniş müşavirə keçirilib. Müşavirədə Eldar Əzizov hələ də bəzi neqativ halların mövcud olduğunu qeyd edib, belə hallara qarşı ciddi mübarizə aparılacağını və aşkarlanan faktlar barədə hüquq-mühafizə orqanlarına müraciət ediləcəyini bildirib.**




Bu ilin mart ayında Hesablama Palatası BŞİH müvafiq strukturlarda xeyli korrupsiya faktını özündə birləşdirən məlumatlar açıqlayıb. Ötən sayımızda məlumat verdiyimiz kimi, Əzizov bu kimi qanunsuzluqlara yol verən kadrlardan biri olan Mənzil-Kommunal Təsərrüfatı Departamentinin sədr Rəfael Mehraliyevin səlahiyyətlərini əlindən alıb. Bildirilir ki, E. Əzizovun bu qərarı verməsinə səbəb departamentin özündə və tabeçiliyində olan qurumlarda rüşvət və korrupsiya faktları aşkarlanması, paytaxtın bəzi dövlət obyektlərinin tikintisi, yenidən təmiri zamanı baş vermiş korrupsiya faktlarının üzə çıxmasıdır.

Bəs bu işlərdə Eldar Əzizovdan öncə Bakı şəhərinin icra başçısı vəzifəsini tutan Hacıbala Abutalıbovun günahı nə qədərdir?

Araşdırmalar göstərir ki, hazırda işində nöqsan tutulan kadrlar elə Abutalıbovun dövründə vəzifəyə gətirilib. Ekspertlərin fikrincə, Abutalıbovun zamanında Bakı şəhərində xeyli qanunsuz tikililər salınıb ki, bu gün həmin tikililər həm yol infrastrukturunun genişləndirilməsinə, həm də kanalizasiya xətlərinin bərpasına problem yaradır. Eyni zamanda Abutalıbovun zamanında Bakının Baş planı da unudulub. Ekspertlər bildirirlər ki, tikintilər aparılan zaman sonuncu Baş plana heç baxılmayıb da. Nəticədə Bakının amfiteatr üslubu tamamilə sıradan çıxıb və havanın şəhər üzərində hərəkətində belə problemlər yaşanır. Bakı Şəhər İcra Hakimiyyətinin səlahiyyətləri hələ Abutalıbovun dövründə xeyli məhdudlaşdırıldı. Lakin buna baxmayaraq, hələ də şəhərin idarəçiliyi bu quruma tapşırılıb.

**Bəs Əzizov nöqsanları aradan qaldırıb, korrupsiyanın kökünü kəsə biləcəkmi?**

**"Yeni Müsavat"a danışan ekspert Əzim Məsimov söylədi ki, Bakını idarə etmək üçün dünya təcrübəsindən bəhrələnmək lazımdır:** "Hazırda icra hakimiyyətinin əlində demək olar ki, heç nə yoxdur. Məsələ burasındadır ki, hətta Bakının zibili belə bu qurumun tabeliyində deyil. İlk olaraq Bakını idarə edən qurumun səlahiyyətlərini bərpa etmək lazımdır. Bu qurumun maliyyəsi, hətta polisi belə olmalıdır. Kommunikasiyaları da icra hakimiyyətinə vermək lazımdır. Bakı boyda ərazinin vahid idarəçiliyi yoxdur. Bütün demokratik ölkələrdə bələdiyyələr hakimdir. Biz görürük ki, Türkiyədə bələdiyyə üstündə dava gedir. Çünki bələdiyyələr orada yerli hökumət sayılır və hər şey də onun əlindədir. Bizdə isə belə deyil. İndiyədək də mənzil istismar idarələri ilə bələdiyyələr arasında sərhəd qoyan yoxdur. Bilinmir ki, MİS nəyə, bələdiyyə hansı işə lazımdır? Ona görə də mütləq şəkildə bələdiyyə yaranmalıdır. Bu bələdiyyə yerli icranı təmin etməlidir. Mən Amerikada şəhər bələdiyyəsi ilə görüşmüşdüm. Onunla söhbətimdə gördüm ki, bələdiyyələr necə dəqiqliyi ilə idarəçilik işini aparırlar. Baxırıq ki, rayonlarda bələdiyyə var, Bakıda isə yoxdur. Bu, necə ola bilər? Bakıda bələdiyyə yaranmalı, bütün təsərrüfatlar da ona tabe olmalıdır. Şəhərə xidmət edən özəl şirkətlər də bu qurumla birlikdə işləməlidir. Tender əsasında sifariş alıb, iş görməlidir. Bütün bunlar həll olunmada Bakının idarəçiliyində əsaslı dəyişiklik aparmaq mümkün deyil. Dünya təcrübəsinə uyğun olaraq Bakının yeni strukturu yaradılmalıdır. Məsələn, Moskva, Ankara, İstanbuldakı kimi iş görmək olar. Elə həmin şəhərlərdəki idarəetmə sistemini olduğu kimi tətbiq edərsək, xeyli irəli düşmüş olarıq. Bizdə kimin nəyə cavab verdiyini söyləmək çətindir. Bələdiyyələr tam olaraq formalaşdırılmalı, mərkəzlə əlaqəsi təmin edilməlidir. Hazırda Eldar Əzizov işləyir. Ancaq əlində yuxarıda söylədiyimiz kimi çox geniş səlahiyyət yoxdur. Bundan başlamaq lazımdır ki, əmlak, fəaliyyət sahəsi, struktur dünya təcrübəsinə əsaslanaraq hazırlanmalıdır. Yeni strukturda nəzarət olacaq və bələdiyyələr belə öz əmlaklarına nəzarət edəcəklər. O zaman korrupsiyaya qarşı da mübarizə öz effektini verəcək. Çünki idarəçilik forması da dəyişəcək".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 106 (7276) 17 may 2019

# Cəmil Həsənlinin iddialarına deputatdan sərt reaksiya

## Fəzail Ağamalı: "Cəmil Həsənli bu rəqəmi haradan götürüb?"



**Milli Şuranın sədri Cəmil Həsənli "Amerikanın Səsi"nə geniş müsahibə verib. Tarixçi professor həmin müsahibədə iki ciddi iddia ilə çıxış edib. MŞ rəhbəri Azərbaycanın Avropa İttifaqı ilə strateji tərəfdaşlıq sazişini imzalamağa hazır olmadığını bildirib. O, fikirlərinə arqument kimi, ölkəmizdə insan haqları və bu tipli məsələlərdə olan problemləri göstərib.**

C.Həsənlinin ikinci iddiası müdhişdir. MŞ rəhbəri son 2-3 ildə Azərbaycanda 30-a yaxın vətəndaşın məhkəməsiz, istintaqsız terrorist kimi güllələndiyini deyib. Bu da olduqca ciddi bir iddiadır.

MŞ rəhbərinin dediklərinə **Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı** "Yeni Müsavat"da aydınlıq gətirdi: "Kifayət qədər ciddi qurum olan Avropa İttifaqının, eyni zamanda, yetərincə dövlətçilikdə əhəmiyyətli təcrübəsi və dəyişilməz prinsipal mövqeyi olan İlham Əliyevin stolun üstündə olan və razılaşdırma prosesi gedən müqavilənin ayrı-ayrı bəndləri haqqında Cəmil Həsənli haradan məlumat götürə bilər? Təbii ki, heç yerdən. Deməli, onun dedikləri əsası olmayan fikirlərdir. Sadəcə olaraq, Azərbaycanın mövqeyini zəiflətmək və bu mövqeyi zəiflətməklə Avropa İttifaqının maraqları çərçivəsində sərf edən sazişi imzalatmağa çalışan qüvvələr var. Cəmil Həsənli kimi şəxslər də məhz onların diktəsi ilə hərəkət edərək, Azərbaycanın daxilində ictimai rəyi bu şəkildə formalaşdırmağa cəhd göstərir. Dəfələrlə söyləmişəm, indi bir daha deyirəm: Cəmil Həsənli tarixçi kimi özünü təsdiq etmiş alimdir. Ancaq bu adam yaşının ixtiyar çağında da dərk etmir ki, siyasət onluq deyil. Yalanlarla, böhtanlarla, Azərbaycana şər atmaqla siyasətdə qalmaq mümkün deyil. Ən azından həm də Azərbaycanın tarixində şərəfli bir yer tutmaq mümkün deyil. Ona görə də, ümidvaram ki, yaxın vaxtlarda imzalanacaq sazişdə Azərbaycanın təkid etdiyi, xüsusilə üstündə dayandığı məsələ olan bu sazişdə ölkəmizin birmənalı olaraq ərazi bütövlüyünün tanınması, işğal olunmuş ərazilərimizin azad edilməsi prinsipi öz əksini tapacaq. Bu da Azərbaycanın milli maraqlarına söykənən mövqedir. Ölkə prezidenti heç bir halda bu prinsipdən imtina etməyəcək. Necə ki, bir neçə gün bundan öncə Brüsseldəki sammitdə qəbul ediləcək bəyannamədə dövlətimizin kəskin mövqeyi ortada oldu. Bütün bunlar Azərbaycanın dəyişməz mövqeyinin ifadəsi idi. Avropa İttifaqı çalışır ki, bu sazişdə üstün mövqelərə çıxsın, bu mövqeləri əldə etsin. Amma Azərbaycan buna imkan verməyəcək. Cəmil Həsənlinin bu tipli açıqlamaları ölkəmizin milli maraqlarına tamamilə ziddir".

**Deputat tarixçi professorun 30-a yaxın vətəndaşın güllələndiyi barədə dediklərinə də münasibət bildirdi:** "Bu da olduqca yanlış yanaşmadır. Cəmil Həsənli bu rəqəmi haradan götürüb? Əgər terrorçu silahlanaraq, hüquq-mühafizə orqanlarının təslim ol çağırışlarına, əmrinə cavab vermirsə, həmin silahla hüquq-mühafizə orqanlarını hədəfə alırsa, dünyanın hər yerində olduğu kimi, Azərbaycan xalqının təhlükəsizliyini təmin etmək kimi ciddi bir funksiyasını yerinə yetirən orqan onu yerindəcə güllələməlidir. Amerika dünyanın aparıcı, demokratik ölkəsidir. Orada dəfələrlə belə hadisələrin şahidi olmuşuq. Polis terrorçuya, əli silahlıya əmr edir ki, silahı yerə qoy, əllərini göyə qaldır, tərpənmə, əgər o buna əməl etmirsə, silahını hətta döndərməyə macal tapmamış, polis onu güllələyir. Düşünürəm ki, bunu da çox düz edir. Azərbaycanda da bu cür hallar olubdur. Terrorçular, ekstremistlər təslim olmayanda, silahlı müqavimət göstərəndə qəbul olunmuş prinsipə uyğun şəkildə yerindəcə zərərsizləşdirilməlidir. Azərbaycan polisi də bunu edir. Əgər Cəmil Həsənli bunu demokratiyanın pozulması kimi izah edirsə, artıq onun dünyagörüşünə də xeyli dərəcədə şübhəm yaranır. Çünki ən azı dünya təcrübəsini, bu gün əlində bayraq etdiyi ölkələrin davranışlarını gözü önünə gətirməlidir".



❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Jurnalistlərə "qıcıqlı" Ənvər Seyidov unudulmaq istəyir

## 70 yaşı tamam olduğu üçün təqaüdə göndərilən hakim "Barəmdə nəsə yazılmasını istəmirəm" deyir; Sərdar Cəlaloğlu: "Hər kəs onu qanunları pozan biri kimi tanıyır"

**Bakı Ağır Cinayətlər Məhkəməsinin məşhur - daha dəqiqi, bir sıra qalmaqallı proseslərdə adı keçən hakimi Ənvər Seyidov 70 yaşı tamam olduğu üçün təqaüdə göndərilib.**

Ə.Seyidov modern.az saytına açıqlamasında 70 illiyi ilə bağlı filmə çəkildiyini vurğulayaraq, yazılı mətbuata açıqlama verməkdə maraqlı olmadığını dilə gətirib: "Mən jurnalistlərə, açıqlamalara qıcıq oluram. Artıq açıqlamanın, bağlamanın vaxtı keçib. Xahiş edirəm, bundan sonra məni narahat etməyin. Barəmdə nəsə yazılmasını istəmirəm. Şərt deyil ki, qəzetdə də mənim barəmdə yazı çıxsın, televiziyada 70 illiyimlə bağlı film çəkilir. Bu, mənim bəsimdir".

Əslində Ənvər Seyidovun jurnalistlərə "qıcıq olması" haradasa məntiqə uyğundur. Çünki hörmətli Seyidovun hakim kimi yol verdiyi qanunsuzluqlar barədə mətbuat zaman-zaman yazıb. Onun adı sifarişli hökmlər çıxaran hakimlər sırasında çəkilib. Bu faktları da jurnalistlər davamlı olaraq işıqlandırıblar. Bu mənada Ənvər Seyidov qıcığının səbəbini özündə axtarmalı idi...

İctimai-siyasi proseslərdə iştirak edən şəxslər də Ənvər Seyidov haqqında müsbət fikirdə deyillər.

**ADP sədri Sərdar Cəlaloğlu "Yeni Müsavat"a bildirib ki, Seyidov hüquqa, qanuna hörmət etməyən, istənilən sifarişi nöqtə-vergülünə qədər yerinə yetirib, bir qədər də üstünə qoyan insandır:** "Şəki hadisələri ərəfəsində bizim partiyanın Şəki rayon təşkilatının üzvlərinə qeyri-qanuni olaraq, uzunmüddətli həbs cəzası vermişdi. Əslində həmin ərəfədə (2000-ci il) bizim üzvlər xalqı sakitləşdirməyə çalışırdı. Onların heç birinin günahı yox idi. Ümumilikdə, müxalifət camiyəsində hər kəs onu qanunları pozan, siyasi sifarişləri yerinə yetirən ən ədalətsiz cəza verən bir adam kimi tanıyır".

**Ənvər Seyidovun adı həm də "MTN çetesi" ilə bağlanıb. Ə.Seyidovun MTN-in sabiq rəhbəri Eldar Mahmudovla da sıx əlaqəsi olub. Bu barədə də xeyli məlumatlar var. Onun 2016-cı ildə Eldar Mahmudova yazdığı məktub mediada və sosial şəbəkələrdə böyük rezonansa səbəb olmuşdu. Həmin zaman Seyidovun qanuna saygısız əməlləri ilə bağlı "Yeni Müsavat" qəzetinin əməkdaşı Elşən Məmmədəliyev bildirib ki, mətbuatda "Səidin dəstəsi" şərti adı ilə məşhurlaşan cinayət işinin ibtidai istintaqını aparan hakim Ənvər Seyidov sifarişi qanundan ötə bilmişdi:**



"Ənvər Seyidov həmin gənclərin yaxınlarına hələ məhkəmə zamanı günahsız olduqlarını söyləmişdi. Demişdi ki, övladlarının günahsız olduğunu bilir...

Amma bu, Ənvər Seyidova 2-3 universitet bitirmiş və ittiham üzrə günahsızlıqlarına şübhə olmayan gənclərə 10-14 il müddətinə azadlıqdan məhrum edilməsi haqda hökm çıxarmağa mane olmadı. Ənvər Seyidov onu da bilirdi ki, "Səidin dəstəsi" şərti adı altında bir araya cəmləşdirilmiş, dəstə şəklinə salınmış gənclərdən Emin Məmmədov toyuna 1 ay qalmış, həbsdə ikən işgəncələrə məruz qalaraq öldürülüb, digərləri isə ən ağır, qeyri-insani işgəncələrə məruz qalıblar.

Ənvər Seyidovun karyera yolu da qəribədir. O, İncəsənət Universitetinə Adil İsgəndərovun rəhbərliyi dövründə ilk cəhddə qəbul edilib. 1949-cu ilin 29 martında Oğuz rayonunda anadan olan Ə.Seyidov diplomlu aktyor ola bilməyib. Müsahibələrindən birində etiraf edib ki, onu hüquq fakültəsinə yönləndiriblər. Aktyorluq bacarığı onun dadına məhkəmə zalında, məhkəmə binası qarşısında təqsirləndirilən şəxslərin yaxınları ilə görüşündə gəlir. Bu gün onu lənətləyənlərin bunun üçün kifayət qədər əsasları var. "Səidin dəstəsi"nin işində Ənvər Seyidov tutulan günahsız gənclərin valideynlərini məhkəmə gedişatı dövründə o dərəcədə inandırmışdı ki, kimsə valideynləri hakimin ədalət mühakiməsi adına biabırçı hökm çıxaracağına inandıra bilməzdi.

Valideynlərə "övladlarınız günahsızdır" deyən Ənvər Seyidov digər tərəfdən Eldar Mahmudova yaltaqca məktub yazaraq, həmin valideynlərin övladlarını əsassız olaraq böhtan atıb həbs edən, ağır işgəncəyə məruz qoyan MTN-in Anti-Terror Mərkəzinin bir qrup əməkdaşının mükafatlandırılmasını xahiş etmişdi. Üstəlik, hakimin belə bir məktub yazması qanunda nəzərdə tutulmur. Ənvər Seyidovun bu məktubu qanundan kənardır.

Ənvər Seyidov Eldar Mahmudovun sifarişi ilə yazılmış saxta ittiham aktlarını hökmlərə köçürməklə də ad çıxarıb. "Səidin dəstəsi" şərti adı altında məhkəmə qarşısına çıxarılan, Ənvər Seyidovun hökmü ilə məhkum edilmiş gənclərin bir çoxunun valideynləri övladlarına qarşı haqsızlıqlara dözməyərək dünyalarını dəyişiblər. Bu haqda danışan Səid Dadaşbəylinin bacısı Türkan Dadaşbəyli demişdi ki, Ənvər Seyidov ədalətsiz hökmə imza atmaqla qardaşı və digər həbs edilmiş şəxslərə qarşı faktiki olaraq böyük qanunsuzluğa yol verib: "Onun o qanunsuz hökmündən sonra anam onkoloji xəstəlik tapdı, atam hazırda onkoloji xəstədir. Haqsızlığa dözə bilmədilər. Bunlar hamısı stressdən, haqsızlıq və ədalətsizlikdən yaranan depressiyadan oldu. Oğul böyüdüblər, 4 ali təhsil veriblər. Səidin 52 ölkə ilə işgüzar münasibəti vardı. Qardaşım İqtisad Universitetini, Harvard Universitetini fərqlənmə ilə bitirib, Kanadanın vətəndaşı olub. Onun günahı yox idi. Və günahı olmaya-olmaya Ənvər Seyidov onu 14 il azadlıqdan məhrum etdi. Qardaşımın məhkum olunması, digər uşaqların valideynlərinin ölümü Ənvər Seyidovun üzərindədir..."

Ənvər Seyidovun haqqında bu kimi faktların siyahısını kifayət qədər uzatmaq olar. Təsadüfi deyil ki, bu gün siyasilərin, yolu Ənvər Seyidovun hakimliyi ilə baş tutan məhkəmədən keçən şəxslərin Seyidova qarşı böyük antipatiyaları var. Onun öz dili ilə desək, bu gün Ənvər Seyidova qarşı qıcıq olan insanların sayı ölçüyə gəlməz qədərdir...

❑ **Əli RAİS, "Yeni Müsavat"**

**Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmasından 27 il keçir. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil olmayan Laçın rayonuna ciddi təhlükə 1992-ci il mayın 8-də Şuşa ermənilər tərəfindən işğal olunduqdan sonra yaranmışdı. Şuşanın işğalından sonrakı günlərdə Ermənistan silahlı qüvvələri Laçın rayon mərkəzini intensiv olaraq ağır artilleriya silahlarından atəşə tuturdu. 1992-ci il mayın 16-dan 17-nə keçən gecə Şuşa şəhərinin Turşsu deyilən ərazisindən və Ermənistanın Gorus rayonu istiqamətindən hücuma keçən erməni ordusu mayın 18-də Laçını tamamilə işğal etdilər. Rayonun işğalını reallaşdıran düşmən qüvvələrin böyük hissəsi Laçın dəhlizi vasitəsilə daxil olub.**

# Qarabağ savaşının taleyini dəyişən işğal

## Laçının işğalı ilə separatçı Dağlıq Qarabağ erməniləri ilə Ermənistan arasında quru yolu açıldı




Həmin dövrdə Laçından və ətraf rayonlardan çıxarılan Azərbaycan Silahlı Qüvvələrinin əksər bölmələri Bakıdakı siyasi qarşıdurmalara cəlb olunurdu. Yəni paytaxtdakı aksiyalara qoşulan ordu cəbhə bölgələrindəki mövqelərimizi nəzarətsiz qoymuşdu. Nəticədə ardıcıl işğal olunan rayonlarımızın sırasına Laçın da qoşuldu.

Əhəmiyyətli geostrateji mövqeyə malik Laçının işğalı Azərbaycan iqtisadiyyatına ciddi ziyan vurdu.

1835 kvadrat kilometr ərazisi, 121 kəndi, 70 mindən yuxarı əhalisi olan Laçın rayonunun əhalisi işğal nəticəsində etnik təmizləməyə məruz qalıb, rayonun işğalı zamanı 238 nəfər şəhid olub, 66 adam girov götürülüb, 105 nəfər əlilə çevrilib.

Laçının müdafiəsində iştirak etmiş hərbçilər müxtəlif vaxtlarda bildiriblər ki, Laçının işğalında Ermənistan ordusu ilə yanaşı rusların 100 tankı və iki batalyonu da iştirak edib.

Şuşanın işğalından sonra fəlakət təhlükəsi Laçının başı üzərində fırlanırdı. Laçın İrəvanla separatçı Dağlıq Qarabağ erməniləri arasında böyük əhəmiyyətə malik vacib bir "koridor" idi. Məhz bu strateji əhəmiyyətinə görə ermənilər laçını "həyat yolu" adlandırıb Gorus-Şuşa arasında olan bu geniş həm də tarixi cəhətdən çox əhəmiyyətli və maraqlı olan Laçın massivini işğal etməyi qarşılarına məqsəd qoymuşdular.

Ermənilər bu arzularını gerçəkləşdirmək üçün 70 ildən çox fasiləsiz mübarizə aparsalar da hər dəfə uğursuzluğa düçar olmuşdular. 90-cı illər erməni terrorizminin strateqləri olan Z.Balayan, R.Köçəryan və S.Sərkisyan Laçın üzərinə hücumu Şuşanın süqutundan sonraya planlaşdırmışdılar. Onlar düşünürdülər ki, Xocalının və Şuşanın faciəsindən sonra şoka düşən əliyalın Laçın xalqı erməni silahlıları qarşısında duruş gətirə bilməyəcəklər. Belə də etdilər. O dövrdə Laçının işğalı bir çox cavabsız və müəmmalı suallar doğurdu...

8 may 1992-ci il tarixdə Şuşa şəhəri ermənilər tərəfindən işğal edildi. Bundan cəmi 10 gün sonra Laçının işğalı başa çatdırıldı. Bu işğalla bağlı haqlı bir sual ortalığa çıxır, Şuşa uğrunda döyüşən erməni döyüşçülərinin başı Şuşada və onun işğal olunmuş digər kəndlərində qarətə və soyğunçuluğa qarışdığı halda, ordu rəhbərliyi belə tez hərbi qüvvələrini komplektləşdirərək qısa müddətdə Laçın kimi sərt coğrafi relyefə malik bir rayonu belə asanlıqla necə işğal edə bildi?

Hərbi baxımdan da 10 gün müddət ərzində Ermənistanın Qarabağa yeritdiyi hərbi bölmələri Şuşa üzərindəki bu cür ağır döyüşlərdən sonra Laçını işğal etmək gücündə ola bilməzdi. Bütün bunlar Laçının işğalının daha böyük-ikinci bir qüvvə tərəfindən həyata keçirildiyi barədə deyilənləri inandırıcı edir.

Laçının işğalı ilə Ermənistan tərəfindən rayonda dövlət və özəl mülkiyyətə ciddi zərər yetirilib. Belə ki, 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri talan və məhv edilib.

54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalıb. 6-cı əsrə aid Alban Ağoğlan məbədi, 14-cü əsrə aid Məlik Əjdər türbəsi, Qaraqışlaq kəndində məscid, Zabux kəndində qədim qəbiristanlıq bunların sırasındadır. Laçın Tarix Muzeyi və onun qızıl, gümüş və tunc sikkələrdən ibarət qədim kolleksiyası talan edilib. Həmçinin talan edilmiş Laçın Tarix Muzeyinin eksponatı olan gümüş əl çantası Londonda "Sotheby's" auksionunda 80 min ABŞ dollarına satılıb.

Ermənistan işğalçı tərəf olaraq Cenevrə konvensiyaları ilə üzərinə düşən öhdəlikləri kobud şəkildə pozaraq, Laçın rayonunda coğrafi adların dəyişdirilməsi, rayonun təbii resurslarının talan edilməsi və qazanc mənbəyinə çevrilməsi, əsasən Suriyadan olan erməni əsilli qaçqınlar olmaqla məqsədyönlü məskunlaşma siyasətini apararaq demoqrafik tərkibin dəyişdirilməsi kimi qeyri-qanuni əməlləri davam etdirir.

Avropa İnsan Hüquqları Məhkəməsi "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə Azərbaycanın Laçın rayonundan məcburi qovulmuş Azərbaycan vətəndaşlarının xeyrinə qərar qəbul edərək onların İnsan Hüquqları və Fundamental Azadlıqların qorunmasına dair Konvensiya üzrə mülkiyyət hüququ, şəxsi və ailə həyatına hörmət kimi hüquqlarının pozulduğunu təsbit edib. Həmçinin qərarın 19 və 20-ci paraqraflarında Laçın rayonu, əlalxüsus Laçın şəhərinin hərbi hücuma məruz qalması, 1992-ci il may ayının ortalarında Laçının havadan bombardman edilməsi və bunun nəticəsində çoxlu sayda evlərin dağıdılması, şəhərin talan edilməsi və yandırılması, hərbi münaqişə dövründə Laçın və ətraf kəndlərin tamamilə dağıdılması öz təsdiqini tapıb.

Ermənistanın kəskinləşən hərbi təcavüzü şəraitində BMT-nin Təhlükəsizlik Şurası 1993-cü ildə 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı qətnamələri qəbul edərək, Azərbaycan ərazilərinin işğalını pisləyib, Azərbaycanın ərazi bütövlüyü, suverenliyini və Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha təsdiq edərək işğalçı qüvvələrin zəbt olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edib. Lakin Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərini yerinə yetirməyərək işğal olunmuş Azərbaycan ərazilərinin ilhaq edilməsinə yönəlmiş anneksiya siyasəti yürüdür.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Üzrü günahından betər deyil, amma nəyə yarar?



**Xalid KAZIMLI**

**Siyasətdə, ictimai fəaliyyətdə buraxılmış səhvlərə görə üzr istəmək mədəniyyət nümunəsidir.**

Bizim kimi ölkələrdə bu addımdan adamın özünə qarşı, həm də sui-istifadə etsələr də, bu, vacibdir: səhv buraxanların öz səhvlərini səmimiyyətlə etiraf etməsi gələcəkdə o səhvi bir daha etməyəcəyindən xəbər verir.

Əslində ictimai-siyasi insanları israrla öz yanlışlarının arxasında saxlayan önəmli amillərdən biri məhz cəmiyyətin həmin səhvin etirafını, üzrünü qəbul etməməsidir. Üzr istəyənlərə xor baxırıq, yerdən-yerə vururuq deyə, onların sırası artmır, peşmanlıq, üzrdarlıq hərəkatına yeni simalar qoşulmur.

2006-cı ildə mühakimə olunanda sabiq səhiyyə naziri Əli İnsanov adlarını çəkərək xeyli adamdan üzr istəmişdi. Bu ona ictimai rəydə hörmət, hakimiyyət dairələrində nifrət oyatdı.

Əli İnsanov ona görə belə addım atmağa məcbur qalmışdı ki, artıq öz siyasi komandası tərəfindən divara qısnanmışdı, qarşı düşərgədə isə onu heç sevmirdilər. Vaxtilə o, həmin düşərgənin ən öndə olan simalarını, eləcə də bütövlükdə düşərgəni ağır sözlərlə təhqir etmişdi.

Yaranmış yeni situasiya tələb edirdi ki, ölkənin ictimai-siyasi fəallarının hamısı ona nifrət etməsin, heç olmasa bir yarısı neytral qalsın, personası tamamilə çıxdaş edilmiş duruma düşməsin.

Sabiq nazirin bu taktikası özünü doğrultdu. Üzüyumşaq müxalifət düşərgəsi onu çox da çək-çevirə salmadan, keçmişdə etdiklərini, dediklərini baş qaxıncına çevirmədən bağışladı və İnsanov həbsdə olduğu müddət ərzində pis-yaxşı müxalif camiə tərəfindən müdafiə olundu.

İndi yeni bir üzrdiləmə kampaniyasını Emin Milli başladıb. O, vaxtilə "qəlbini qırdığı" hər kəsdən üzr istəyə-istəyə gedir.

"Gənc olub, emosiyaya qapılıb, nifrətə köklənib", məşhur filmdə deyildiyi kimi, "uşaq olub, bilməyib, indi səhvini anlayıb" məsələsi...

Emin Milli hətta elə adamlardan və elə məsələlərə görə üzr istəyir ki, heç ehtiyac yoxdur.

Ona görə ki, jurnalist olub əlinə qələm götürən şəxsin, siyasi publisistika ilə məşğul olan yazarın missiyası fəaliyyətini düzgün qurmayan, ictimai mənafelərə, xalqın maraqlarına, dövlətin nəfinə zidd olan hərəkətlərə yol verənlərin qəlbini qırmaq, hətta qırıq-qırıq etməkdir.

Bir vaxtlar sərt tənqid yazmısansa, yaxşı eləmisən, elə orda da qal, sərt yazma, bir az yumşaq yaz, amma "qələt eləmişəm" moduna girmə. Yox, bir vaxtlar əndazələri aşmısansa, uzaq məsafələrə güvənib özünü təhlükəsizlikdə hiss edərək, önünə keçəni təhqir etmisənsə, bu başqa məsələ...

Onda hətta üzrxahlıqların ədvasını, duzunu artıq etmək lazımdır. Ən yaxşısı isə adamın öz qəzəbini, nifrətini öncədən boğması, özünü, qələmini o nifrətin diktəsinə verməməsidir.

Emin Millinin Əbülfəz Elçibəyi hədəf götürən yazısı hiddət doğuran tipdən idi. Rəhmətlik Elçibəy sağ olsaydı, böyük ehtimalla "Eh, Emindir də, nə yazıb, yazıb, qoyun yazsın, necə deyək yazmasın" kimi reaksiya verərdi, həmin yazıda şəxsiyyətinin aşağılanmasını bir qaşıq zəhər kimi udardı.

Amma həyatda olmayan, özünü müdafiə edə bilməyən şəxsə münasibətdə belə addımlar olanda onu sevənlər uzun müddət o yersiz davranışı (artıq heç kəsə siyasi rəqib olmayan personalar niyə "vurulsun" ki?) həzm edə bilmirlər. İndi müəllifin bu gecikmiş üzrü güman ki, onların ürəyinə su səpər.

Bir də Emin Millinin hər hansı iddialı, hökmlü fikirləri ilə, sərt mühakimələri ilə razılaşmayanlar, onun sözünün qabağından söz deyənlərin sosial şəbəkədə kütləvi şəkildə söyülməsi halları vardı. O məsələ necə olacaq?

Emin bir sərt iddia irəli sürüb dururdu kənarda, qarşı duran tərəflər, o iddia üzündən sözləri çəpləşənlər, troll kontingentləri bir-birini qırırdılar. Bu cür "polemika"larda vaxtaşırı yüzlərlə adam təhqir olunur, psixoloji terrora məruz qalır, bir daha bu cür "polemika"larda iştirak etməməyə qərar verərək, kənara çəkilirdilər. İndi məlum olur ki, onlara qarşı hücumlar haqlı deyilmiş, hətta baş körükçü buna görə üzr istəyir.

Son duruma görə, Emindən ötrü insanların üzərinə yeriyənlər, onları təhqir edənlər, susmağa zorlayanlar haqsız duruma düşüblər. Amma onlar Eminin sözü ilə öz fəaliyyət tərzlərindən əl götürəcəklərmi? Əsla. Hətta əksinə, indi onu da "qara siyahı"ya salıb söyəcəklər.

Ən yaxşısı, zamanında "qırğı" olmamaqdır ki, sonradan çalınmış cücələrə görə üzr istəyəsi olmayasan.

# İsti otağın yazıçıları



**Zamin HACI**
zaminhaci@gmail.com

*"Və iki il əvvəl mənzildə müəmmalı hadisələr baş verməyə başladı: bu mənzildən adamlar izsiz-soraqsız yoxa çıxırdı"*
***(Bulqakov, "Master və Marqarita")***

**Bakının Xaqani küçəsində Azərbaycan Yazıçılar Birliyinin binası var. Çox mistik binadır, kimə kirayəyə verirlərsə, axırda mütləq bir zibili çıxır. Ötən illərdə orada "26" adında kafe açmışdılar, həmin vaxt Bakının icra başçısı işləyən Hacıbala müəllim qətiyyətlə JEK işçilərinin ora hücumunu təşkil etdi, dedi burada, Ağcaqum çölündə Piterdə fizika öyrənmiş başçıdan xəbərsiz heç bir ermənipərəst qüvvə Styopa Şaumyanın murdar xatirəsini yaşada bilməz! Kafeni yağmaladılar, yerində turp əkdilər.**

Yox, əkmədilər, bu dəfə başqa restorana icarəyə verilmişdir, həmin obyektin yiyəsi isə hansısa reper qaqaş imiş. İndi avara jurnalistlər qazıb tapıblar ki, adı "Hot-Room" olan həmin barda gecələr striptiz göstərilir, erotik mahnılar oxunur, cavan uşaqlar milli dəyərlərimizə zidd şəkildə atdanıb-düşürmüş. AYB sədri Anar müəllimlə əlaqə saxlayıblar, deyib, mənim xəbərim yoxdur, oranın icarə verilməsinə katibim Çingiz Abdullayev baxır, ora birinci mərtəbədir, mən isə beşmərtəbənin altıncı mərtəbəsində kafe açmışam. Çingiz müəllim deyib mən İçərişəhərin divarını müdafiə edərkən yaralanmışam, mavi mələklərin nəzarəti altındayam, hazırda o işi Fikrət Qoca həll edir. Söhbət çox uzanıb, hətta qurumun mətbuat katibi, əsl şair ismi daşıyan Xəyal müəllim jurnalistləri qınayıb, deyib bizim çörəyimiz o klubdan çıxır, imkan vermirsiniz, keçən dəfə "26"nı da bağlayanda xeyli yazıçı və şair acından öldü, içində 5 dənə xalq artisti də olmaqla. Sözgəlişi, bizdə neçə dənə rəsmi dövlət fərmanı ilə xalq şairi və xalq yazıçısı adı daşıyan adam olduğunu bilirdinizmi? Yazım, bilin: 25 xalq yazıçımız, 22 dənə də xalq şairimiz vardır! Dəhşətdir. Ancaq ədəbiyyat yoxdur. Əsas yazı-pozu deyil ki? Hökumətlərin işinə yaramaq və yarınmaqdır. Nəsə, siyasətə qarışmayaq. Gül kimi tema var.

İlk növbədə biz həmin barın adının dilimizə yad olmasına etiraz edirik. "Hot Room" nədir? Bəyəm Anar müəllim indiyə qədər o klubun adını görmürdü? Nə üçün dəyişdirməyə cəhd etməyib? "Hot Room" deyəndə adamın yadına hot-doq haqda lətifə düşür. Deyir, biri kənddən gəlir, şəhərdə kafeyə girir, menyünü gətirirlər, heç zad baş açmır, əlini qoyur "hot-doq" sözünün üstünə. İçində sosiska olan çörəyi gətirirlər, adam ofisiantı çağırır, deyir bu hot-doq sözünün mənası nədir? Ofisiant deyir ingiliscə "isti it" deməkdir. Adam hirslənir: "Qardaş, mənə it əti verirsiniz, sağ olun, bunu keçdim, bəs bu itin ayrı yeri yox idimi?"

O baxımdan, ölkəmizin dəyərli ziyalılarının toplaşdığı binada barın adını "İsti otaq" qoymaq olmazdımı? Şair Molla Pənah Vaqif bu məqamda görün nə deyibdir: "Keçmə o dilbərin sən otağından, Tər bənəfşə qoxar hər bucağından, Sanki bir guşədir cənnət bağından, Açılıbdır güli-əlvan evində". Ancaq bu isti otaq temasında mənim rastlaşdığım ən qəşəng şeiri 90-cı illərdə bir qazaxlı şair yazmışdı, heyf adı yadımda qalmayıb. Şeir belə idi: "Biz ikimiz, isti otaq, Məhəbbətdən ocaq çataq, Dedim, vaxtdır, yıxıl yataq, Dedi, uzan, gəlirəm mən". Bəh-bəh. Ümid edirəm şairə ötən müddətdə ən azı "xalqın yataq şairi" adı verilmişdir.

Hərçənd dəli şeytan deyir ki, tarixi boyunca ilk dəfə AYB-nin binası xeyir işə yaramışdı, ilk dəfə idi kiminsə torbasını tikmək, repressiya eləmək, evini yıxmaq, yalançılıq, yaltaqlıq, əclaflıq və sairə məqsədlər üçün istifadə edilməmişdi, buna da yaramaz jurnalistlər imkan vermədilər. Üstəlik, Xəyal müəllimin xəyalpərvər açıqlamasından da məlum olduğu kimi, həmin kafenin pulu ilə neçə xalq şairinə maaş verilir, nə qədər bimar yazıçının prostatı operasiya olunur, qızını gəlin köçürdən şairələrə cehiz alınırdı. Bəs indi bu pullar haradan alınacaq? Dövlətin ayırdığı pul bəs eləmir. Dövlət bu dəqiqə meşədə şairlərə ev tikməklə məşğuldur. Çaqqalların əhatəsində yaradıcılıq evində yaxşı əsərlər yaratmaq olurmuş.

Sonda o striptiz və erotik mahnı söhbətinə də iradımı bildirim. Bizim bəzi jurnalistlər sanki dəlidir. Atam, gecə vaxtı, klubda muğamat oxuyası deyillər ki? Hər dövrün öz mahnısı var. Bəzi işlər var ki, onları görmək üçün məhz gecə vaxtları təbiət tərəfindən ayrılmışdır. Gecə eləmə, gündüz eləmə, bəs bu millət haçan çalıb-oxusun, Tağı müəllim demiş, burcutsun? Biz də, türkün məsəli, Ermənistan kimi boşalaq, ərazimizdə adam qalmasın?

Lap sonda arzu edirəm MTN şefi Eldar Mahmudov Tağı Əhmədovdan aldığı 3 milyon dolları, nəhayət, qaytarsın. Yazıq 40 il maaşını yeməyib-içməyib toplamışdı. Buna ona görə yazıram ki, Tağı müəllim də AYB üzvüdür, Tağı Sadiq imzasıyla şeir yazır.

**Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan ABŞ-da səfərdədir. Erməni mediasının yazdığına görə, dünən o, Vaşinqtonda Avropa və Rusiya məsələləri üzrə ABŞ Təhlükəsizlik Şurasının direktoru və ABŞ prezidentinin xüsusi köməkçisi Fiona Xillə görüşüb. Erməni qaynaqları bildirir ki, Qriqoryan görüş zamanı Birləşmiş Ştatların ATƏT-in Minsk Qrupunun həmsədri kimi mühüm rolundan danışıb.**

# ABŞ-ın İrəvana son ismarışı, köhnələn "Rusiya kartı"...

## İnqilab liderinin "iki stul" siyasəti özünə qarşı işləyir; Paşinyan Ermənistan Təhlükəsizlik Şurasının "qərbyönlü" rəhbərini Amerikaya niyə göndərib? ABŞ-ın İrəvandakı yeni səfiri də "Moskva ilə qırılmaz bağlar"dan danışdı; **erməni politoloq:** "Paşinyan Trampla görüşsə, ona nə deyəcək?"



Öz növbəsində xanım Xill müxtəlif səviyyələrdə ABŞ-Ermənistan əlaqələrini genişləndirməyin vacibliyini vurğulayıb. "Tərflər ikitərəfli əməkdaşlığın gündəmində olan məsələləri, sərmayə və maliyyə imkanları məsələsini müzakirə ediblər. Habelə Qarabağ konfliktinin dinc yolla həlli zəruriliyi qeyd edilib" - məlumatda bildirilir.

*****

Trampın xüsusi köməkçisi "ABŞ-Ermənistan əlaqələrini genişləndirməyin vacibliyini"ni vurğulamaqla əslində bu əlaqələrin arzu edilən səviyyədə olmadığını Paşinyanın adamının diqqətinə çatdırıb. Bu da təsadüfi deyil. Çünki Ermənistanda bir il öncə ABŞ-ın həlledici dəstəyi ilə baş tutan "məxməri inqilab" hesabına hakimiyyətə gəlmiş Nikol Paşinyan Amerikanın gözləntilərini doğrultmayıb. Amerika ondan ciddi narazıdır.

Bu mənada son aylar Rusiyaya yaxınlaşmaq yönündə böyük məsafə qət eləmiş "qərbçi" Paşinyanın açıq-aşkar Rusiya əleyhdarı kimi tanınan Qriqoryanı Amerikaya yollaması maraq doğurur. İstisna deyil ki, Nikol Paşinyan bununla bir növ, ABŞ-ı da öz yanında görmək istəyinin mesajını çatdırmaq və "Rusiya faktoru" ilə hesablaşmağın vacibliyini qarşı tərəfə anlatmaq istəyir. Ancaq çətin ki, bu kimi gedişlər ABŞ-da Paşinyan hökumətinə rəğbəti və dəstəyi artırsın.

*****

**"Ermənistan putinyönlü xarici siyasət aparır". "Yeni Müsavat" xəbər verir ki, bunu Tert.am-a erməni siyasi texnoloq Armen Bədəlyan deyib. Onun sözlərinə görə, xarici siyasəti konkret olaraq baş nazir Nikol Paşinyan həyata keçirir və İrəvan Rusiya prezidentinə sübut eləmək istəyir ki, hakimiyyət dəyişikliyinin arxasında xarici maliyyə dayanmır.**

"Bu siyasət Paşinyan iqtidarda olduqca davam edəcək. Görünür, Rusiya baş nazirin zəif tərəfini tapıb və onu sədaqət andları içməyə məcbur edir. Mən məsləhət görərdim ki, beynəlxalq münasibətlərdə "əla" sözü işlədilməsin - hansı ki, erməni-Rusiya münasibətlərində istifadə olunur. Çünki bu termin özündə qul asılılığının təzahürlərini daşıyır", - deyə o qeyd edib.

**Erməni ekspertin fikrincə, hazırda Ermənistanın ABŞ, Çin, Yaponiya, Hindistan, Avropa Birliyi ilə münasibətlərinin gündəliyi yoxdur.** "ABŞ-la siyasi gündəm nədən ibarətdir? Tutaq ki, Tramp Paşinyanla görüşür. Paşinyan ona deyir ki, Ermənistanda baş verənlər məxməri inqilab deyil və Ermənistan özünün xarici siyasət vektorunu dəyişmir. Bəs üçüncü təklif necə olacaq? ABŞ-a o, nə deyəcək, nə təklif edəcək? ABŞ praqmatik xarici siyasət yürüdür, Ermənistan ona nə təklif edəcək" - Bədəlyan sual edib.

**O hesab edir ki, Ermənistanın özü Birləşmiş Ştatlarla sıx əlaqələrdə maraqlı olmalıdır.** "Paşinyan isə ABŞ-ın əleyhdarıdır və Rusiya KİV-lərində demokratik dövlət kimi Amerikanı Ermənistandakı hadisələrə reaksiya verməməyə görə tənqid edir. Bu, etika pozuntusudur", - deyə erməni ekspert sonda əlavə edib.

*****

Lakin hələ ki Ağ Ev inqilabçı baş nazirdən tam əlini üzmüş kimi də görünmür.

"ABŞ başa düşür ki, Ermənistanı Rusiyaya coğrafi və tarixi tellər bağlayır". "Yeni Müsavat"ın erməni mənbələrinə istinadən verdiyi məlumata görə, bu sözləri ABŞ-ın Ermənistandakı təzə səfiri Linn Treysi dünən İrəvanda jurnalistlərə açıqlamasında bildirib. Bununla belə, amerikalı diplomat Rusiya ilə bağlantının ABŞ, Avropa Birliyi ilə əlaqələrin inkişafına mane olmayacağına ümid etdiyini də deyib.

"Ermənistan coğrafi və tarixi baxımdan Rusiyaya, mədəniyyət və dəyərlər sistemi baxımından isə Qərbə bağlıdır", - deyə xanım səfir qeyd edib və bununla faktiki surətdə Paşinyan hökumətinə incə bir ismarış verib ki, Ermənistanın yeri Rusiyanın yox, Qərbin yanındır, Qərb ailəsidir.

Ancaq İrəvan üçün bu seçimi eləmək asan deyil. Çünki tarix boyu rusun, fransızın, ingilisin əlində alət olmağa öyrəşən ermənilər indi məhz işğal elədikləri Dağlıq Qarabağla birgə Rusiyadan qopub Qərbə sığınmağı xəyal edirlər. Bu isə mümkünsüzdür. Hətta heç Qərb də bunu arzulamır və real saymır. ABŞ və Avropa Birliyi Rusiya orbitindən uzaqlaşmaq üçün İrəvana ilk növbədə qonşu Azərbaycan və Türkiyə ilə anlaşmağı təkid edir. Bu anlaşma isə Qarabağ məsələsində İrəvandan, nəhayət, ədalətli və beynəlxalq hüquqa əsaslanan konstruktiv mövqe tələb edir. O da yoxdur. Demək, Ermənistanın Qərbə yaxınlaşması, üstəlik, Dağlıq Qarabağla birgə yaxınlaşması da röya olaraq qalacaq. Onun Rusiyadan vassal asılılığı davam edəcək.

*****

Xatırladaq ki, ötən ilin oktyabrında bölgə səfəri çərçivəsində İrəvanda olmuş ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton İrəvanı Rusiya ilə tarixi kökləri qoparmağa çağırmışdı.

Ardınca prezident Donald Trampın Paşinyana göndərdiyi təbrik məktubunda Ermənistanın öz qonşuları ilə anlaşmayacağı təqdirdə təhlükəsiz mövcud ola bilməyəcəyi mesajı əksini tapmışdı.

Lakin Boltonun səfərindən ötən müddətdə Paşinyan nəinki ABŞ-a, Qərbə doğru addımlar atmadı, əksinə, Rusiya ilə daha sıx yaxınlaşmaq kursu götürdü, Moskvaya ard-arda sədaqət andları içdi və içməkdədir; Vaşinqtonun qəzəbinə səbəb olsa da, Rusiyanın istəyi ilə Suriyaya ermənilərdən ibarət humanitar-hərbi missiya göndərdi. Hərçənd Nikol Paşinyan hələ də özünü "iki stul"da oturmuş kimi hiss edir. Halbuki bu "stul"dan birini ABŞ onun altından çəkib. Paşinyanın "iki stul" siyasəti özünə qarşı işləməyə başlayıb.

Bununla belə, İrəvan hələ də ABŞ-a qarşı Rusiya "kartı"ndan yararlanmağa ümid edir. Amerikalıları inandırmağa çalışır ki, başqa çıxış yolu yoxdur və bu vəziyyəti Qərbin anlaşıqla qarşılayıb İrəvandan maddi dəstəyini əsirgəməyəcəyinə sadəlövhcəsinə ümid edir. Ona görə "sadəlövhcəsinə" ki, "Rusiya kartı" ilə şantaj üsulu köhnəlib, əvvəlki effektdə deyil. Paşinyana isə təcili pul lazımdır. Onu da hətta Çin belə, boşuna verməz...

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

# İranı haradan vuracaqlar - mümkün versiyalar

## Vaşinqtonun İran ətrafındakı hərbi gücü və imkanları nə qədərdir?..

**Hər nə qədər İran dini lideri və ABŞ prezidentinin "müharibə olmayacaq" bəyanatları son günlər yaranmış ajiotajı aradan qaldırsa da, müharibə riski qalır. Çünki Vaşinqtonun ötən həftə körfəzə, İran sahillərinə göndərdiyi hərbi qüvvələr hələ də oradadır, üstəlik, regionda siyasi vəziyyət günü-gündən pisləşir.**

Ancaq bu qüvvə toplama müharibə üçün səbəb sayıla bilməz. Məsələn, iddialara görə, Trampın İran mövzusunu həvalə etdiyi milli təhlükəsizlik müşaviri Con Bolton bildirib ki, Fars körfəzinə qüvvə göndərilməsi İrana "qəti və kəskin bir mesaj vermək" üçündür. Eyni zamanda o deyib ki, bu addımlar "bir sıra narahatlıq doğuran və gərginliyi artıran işarə və xəbərdarlıqdan" sonra atılıb.

Bütün hallarda regionda gərginliyin artması açıq-aydın hiss olunur. Əvvəlcə bazar günü BƏƏ sahillərində Səudiyyə Ərəbistanına məxsus 2 tanker, eləcə də BƏƏ və Norveçə məxsus bir gəmi olmaqla 4 neft daşıyan tanker hücuma məruz qaldı. Hücuma görə məsuliyyəti üzərinə götürən olmasa da, ABŞ mənbələri İranı, İran tərəfi isə provokasiyanı İsrailin törətdiyini iddia edir. Həftənin əvvəlində isə Səudiyyə Ərəbistanının Qırmızı dəniz sahilindəki neft boru kəməri və nasos stansiyaları 7 bombalı dronun hücumuna məruz qaldı. Bu hücuma görə Səudiyyə rəsmiləri Yəməndəki husiləri ittiham etdi.

Ötən gün isə ABŞ hökuməti İraqdakı diplomatik personalın böyük əksəriyyətini ölkədən çıxaracağını bəyan etdi. Buna səbəb kimi İraqda ABŞ diplomatlarına hücum hazırlığı ilə bağlı xəbərlər olduğu iddia edilir.

Bütün bu ard-arda baş verən hadisələr müharibə öncəsi olayları xatırladır. Və təbii ki, hər dəfə İrana hərbi müdaxilə mövzusu gündəmə gələndə aktual bir sual ortaya çıxır: ABŞ İranı hansı ölkə üzərində vuracaq?

Məsələ ondadır ki, indi faktiki olaraq İranın dörd bir tərəfində ABŞ hərbi bazaları yerləşir. Türkiyə, İraq, Küveyt, Bəhreyn, Qətər, BƏƏ, Səudiyyə Ərəbistanı, Omanda rəsmi şəkildə mövcud olan ABŞ hərbi bazaları var. Bundan başqa, Hind okeanında ABŞ qüvvələri mövcuddur. İranın digər




qonşuları da bu ölkəyə hücum zamanı potensial zərbə nöqtələri ola bilər.

Yeri gəlmişkən, ilk dəfə ABŞ-ın İrana hücum xəbərləri çıxanda məhz bu ölkələrin adı çəkilirdi. Məsələn, "Nezavisimaya Qazeta" 2003-cü ilin mayında hazırladığı məqalədə ABŞ-ın İranı İraq, Azərbaycan və Gürcüstan üzərindən vuracağı yazılırdı. Bu cür iddialar sonrakı dövrdə də yayıldı. Hətta Qərb mediasında Azərbaycan aerodromlarının İrana hücumda istifadə ediləcəyi iddiaları yer almışdı. Lakin Azərbaycan hökuməti ən yüksək səviyyədə bu iddiaları təkzib etdi.

Ötən ilin payızında C.Boltonun Cənubi Qafqaz regionuna səfərində də əsas məqsəd bölgə dövlətlərinə Vaşinqtonun İranla bağlı mövqeyini bildirmək idi. Hər halda, ekspertlər belə düşünürdü...

Aydın məsələdir ki, İranla böyük sərhəd xəttinə malik və eyni zamanda bu ölkə ilə etnik və dini bağlılığı olan Azərbaycan İranda müharibə istəmir. Çünki müharibənin gətirdiyi zərərlərlə yanaşı, Azərbaycana kütləvi qaçqın axını və o tayda çoxlu sayda soydaşlarımızın ölümü bu tərəfə də təsirsiz ötüşməyəcək. Digər tərəfdən, Azərbaycan öz ərazilərindən İrana qarşı istifadə üçün verib savaşın və zərbələrin riskini ala bilməz. Bu baxımdan Bakının bu plana "yox" dediyi aydındır. Gürcüstanın isə İranla birbaşa sərhədi yoxdur və Ermənistanın hava dəhlizi vermədiyi təqdirdə Gürcüstan ərazilərindən istifadənin bir faydası ola bilməz. Sırada qalır Ermənistan. Əlbəttə, Rusiyanın hərbi bazalarının yerləşdiyi Ermənistanın İrana hücum üçün koridor verəcəyi əvvəldən inandırıcı deyildi. Ancaq indi situasiya dəyişib. Birincisi, Ermənistanın "patronu" Rusiya özü belə İran məsələsində əvvəlki mövqedə deyil. Dünən Pompeo ilə görüşdən sonra Putin İranı qoruya bilməyəcəyini açıq ifadə edib. İkincisi isə qərbyönlü Paşinyan hökuməti ABŞ-la daha yaxındır və Vaşinqtonun tələbləri qarşısında ərazilərini verə bilər.

İranın digər şimal sərhədində Orta Asiya ölkəsi Türkmənistan yerləşir. Ancaq bu ölkədə ABŞ-ın təsdiqlənmiş hərbi mövcudluğu yoxdur, eyni zamanda Aşqabadın adı İrana qarşı hücumda hallanmayıb.

Sırada növbəti ölkə Əfqanıstandır. 2001-ci ildə ABŞ ordusu tərəfindən işğal olunan Əfqanıstanda hazırda rəsmi rəqəmlərə görə 14 min ABŞ hərbçisi mövcuddur. Kabil, Qəndəhar, Məzari-Şərif, Barqam kimi aviasiya bazalarında ABŞ ordusunun aviasiya və raket sistemləri mövcuddur. Yeni Əfqanıstan bu mənada ABŞ-ın əlindədir.

İranın daha bir böyük qonşusu Pakistandır. İmran Xanın baş nazir seçilməsindən sonra Tehran-İslamabad əlaqələrində istiləşmə meylləri açıq şəkildə özünü göstərsə də, Pakistanın Tehran üçün əlverişli ortaq olacağını demək çətindir. Ancaq Pakistanın eyni zamanda ABŞ-la münasibətləri xeyli dərəcədə soyuqdur. İndiki şərtlərdə ABŞ-ın Pakistan ərazilərindən İrana qarşı istifadəsinə icazə verməsi az inandırıcıdır.

İranın qərb sərhədlərindəki qonşusu Türkiyədir. Türkiyədə ABŞ hərbi varlığı olsa da, Ankaranın öz ərazilərindən İrana qarşı istifadəyə icazə verməsi inandırıcı deyil. Hələ 10 il əvvəl Abdulla Gül bu barədə suala cavab olaraq İran-Türkiyə sərhədlərinin razılaşdırıldığı 1639-cu ildə bir çox dövlətlərin mövcud olmadığını deməklə Amerikaya eyham vurmuşdu.

İranın quru sərhədlərinin olduğu sonuncu ölkə İraqdır. Hazırda rəsmi olaraq İraqda 5200 nəfər ABŞ hərbçisi var. Ancaq hazırda Bağdad və Vaşinqton arasında soyuq küləklər əsir. Ötən gün Ankarada olan İraqın baş naziri Adil Əbdülmehdi ölkəsinin öz ərazilərindən İrana hücum üçün istifadəyə icazə verməyəcəyini deyib. Amma bu bəyanatın nə qədər işlək olacağını demək çətindir, çünki İraq üzərində faktiki ABŞ hərbi hakimiyyəti mövcuddur.

Qeyd edək ki, ABŞ-ın hazırda regionda nə qədər hərbi gücünün olduğu dəqiq bilinmir. Bir neçə il əvvəlin rəqəmlərinə görə, Pentaqon Yaxın Şərq regionunda 120 min hərbi qüvvə saxlayır. Yaxın Şərq regionu ABŞ ordusunun Mərkəzi Qüvvələr Komandanlığı, başqa adla SETCOM ərazisinə daxildir. Fars körfəzi, Oman dənizi, Qırmızı dəniz və Hind okeanında təxminən 20 milyon kv.km əraziyə nəzarət edən ABŞ Hərbi Dəniz Qüvvələrinin 5-ci donanması İranın "bir addımlığında", Bəhreyn ada dövlətində yerləşir. 5-ci donanmada 20 minə yaxın hərbi qulluqçu və 20 döyüş gəmisi xidmət edir.

İraqın cənubunda, Fars körfəzi sahillərində yerləşən Küveytdə bir neçə ABŞ hərbi bazası mövcuddur. Bunlardan ən məşhuru Əhməd əl-Cabir hərbi hava bazasıdır. Hansı ki, amerikalılar bu bazadan İraqa qarşı müharibədən geniş şəkildə istifadə edib.

Körfəzin ən sakit ölkəsi Omanda "ərəb baharı" prosesində təxminən 26 min ABŞ hərbçisi yerləşirdi.

Səudiyyə Ərəbistanında isə paytaxt ər-Riyad yaxınlığında ABŞ hərbi bazasında hələ də 5 minə yaxın amerikalı hərbçi və təyyarə xidmət edir. BƏƏ-nin Dubay əmirliyi və eyni adlı şəhərində də ABŞ hərbi bazası və "nimts" sinfinə aid aviadaşıyıcısı xidmət edir.

Qətərdə yerləşən əl-Udeyd hərbi hava bazasında isə 13 min hərbçi xidmət edir. ABŞ ordusunun regiondakı ən böyük aviabazasına bir neçə gün əvvəl nüvə bombası daşıyan 4 ədəd B-52 bombardmançıları yerləşdirilib.

Göründüyü kimi, ABŞ faktiki olaraq regiona nəzarət edəcək hərbi gücə sahibdir. Bu qüvvələr dənizdə və regionun müxtəlif ölkələrinə səpələnib. Ancaq onu da qeyd etmək lazımdır ki, aviasiya üçün açıq məkan olsa da, İran 1,648 milyon kv.km ərazisi ilə çox geniş və mürəkkəb ölkədir. Bu ölkədə quru əməliyyatları real deyil. İsrail, ABŞ və İranın Yaxın Şərqdəki düşmənlərini çəkindirən də bu amildir. Hər kəsə aydındır ki, İranı müasir təyyarələrlə havadan bombalamaq mümkün olsa da, sonradan onun yaradacağı əks-nəticələr qarşısında durmaq çətin olar. Bu səbəbdən də Vaşinqton Tehranı iqtisadi cəhətdən zəifləmək, daxildəki "minaları" işlə salmağa çalışır.

**❑ Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Müharibə üçün ən uyğun fəsil-ekspertlər danışı

## "Azərbaycan ordusu ilin istənilən fəslində müharibə aparmağa və qələbə qazanmağa qadirdir"



**Mayın 20-dən 24-dək Azərbaycan ordusunun müxtəlif qoşun növlərinin, qisim, birlik və birləşmələrin cəlb edilməsi ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçiriləcək. Müdafiə Nazirliyinin bu barədə yaydığı məlumata görə, təlimin əsas mövzusu düşmənin gecə vaxtı hücumunun dəf edilməsi, müxtəlif istiqamətlərdə ona əks zərbələrin endirilməsi və qoşunlarımızın hücuma keçməsidir.**

Təlimlərə 10 minədək şəxsi heyət, 150 tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 35 təyyarə və helikopter cəlb olunacaq.

Qeyd edək ki, hərbi əməliyyatların uğurlu alınması üçün şərtlərdən birinin əməliyyatların hansı fəsildə - şübhəsiz ki, relyef nəzərə alınaraq - keçirilməsidir. Bəs Qarabağda hərbi əməliyyatlar üçün ən uyğun fəsil hansıdır?

**Keçmiş döyüşçü, hərbi ekspert Üzeyir Cəfərov "Yeni Müsavat"a bildirdi ki, hərbi əməliyyatların hansı relyefdə hansı fəsildə hansı hava şəraitində keçirilməsinin həlledici əhəmiyyəti olmasa da, müəyyən qədər əhəmiyyəti var:** "Məsələn, Murovdağ kimi mürəkkəb sərt relyefə malik ərazidə hərbi əməliyyatların yaz, yay fəslində aparılması uğur əldə etmək üçün daha məqsədəuyğundur. Nisbətən düzənlik, dağ massivi az olan ərazilərimizdə isə əməliyyatları qış fəslində də aparmaq problem yaratmır. Yetər ki, ordunun yüksək səviyyədə hazırlığı, təminatı olsun. Ordu birləşmələri vaxtaşırı hərbi təlimlər keçir. Hərbi təlimlər hər bir şəraitə uyğun keçirilir. Ordumuz sərt qış fəslində də, isti yay aylarında da təlimlər keçir. Bununla da istənilən iqlim şəraitində döyüşmək vərdişləri əldə edilir. Hansı fəslin müharibə üçün ən əlverişli olması məsələsinə gəlincə, hazırkı fəsil ən əlverişli fəsildir. Döyüş əməliyyatlarının başlanması üçün ən uyğun aylar aprel-may aylarıdır. Ona görə ki, bu aylar nə çox isti-dir, nə də çox soyuq. Şəxsi heyətin rahat hərəkət etməsi, nəticənin müsbət olması üçün yaz fəsli ən əlverişli fəsildir".

**Ekspert onu da dedi ki, Qarabağ müharibəsinin tarixinə nəzərə salsaq görərik ki, böyük hərbi əməliyyatlar yanvarda da, dekabrda da olub. Ordu hazırlıqlı olandan sonra fəsil həlledici əhəmiyyət daşımır:** "Şəxsən mənim özümün iştirak etdiyim Horadiz əməliyyatı dekabr ayında həyata keçirildi və bizim qələbəmizlə yekunlaşdı. 1992-ci ilin Ağdərə əməliyyatları yay fəslində həyata keçirilmişdi və uğurlarla nəticələnmişdi. Şübhəsiz ki, elə bölgələr var ki, orada hücum əməliyyatlarını qış fəslində həyata keçirmək yox, yaz, yay aylarında həyata keçirmək daha uyğundur. Murovdağ və Gədəbəy istiqamətində cəbhə xəttini bu sıraya aid etmək olar. Bu bölgələrdə qış fəslində əməliyyatlar çox çətindir. Qızmar yay aylarında isə arana yaxın düzənlik ərazilərimizdə hərbi əməliyyatlar nisbətən çətin olur".

Ü.Cəfərov vurğuladı ki, Azərbaycan ordusunda ciddi hərbi təlimlərin keçirilməsi də məhz ilin istənilən fəslində, istənilən iqlim şəraitində döyüşmək bacarıqlarının mənimsənilməsinə xidmət edir.

**Qarabağ qazisi Rey Kərimoğlu isə bildirdi ki, hərbi əməliyyat aparılarkən hər bir məqamın böyük əhəmiyyəti var. Hava şəraitinin, mövsümün, relyefin də həmçinin. Amma mövsüm həlledici şərt deyil:** "Bütün mövsümlərdə hərbi əməliyyat aparmaq olar. Sözsüz ki, hər bir mövsümün özünün müsbət və mənfi tərəfləri var. Ordunun hazırlığı yüksək və hərtərəflidirsə, istənilən fəsildə hərbi əməliyyatlar aparıla və uğur əldə oluna bilər. Bu gün Azərbaycan ordusu ilin istənilən fəslində müharibə aparmağa və qələbə qazanmağa qadirdir. Ordumuz hər fəsil üçün, hər cür relyefdə döyüşmək üçün hərbi təlimlər keçir və hazırlanır. Ona görə də bu gün Azərbaycan ordusu istənilən fəsildə, istənilən şəraitdə torpaqlarımızı azad etməyə qadirdir. Yetər ki, Ali Baş Komandan irəli əmrini versin. Yerdə qalanı özü öz həll edəcək. Onda hər şey görünəcək və bəlli olacaq ki, ilin istənilən fəslində ordumuz müharibə apara və qalib gələ bilir".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 106 (7276) 17 may 2019



# Keçmiş nazir Füzuli Ələkbərov ABŞ-ın brend traktorlarını satır

## İsmayıllı hadisələrinə görə işdən çıxarılan F.Ələkbərov "Massey Ferguson"un Bakıdakı təmsilçisidir; bu traktorların çox bahalı modelləri də var...

**Keçmiş əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Ələkbərovun adı yenidən medianın gündəminə gəlib. Belə ki, mayın 15-də Azərbaycan Prezidenti İlham Əliyev Beynəlxalq Kənd Təsərrüfatı - "Caspian Agro" sərgisi ilə tanış olanda sərgidə məşhur "Massey Ferguson" şirkətinə məxsus texnikanı ölkə başçısına Füzuli Ələkbərov təqdim edib. Modern.az-ın xəbərinə görə, eks-nazir "Massey Ferguson" şirkətinin Azərbaycan nümayəndəliyinin rəhbəridir.**

"Yeni Müsavat" bildirir ki, "Massey Ferguson" şirkəti 1953-cü ildə kanadalı kənd təsərrüfatı maşınları istehsalçısı Massey Harris və British Ferguson şirkətinin birləşməsi ilə yaradılıb. 1958-ci ildə "Massey Ferguson" adı ilə tanınır. Eyni ildə ilk üç qırmızı-ağ üçbucaqdan ibarət olan loqo ilk fəaliyyət göstərir. 1978-ci ildə müəssisə iqtisadi çətinliklərlə üzləşdiyi səbəbindən səhmlərin bir hissəsini satıb və bəzi istehsal zavodları bağlanıb. 1992-ci ildə Amerikanın AGCO firması "Massey Ferguson"un kənd təsərrüfatı avadanlıqlarının Şimali Amerika bazarlarında satışına başlayıb. 1994-cü ildən isə istehsal tamamilə AGCO Korporasiyasının nəzarəti altındadır. Beləliklə, şirkətin müasir adı "AGCO-Massey-Ferguson"dur. Dünyada "Massey Ferguson" markası altında işləyən traktorların sayı 6 milyondan çoxdur. Qiymətlərinə gəlincə, bu traktorların çox bahalı modelləri də var.

Füzuli Ələkbərova gəlincə, o, 3 fevral 1958-ci ildə Naxçıvan MR-in Culfa rayonunun Saltaq kəndində anadan olub.

1980-ci ildə Azərbaycan Dövlət Universitetinin riyaziyyat fakültəsini, 1990-cı ildə isə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Sənayenin planlaşdırılması fakültəsini bitirib.

Əmək fəaliyyətinə 15 avqust 1980-ci ildə Şəki rayonunun Qoxmuq kənd orta məktəbində müəllim kimi başlayıb. Sonralar Şəki şəhər komsomol komitəsinin katibi, Azərbaycan LKGİ Mərkəzi Komitəsində təlimatçı, 1987-1991-ci illərdə "Sputnik" Beynəlxalq Gənclər Turizm Bürosunda sədr vəzifələrində çalışıb.

1992-2006-cı illərdə "İmproteks" Şirkətlər Qrupunun prezidenti olub. 2003-2006-cı illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Sahibkarlar Şurasının üzvü olub. 1996-cı ildən Azərbaycan Cüdo Federasiyasının prezidenti olub. Məlumatlara görə, bu vəzifəsindən uzaqlaşdırılıb. 1993-cü ildən YAP-In üzvüdür.

Azərbaycan prezidentinin 7 fevral 2006-cı il tarixli 1277 nömrəli sərəncamı ilə əmək və əhalinin sosial müdafiəsi naziri təyin edilib. 22 oktyabr 2013-cü ildə vəzifəsindən azad edilib.




Yada salaq ki, Füzuli Ələkbərov oğlu Vüqar Ələkbərovun yol verdiyi nöqsana görə vəzifəsindən azad olunmuşdu.

Belə ki, 2013-cü il yanvarın 23-də İsmayıllı rayonunda (həmin vaxtı İsmayıllının icra başçısı olan Nizami Ələkbərov Füzuli Ələkbərovun qardaşı idi - red.) Vüqar Ələkbərov "Hummer" markalı maşınla yerli sakinin maşınını vuraraq qəza törədib, daha sonra isə qəzaya düşərək yaralanmış sakini öz dostları ilə birlikdə döyməyə başlayıb.

Rayon sakinləri buna mane olmağa çalışsa da, V.Ələkbərov və dostları İsmayıllı əhalisini söyərək təhqir ediblər. Bundan qəzəblənən sakinlər həmin şəxsləri döyüb və Vüqar Ələkbərova məxsus olan "Çıraq" hotelini və "Hummer" markalı maşını yandırıblar. Bu hadisə ölkədə ciddi rezonans doğurmuş, nəticədə nazirin özü və həmin rayonun icra başçısı olan qardaşı tutduğu vəzifədən azad olunmuşdu.

❑ **Orxan,**
**"Yeni Müsavat"**

# YDM-lərin benzin fırıldağı

## Yanacaqdoldurma məntəqələri sayğaca müdaxilə edir, litrdə aldadır, su, qaz, hava qatır; ekspertlər keyfiyyətə və kəmiyyətə nəzarətlə bağlı dövlət orqanlarına çağırış etdilər

**Azərbaycanda yanacaqdoldurma məntəqələrinin fırıldaqçılığı, soyğunçuluğu, cibgirliyi, sürücüləri aldatması halları az qala "norma"ya çevrilib. Sürücülər tez-tez şikayətlənirlər ki, benzində saxtakarlıq edilir, kəmiyyətdə aldadırlar, hava, su, qaz vururlar. Bununla həm sürücülərə maddi ziyan vurulur, həm də avtomobillərin mühərriki sıradan çıxarılır.**



Hətta mətbuatda, sosial şəbəkələrdə tez-tez sürücülərin belə şikayətləri dərc olunur ki, maşına tam depo benzin vurularkən aparatda deponun ümumi tutumundan 10 litr çox benzin vurulduğu göstərilir.

### 65 litrlik depoya 70-75 litr benzin

**Misal üçün, 65 litr tutumu olan depoya 70-75 litr benzin "vurulur". Halbuki hələ yanacaq deposunda da 5-10 litr benzin qalmış olur. Ləğv edilmiş Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin keçmiş sədri Ramiz Həsənov bildirmişdi ki, bəzi yanacaqdoldurma məntəqələri onların möhürlərini qırır:**

"Dövlət qurumunun möhürünü qırmaq olmaz, buna görə cinayət məsuliyyəti nəzərdə tutulub. Bizim monitorinqlərimiz göstərir ki, bir çox yanacaqdoldurma məntəqələri istehlakçıların, sürücülərin avtomobillərinin çəninə nəzərdə tutulandan xeyli az yanacaq vurur".

Bundan əlavə, yanacaq satan şirkətlərin digər yollara əl atdığı da deyilir. Sürücülərin sözlərinə görə, xüsusilə son aylar benzinin tərkibindəki oktanın faizini qəsdən aşağı salıblar ki, alınan yanacaq daha tez sərf olunsun.

Nəticədə aldıqları yanacağa görə nəzərdə tutulan məsafəni qət edə bilməyən maşın sahibləri tez-tez yanacaqdoldurma məntəqələrinə yan almalı olurlar.

### "LUKoil"dən şikayətlər var...

Yəni zavoddan keyfiyyətli benzini alırlar, daha sonra öz bildikləri kimi əlavələr etməyə başlayırlar.

Hər YDM-in öz qanunları var, özləri müəyyənləşdirirlər ki, yanacağa nə qədər qaz qatılmalıdır, başqa qatqı nə qədər qatılmalıdır və yaxud da 10 litrin neçə litri kəsiləcək. Belə haram yolla sürücülərin cibini soyurlar

Vətəndaş Azər Nəcəfov kənar dairəvi yolda "LUKoil" yanacaqdoldurma məntəqəsi ilə bağlı başına gələn hadisəni avtosfer.az-a danışıb. Deyir ki, "Nissan Sunny" markalı avtomobilin 55 litr tutumu olan yanacaq çənini "LUKoil" yanacaqdoldurma məntəqəsində doldurub. Qəbzi alanda isə təəccüblənib. Belə ki, 54.4 litr yanacaq vurulduğu yazılıb. "İndi belə çıxır ki, mən boş çən ilə maşın sürüb gəlmişəm. Amma yanacaqdoldurma məntəqəsinə girəndə maşında azı 8-9 litr benzin var idi".

Vətəndaş deyir ki, həmin vaxt yanacaq çəninin tutumunu dəqiq bilmədiyi üçün mübahisə etməyib. Daha sonra məsələ ilə bağlı şirkətlə əlaqə saxlayıb.

Şirkətdən deyiblər ki, həmin benzin kolonkasında texniki problem olub və ümumilikdə müştərilərə əlavə 40 litr benzin yazılıb. Gəlin ya benzini, ya da pulunuzu qaytaraq.

"İndi bilmirəm həqiqətən belədir, ya özləri qəsdən belə deyirlər ki, müştəri narazı qalmasın. Təsəvvür edin bir gündə hər kolonkadan 40 litr benzin kəsiləndə hara çıxır".

### Elməddin Muradlı: "Kimyəvi maddələr, su, qaz qatırlar"

**Avtosfer.az-ın baş redaktoru Elməddin Muradlı söyləyib ki, hüquq-mühafizə orqanları, İqtisadiyyat Nazirliyi və Energetika Nazirliyi YDM-lərə nəzarət etməlidir:** "Bu gün gedib hansısa mühərrik ustasından soruşsaq ki, yanınıza gələn müştərilərin ən çox şikayəti nə ilə bağlıdır, mühərrik nə üçün sıradan çıxır, hər biri səbəb kimi yanacağı göstərəcək. Həm cibimizə girirlər, həm də benzinin 10 litrinin 1-ni kəsirlər. Hətta elələri var ki, lap insafsızdır, 1 litrdən də artıq kəsir. Bu azmış kimi, bəzən yanacağa kimyəvi maddələr, su, qaz qatırlar".

**E.Muradlı qeyd edib ki, yanacaq çəninin qapağını tam bağlamırlar:** "Məqsəd isə odur ki, yanacaq tez bitsin və sürücülər gəlib bir də yanacaq alsınlar. Düşünmürlər ki, biri gəlib siqaret yandırar, kül düşər və maşın alışıb yanar".

**O, "LUKoil" yanacaqdoldurma məntəqəsindən şikayətçidir:** "Sürücü 55 litr tutumu olan maşınla daxil olur. Ondan 60 manat alıb 65 litr benzin vururlar.

Çənin tutumu 55 litrdir, üstəlik içində bir az da yanacaq var. İnsanların üzünə baxa-baxa bu qədər soyğunçuluq törədən ikinci struktur ağlıma gətirə bilmirəm".

### Ərşad Hüseynov: "Benzin çirkli çənlərdə saxlananda..."

**Nəqliyyat eksperti Ərşad Hüseynov isə "Yeni Müsavat"a bildirdi ki, benzin kəsilməsi barədə şikayətlər tam əsaslıdır. Onun sözlərinə görə, müxtəlif eksperimentlər aparılıb:** "Hətta vətəndaşlarla YDM-lər arasında məhkəmə çəkişmələri olub. Bu məsələdə müxtəlif aldatmalar var ki, yolverilməzdir.

Ümumilikdə, həm keyfiyyət, həm kəmiyyət məsələsindən narazılıq böyükdür. Dövlət orqanları yoxlamalar aparmalıdır, bir-bir məntəqələrdə monitorinqlər keçirilməlidir. Sürücülərin bu obyektlərə nəzarət etmək, yaxud hər dəfə aldadılması barədə şikayət eləmək imkanı olmur".

**Ə.Hüseynov hesab edir ki, YDM-lərdə insanların aldadılması istehlakçı hüquqlarına hörmətsizlikdir:** "Əvvəllər Standartlaşdırma, Patent və Meterologiya Komitəsi bu məntəqələrə nəzarət edirdi, sonra ləğv edildi.

İndi Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti zəhmət çəkib bu işlə ciddi məşğul olsun. Eyni zamanda hüquq-mühafizə orqanları da araşdırma aparmalıdır".

**Ekspert bildirdi ki, hər cür aldatma variantı mümkündür:** "Sayğaca müdaxilə oluna bilir, çəndə azdır, çox göstərə bilər. Məsələn, 9 litrdir, göstərir ki, guya 10 litr benzin vurub. Həmçinin benzinin saxlanma şəraiti problemi var. Çünki benzin çox qalanda, çirkli çənlərdə saxlananda yanacağın keyfiyyəti olduqca aşağı düşür. Bu zaman da avtomobilin şamlarına, forsunkalara ziyan vurur, benzinnasos, mühərriklər tədricən sıradan çıxır.

Məsələn, həmin maşın avro-5 standartıdır, onu istehsal edən şirkət hesablamayıb ki, Bakıda onu sürən adam avro-2 standartında benzin vurur".

### Eyyub Hüseynov: "Çoxu günahı bu şirkətdə görür"

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov da təsdiqlədi ki, bu problemlə bağlı saysız-hesabsız şikayətlər var. Onun dediyinə görə, ən çox "LUKoil" adı altında 8-9 firmadan narazılıq var.**

"Təəssüf ki, "LUKoil" mal nişanını qorumaq, nüfuzuna xələl gətirməmək üçün heç bir iş aparmır. Bu gün aldanan sürücülərin əksəriyyəti günahı daha çox bu şirkətdə görürlər. Çünki onun adı altında müxtəlif məntəqələr fəaliyyət göstərir. Hazırda keyfiyyət və kəmiyyətdə aldatmalar mövcuddur.

İlk növbədə məntəqələrdə aparatları yoxlayan qurumlar günahkardır. Onlar nəzarəti gücləndirməlidirlər", - deyə E.Hüseynov vurğuladı.

**AİB sədri bildirdi ki, YDM-lərdə xüsusi bolt var:** "Özləri bunu "çörək boltu" adlandırırlar. Həmin bolt vasitəsilə sayğaca müdaxilə edə bilirlər, çənə az, yaxud artıq yanacaq vururlar.

Bizə çoxlu şikayətlər, zənglər olub, məhkəmələrə qədər gedib çıxıb. Amma məsələnin həlli yolu bu deyil. Fərdi şəkildə müraciətlərlə məsələ düzəlmir. Dövlət orqanları ciddi şəkildə araşdırmalıdırlar".

Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin şöbə müdiri Şahin Nağıyev "Yeni Müsavat"a bildirdi ki, bununla bağlı quruma hər hansı şikayət daxil olmayıb. Əgər konkret müraciət olarsa, araşdırılacaq.

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 106 (7276) 17 may 2019

**Binəqədi rayonunda törədilən, son illərin ən qəddar cinayət əməli "Emin 444" ləqəbi ilə tanınan Masallı sakini, 1988-ci il təvəllüdlü Emin Səfərovun qətli son günlərin əsas müzakirə mövzularından birinə çevrilib. Qətldən dərhal sonra 1995-ci il təvəllüdlü Həsən Tağıyev həbs olunub. Qətlə yetirilən Emin Səfərovun yaxınları isə Həsən Tağıyevin qətlin iştirakçısı olduğunu, qəddar qətlin sifarişçisinin kikboks üzrə dünya çempionu Zaur Yusifov olduğunu iddia ediblər. Zaur Yusifov mayın 14-də həbs olunub.**

# Həbs olunan dünya çempionunun atası "Yeni Müsavat"a danışdı

## Binəqədidəki qəddar qətl böyük qan davasına çevrilə bilər



Onun atası **Əli Yusifov** "Yeni Müsavat"a bildirib ki, oğlunun cinayətin sifarişçisi olması haqda deyilənlər doğru deyil: "Emin Səfərovu Həsən Tağıyev vurub. Mən onları aralamaq istəmişəm, qoluma da bıçaq dəyib".

**Əli Yusifov deyir ki, hadisə baş verən gün ad günü olub:** "Evə tərəf gedirdim. Qonşuluqda yaşayan Emin Səfərovun yolun kənarında maşınını saxladığını gördüm. Mənə evdə demişdilər ki, Emin Həsəni öldürəcəyini deyib. Bu vəziyyəti bilirdim. Baxdım ki, Emin maşınla dayanıb. Qapını açıb maşına oturdum. Eminə dedim ki, məni bir əmi, dayı kimi qəbul elə. Həsən də pis uşaq deyil. Həsən oğlum Zaurun yanında məşq edir. Oğlum müəllimdir, o da onun yanına məşq eləməyə gəlir. Eminə dedim ki, sən Allah, onunla işin olmasın. Emin də bizim məhəlləmizin uşağıdır. Qapı qonşuyuq. Eminə dedim ki, cavan oğlansan, təzə evlənmisən, sənə belə problemli işlər lazımdır? Söhbət edirdik. Emin maşını "xoddadı", təxminən 10 metr qabağa sürdü, dönüb maşını saxladı. Mənə də dedi ki, ağsaqqal, sənə yaxşı yol. Həmin məqamda ona zəng gəldi. Danışdı, həmin adama dedi ki, səni yığacağam. Bu dəmdə maşının qapısı açıldı, Həsənlə vuruşmağa başladılar. Mənə də bıçaq dəydi, qolumun qanı axa-axa evə tərəf qaçdım. Oğlanlarım evdən çıxıb məni xəstəxanaya apardılar. Mən həddindən artıq qan itirmişəm. Mənim oğlanlarım o hadisədə iştirak etməyib. Bu haqda deyilənlər yalandır. İstintaq araşdırır, hər şey üzə çıxacaq".

Əli Yusifov oğlu Zaur Yusifovun sələmçi olması ilə bağlı deyilənlərin də həqiqət olmadığını söylədi: "Mənim oğlum Avropa çempionudur. Onun sələm verməsi ilə bağlı deyilənlər yalandır. Oğlum idman ustasıdır, müəllimdir. Həsən onun tələbəsi olub. 6-cı mikrorayona gəlib yoxlasınlar, 1 adam desə ki, mənim oğlum sələmə pul verib, ondan imtina edərik. Bu şərdir, böhtandır. Emin belində pistolet gəzirdi, deyirdi ki, burada mənəm, məndən başqa oğul yoxdur. "Çölə" çıxandan sonra deyir ki, hamı mənim sözümlə oturub durmalıdır. Yalandan da deyirlər ki, guya Zaura deyib ki, sən sələmə pul vermə, camaatı incitmə. Belə şey olmayıb. 4 nəvəmin canına and içirəm ki, belə şey olmayıb. Yalan deyirlər. Mənim oğlum obyektinin təmirinə pul tapa bilmir, gedib yoldaşının qızıllarını qoyub lombarddan pul götürüb. Hər ay da lombarda pul ödəyir. Əlimizdə sənədlər var. Bu qədər yalan, şər, böhtan olmaz. Bizi 6-cı mikrorayonda çox adam tanıyır. Bilirlər ki, belə işlərdən kənar insanlarıq".

**Əli Yusifov deyir ki, Emin Səfərovun boynuna kəndir atılaraq boğulması haqda məlumatlar da yalandır:** "Həsənin maşına minməsi ilə onların arasında davanın başlaması ani oldu. Mən nə baş verdiyini anlamadım. Onları aralamaq istəyirdim, bıçaq qoluma dəydi. Maşından düşdüm evə tərəf qaçdım. Qanım axırdı. Orada kəndir filan olmayıb. Ekspertizanın rəyi var. Əgər kəndir olsaydı, yazardılar ki, onu iplə boğublar".

**Əli Yusifov deyir ki, Emin Səfərovun yaxınları onu, ailə üzvlərini təhdid edir, 2 obyektlərini yandırıblar:** "Telefonuma zəng edib öldürəcəkləri ilə təhdid edirlər. Mənim 2 obyektimə hücum olub. Birinə benzin atıb yandırıblar. Obyektdəki yanğını yanğınsöndürənlər söndürüb. Bu haqda DİN-in 102 xidmətinə məlumat vermişəm. Digər obyektimə də benzin töküblər, yandıra bilməyiblər. Özümü, ailəmi öldürəcəkləri ilə hədələyirlər. Bələkdə nəvələrini doğrayacağam kimi hədələr alıram. Məcbur olub başqa ünvanda yaşayıram. Dövlətdən xahiş edirəm ki, bu məsələnin dəqiqliyi ilə araşdırılmasını təmin edib kimin cəzası varsa, versin, cəzaya çatdırsın. Emin Səfərov adam öldürməyə görə 10 il həbsdə olub, çıxıb narkotiklə bağlı həbs olunub. 15 gün əvvəl də həbsdən çıxıb. Onu silahla tutmuşdular. 10-15 gün saxlayıb buraxdılar. Mənim oğlumu həbs ediblər. Oğlum həmin vaxt evdə olub. Araşdırsınlar, həqiqəti üzə çıxarsınlar. Mənim oğlum günahkardırsa, tutulsun".

**Zaur Yusifovun anası Şirin Yusifova deyir ki, övladının günahı yoxdur:** "Bu işdə vuran bəllidir, tutulan da odur. Emin Həsənlə mübahisə edib, oğlumu tutublar. Bizi anonim zənglərlə hədələyirlər. Emin Səfərovun keçmişini araşdırsınlar. Bu işi prokurorluq araşdırsın. Gedib Zaurun qohumlarını tapıb bizim şəxsiyyətimizi təhqir edirlər. Bunun qarşısı alınmalıdır".

**Şirin Yusifova oğlu Zaur Yusifovun həbsi ilə bağlı ədalətli araşdırma aparılmasını tələb edir:** "Oğlum həmin hadisə olanda evdə olub. Amma onu tutublar. Həsən mənim oğlumun yanına gəlib-gedirsə, onun etdiyi əmələ görə mənim oğlum cavabdehdir? Bizi hədələyirlər. Belə zülüm olar? Dövlət bu məsələləri araşdırsın".

**Faktla bağlı Binəqədi Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120-ci - qəsdən adam öldürmə maddəsi ilə cinayət işi başlanıb, istintaq davam edir.**

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# ADP sədrinin "O saziş imzalanmayacaq" sözünə YAP-dan reaksiya

## Aydın Mirzəzadə: "Sərdar bəyin kənardan aldığı bədbin proqnozu bölüşmürəm"



**ADP sədri Sərdar Cəlaloğlu Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında strateji tərəfdaşlıq sazişinin imzalanacağına inanmır. Bununla bağlı "Hürriyyət" qəzetinə açıqlama verən partiya sədri bildirib ki, rəsmi Bakı heç vaxt bu sazişi imzalamayacaq.**

S.Cəlaloğlu fikirlərini bəzi arqumentlərlə əsaslandırıb. O hesab edir ki, insan haqları və demokratiya məsələsində Azərbaycan Avropa Birliyi ilə heç vaxt uyğun gələ bilməz. Bundan əlavə, ADP sədri bildirir ki, Azərbaycan Avropa Birliyinin Ombudsmanını öz idarəetmə sisteminə heç vaxt buraxmaz. Belə olan halda isə Aİ ilə rəsmi Bakının əməkdaşlığını mümkünsüz sayır.

**YAP-çı deputat Aydın Mirzəzadə sazişin imzalanacağını əminliklə söylədi:** "Burada bir variant ondan ibarətdir ki, Sərdar bəyin Avropa Birliyi ilə sıx əlaqəsi var və onlar Azərbaycanla bağlı bu cür məlumatları ona çatdırırlar. İkinci variant isə o ola bilər ki, Sərdar bəy gündəmdə qalmaq və bu cür orijinal yanaşması ilə diqqəti cəlb etmək istəyir. Mənim isə qənaətim ondan ibarətdir ki, hazırda Azərbaycanla Avropa İttifaqı arasında saziş ətrafında iş gedir. Tərəflər əks tərəfi qane edəcək variant üzərində işləyirlər. Saziş mütləq imzalanacaq. Çünki bu Azərbaycandan daha çox Avropaya lazımdır. Ölkəmiz bu gün müstəqil daxili və xarici siyasəti ilə öz güclü iqtisadiyyatını qura bilib. Azərbaycan bu gün Şərqlə Qərb arasında körpü rolunu oynayır. İnsan hüquqlarının qorunduğu bir ölkə olaraq Azərbaycan nümunəvi müsəlman Şərq ölkəsidir. Azərbaycan inkişaf dinamikliyi ilə seçilən, dünyada ciddi əhəmiyyət verilən bir ölkə olduğu üçün ABŞ və Rusiyanın Baş Qərargah rəislərinin görüşdüyü bir məkandır. Avropa bununla öz dəyərlərini daha geniş coğrafiyada yaymasına və onun dəyərlərini bölüşən tərəfdaşını tapmasına nail olur. Azərbaycana da Avropa lazımdır. Dünyada sülhün, sabitliyin bərqərar olunmasında, daha çox ölkələrlə əməkdaşlıq etməkdə maraqlıyıq. Son Brüssel sammitində hər hansı bir sazişin imzalanması nəzərdə tutulmamışdı. Bununla bağlı müxalif qüvvələrin dedikləri həqiqətdən tamamilə uzaqdır. Saziş üzərində hələ ki iş gedir. Bu sazişin əsas məğzi Avropa Birliyi tərəfindən Azərbaycanın ərazi bütövlüyünün tanınması olacaq. Bu saziş ölkəmizin maraqlarına tam cavab verəcək. Sərdar bəyin kənardan aldığı bədbin proqnozu bölüşmürəm".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# QAT-ın mitinqinə icazə verilmədi

## Qarabağ Azadlıq Təşkilatı yenə müraciət edəcəyini açıqladı

**Bakı Şəhər İcra Hakimiyyəti Qarabağ Azadlıq Təşkilatının (QAT) mayın 18-də keçirmək istədiyi Qarabağ mitinqini məqsədəuyğun saymayıb. Bu barədə "Yeni Müsavat"a QAT-dan məlumat verilib. Məlumatda bildirilir ki, Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) Qarabağ probleminin həlli ilə bağlı ölkə hakimiyyətinin addımlar atdığını qeyd edərək mitinqə "yox" cavabı verib.**

BŞİH-in mənfi cavabına QAT-ın münasibətinə gəlincə, razılaşdırılmamış aksiya keçirilməyəcək. "Biz Qarabağ Azadlıq Təşkilatı olaraq, BŞİH-in gətirdiyi arqumentlərə hörmətlə yanaşırıq, eyni zamanda hesab edirik ki, dövlət başçısının fəaliyyəti ilə yanaşı, ictimai xətlə mübarizənin aparılmasına, ermənilərin cinayətkar siyasətinin ifşa edilməsinə, mitinq və digər vasitələrlə işğala, terrora, etnik təmizləmə siyasətinə qarşı ictimai iradənin, Azərbaycan xalqının Qarabağın azadlığı naminə mübarizə əzminin, erməni işğalına qarşı etirazının kütləvi şəkildə nümayiş etdirilməsinə ehtiyac vardır", - deyə QAT-ın məlumatında bildirilir.

QAT bundan sonra da mitinqlərlə bağlı müraciətlərini davam etdirmək niyyətində olduğunu bəyan edib.

Qeyd edək ki, yanvarın 19-da Milli Şuranın keçirdiyi mitinqdən indiyə qədər müxalifət təşkilatlarının, həmçinin Qarabağ Komitəsinin də mitinq keçirmək üçün çoxsaylı müraciətlərinə BŞİH-dən mənfi cavab verilib.

Hazırda BŞİH-də Azərbaycan Xalq Hərəkatının da mayın 26-da Yasamal rayonundakı "Məhsul" stadionunda mitinq keçirmək üçün məktubu var. Müraciətə hələ cavab verilmədiyi bildirilir.

❑ **E.SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 106 (7276) 17 may 2019

# Fazil Məmmədovun "müflisləşməsi"nin pərdəarxası

## Sabiq nazir var-dövlətini qorumaq üçün iqtisadi manipulyasiyalara baş vurur

**Sabiq vergilər naziri Fazil Məmmədov "gizli" biznesini əlində saxlamaq üçün çabalar göstərir. O, bunun üçün hər vasitəyə əl atır, özünün barəsində mətbuata "dosye"lər belə ötürmək kimi üsullara baş vurmağı məqbul sayır. Belə görüntü yaratmağa çalışır ki, guya müflis olub, işləri və səhhəti qaydasında deyil...**



Faktiki isə F.Məmmədovun biznes imperiyasının sərhədləri kiçilmir, nazir postunda topladığı kapital hər ötən gün artır. Onun xaricdə hotelləri, istirahət mərkəzləri, zavodları, bazarları və genişprofilli biznesi var. Bu haqda ötənlərdə yazdığımızdan Fazil Məmmədovun necə "müflis" olmasına diqqət edək.

Son günlər mətbuatda Fazil Məmmədova məxsus biznes strukturlarında, o cümlədən "AtaBank"da gedən proseslərlə bağlı məlumatlar yayılır.

Bu məlumatlarda sabiq nazir tərəfindən bankın rəhbərliyinə gətirilən qohumlarının - bacısı oğlu Dəyanət Quliyev və yeznəsi Namiq Quliyevin "AtaBank"ı iflas həddinə çatdırdıqları, vəsaitləri müxtəlif vasitələrlə mənimsədikləri qeyd olunur. Xeyli müddət keçsə də, nə bank, nə adları çəkilən şəxslər, nə də Fazil Məmmədov bu məlumatları təkzib etməyib. Yayılan məlumatlarda "AtaBank"da növbəti qanunsuzluqların baş verdiyi iddia olunur. Belə ki, sabiq nazir Fazil Məmmədovun biznes strukturlarında ciddi problemlərin yaşandığı bildirilir. "Ata-Holdinq" və "Synergy Group"da maliyyə və idarəetmə böhranın hökm sürdüyü də iddia edilir.

Belə bir məqamda Fazil Məmmədov özünün ciddi sağlamlıq problemlərinin olmasını önə çəkməklə şirkətlərə faktiki nəzarət edə bilmədiyi fikrini formalaşdırmağa çalışır. Hətta bunun inandırıcı olması üçün keçmiş nazirə məxsus olan şirkətlər arasındakı borc problemlərinin məhkəməyə daşınmasına da diqqət çəkilir.

**Buna dair yayılan məlumatda qeyd edilir ki, "AtaHoldinq"ə daxil olan ""AtaSığorta şirkəti ödənilməmiş 9 min 918 manat sığorta haqqına görə "Synergy Group"u məhkəməyə veribmiş. Sitat:** "1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsində işə baxılaraq, həmin vəsaitin "Synergy Group"dan tutularaq "AtaSığorta"nın xeyrinə ödənilməsi qət edilmişdi. Hər zaman iri maliyyə qurumu kimi təqdim edilən "Synergy Group"un cəmi 9 min 918 manat sığorta haqqını ödəyə bilməməsi, buna görə də eyni şəxsə məxsus digər şirkət tərəfindən məhkəməyə verilməsi sabiq nazirin şirkətlərində idarəetmənin iflic hala düşməsini, sahibsizliyin hökm sürməsini əyani göstərir".

Əla gedişdir! Amma inanan olubmu?

**Ardı da var. Oxuyaq:** ""AtaBank"dakı problemlər ictimailəşdikdən sonra "AtaSığorta"da da analoji proseslər getməyə başlayıb. Belə ki, "AtaSığorta" ASC-nin İdarə Heyətinin sədri Müseyib Əliyev bir neçə gün əvvəl öz ərizəsi ilə işdən çıxıb. 15 ildən çox F.Məmmədovun şirkətlərində çalışmış M.Əliyevin məhz indiki anda işdən ayrılmasının səbəbi artıq bu şirkətlərin iflas həddində olması ilə bağlıdır".

**F.Məmmədova məxsus şirkətlər içərisində ən böyük problemin isə "AtaBank"da qaldığı vurğulanır. Bankın həm nəzarət orqanlarını, həm də öz müştərilərini aldatdığı bildirilir:** "Bir müddət öncə hər bir bank kimi "AtaBank" da öz illik maliyyə vəziyyətini açıqlayaraq, 2018-ci ili 127 min mənfəətlə başa vurduğunu bəyan etdi. Lakin təcrübəli iqtisadçılar bu məlumatın yanlış olduğunu, əslində bankın zərərlə işlədiyini, bankın öhdəliklər içərisində itib-batdığını mediaya açıqladılar. Belə ki, 2018-ci il üzrə əvvəlki illə müqayisədə "AtaBank"ın mənfəəti 63% düşüb. Təkcə müştəri hesablarında 3 ayda 7 milyon 724 min manat azalma qeydə alınıb. Bankın aktivləri də 7% azalıb.

Bankın 435 milyon 893 min manat öhdəliyi vardır ki, onun 20 milyon manatı Mərkəzi Bank qarşısındadır. Bankın mənfəət və zərər hesabatına əsasən, 2019-cu ilin birinci rübündə faiz gəlirləri illik müqayisədə 19,1% azalaraq 8 milyon 627 min manat, faiz xərcləri 12% azalaraq 5 milyon 620 min manat, qeyri-faiz gəlirləri 60% azalaraq 917 min manat, qeyri-faiz xərcləri isə 8% azalaraq 5 milyon 297 min manat təşkil edib.

Bank əməliyyatda da zərər edib. Belə ki, "AtaBank"ın 2019-cu ilin birinci rübündə əməliyyat zərəri 1 milyon 373 min manat olub. Halbuki bank 2018-ci ilin birinci rübündə 833 min manat əməliyyat mənfəəti əldə etmişdi.

Bank 2019-cu ilin birinci rübündə aktivlər üzrə ehtiyatlardan 1 milyon 500 min manat vəsaiti geri çəkdiyi üçün bu rübdə 127 min manat xalis mənfəət əldə edib. Əks halda, bankın rəsmən zərərlə işlədiyi təsbit olunmalı idi. Beləliklə də bank üzrə mütəxəssislərin fikrincə, "AtaBank"ın təqdim etdiyi maliyyə hesabatı onun mövcud likvidlik və dayanıqlıq vəziyyəti ilə qətiyyən uyğun gəlmir".

Sabiq nazirin adı keçən yazılarda qeyd olunur ki, o, biznesində yaranan problemləri həll etmək niyyətində deyil. Sabiq nazirin iflic vəziyyətə düşmüş bankı müştəriləri, dövlət orqanları və digər kreditorları ilə birlikdə baş-başa qoyduğu, bununla bağlı yaranacaq məsuliyyəti də idarəetmədə olanların üzərinə yönəldəcəyi bildirilir.

Belə informasiyaları təhlil etdikdə Fazil Məmmədova məxsus şirkətlərin dövri olaraq müflis elan edilməsi fikrinin ictimaiyyətə təlqin edilməsi üçün iş aparıldığı göz önünə gəlir. Belə xəbərlər sabiq nazirin qanunsuz kommersiya fəaliyyətini ört-basdır etməyə, əldə etdiklərini qoruyub saxlamağa xidmət edir. Maraqlıdır ki, Fazil Məmmədov vəzifədə olarkən də özü haqda belə xəbərlərin yayılmasına pis baxmırdı. 2016-cı ildə, vergilər naziri postunu tutarkən Fazil Məmmədova məxsus "Yeni Həyat" MMC müflis elan edilmişdi. O dövrdə bu xəbər tez bir zamanda mətbuatın gündəmini zəbt etmişdi. Az sonra isə "Yeni Həyat" yenidən başqa ad altında fəaliyyətini davam etdirməyə başlamışdı. Bu hərəkətlilikdən belə aydın olurdu ki, Fazil Məmmədov iqtisadi manipulyasiya ilə məşğul olur. Yəni forma dəyişsə də məzmun dəyişməyib. Belə müflis olma sırf Fazil Məmmədovun maraqları daxilində, nəzarəti altında aparılıb. Bu baxımdan hazırda müşahidə edilən gedişatın da sabiq nazirin nəzarətindən kənar olması inandırıcı görünmür...

❑ **E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

# Biznes kreditlərinə də kompensasiya verilməsi gündəmdə

## Mütəxəssis: "Burada söhbət yalnız kiçik və məhdud olaraq orta sahibkarlardan gedə bilər"

**Fiziki şəxslərin problemli krteditləri ilə bağlı məsələnin həllini nəzərdə tutan prezident fərmanının icrası yekun mərhələdədir. Fərmanın əhatə dairəsinə düşən fiziki şəxslərin mühüm bir hissəsi onlara çatacaq kompensasiyanı əldə edib. Bu prosesin yekunlaşması nəzərləri problemli biznes kreditləri ilə bağlı məsələyə yönəldib.**

Xatırladaq ki, maliyyə naziri Samir Şərifov və digər hökumət rəsmilərinin mətbuata verdikləri açıqlamalarda devalvasiyalardan əziyyət çəkmiş sahibkarlara da dövlət tərəfindən dəstək veriləcəyi, bununla bağlı müvafiq qurumlarda işlərə başlandığı bildirilib. Fiziki şəxslərlə bağlı işlərin son mərhələdə olması sahibkarlara dövlət dəstəyi məsələsi ətrafında müzakirələrin başlanmasına səbəb olub. Problemli biznes kreditlərinə görə dövlət dəstəyinin mümkün mexanizmi, əhatə dairəsi və sair istiqamətlərdə müxtəlif variantlar təklif olunmaqdadır.

**Bank sahəsi üzrə mütəxəssis Əkrəm Həsənov hesab edir ki, dövlətin biznes kreditləri üzrə devalvasiya itkilərini öz üzərinə götürməsi indiki mərhələdə real deyil:** "Çünki belə bir niyyət, dövlətin imkanı olsaydı, onda elə istehlak kreditləri üzrə dəstəyin əhatə dairəsi daha geniş götürülə bilərdi. Yəni demirəm ki, 10 min dollardan yuxarı olan kreditlərin də bütün məbləğinə, ən azı 10 minə qədər olan hissəyə görə kompensasiya verilərdi. Son vaxtlar çoxlu sayda vətəndaş mənə müraciət edir, insanlarda narazılıq yaranıb. Elə adam var ki, 2013-cü ildə 50 min dollar götürüb, 2015-ci ilədək 10 mindən az məbləğ qaldığına görə ona şamil olunub. Amma elə adam da var ki, 2014-cü ildə, hətta 2015-ci ilin əvvəlində 11 min dollar götürüb, ona şamil olunmayıb. Bu baxımdan, çox yaxşı olardı ki, hamının kreditinin 10 min dollara qədər olan hissəsinə kompensasiya hesablanaydı.



Buna dövlətin imkanı çatmırdısa, hamının kreditinin 5 min dollara qədər olan hissəsi götürüləydi. Bütün bunlara baxmayaraq, prezident fərmanı hər bir halda gözləniləndən daha yaxşı oldu, belə güzəştləri heç kim gözləmirdi".

**Mütəxəssisin sözlərinə görə, dövlət biznesə də devalvasiyalara görə dəstək vermək qərarına gələrsə, bu zaman istehlak kreditlərinin qalan hissəsinə də 10 min dollara qədər məbləğ üçün kompensasiya nəzərə alınmalıdır:** "Niyə deyirəm 10 minə qədər olan hissəyə, çünki 100-200 min, hətta 3-5 milyon dollar istehlak krediti verilməsi halları da var, qanunvericiliklə qadağan olunmasına baxmayaraq. Mən hələ də təəccüblənirəm ki, hüquq-mühafizə orqanları niyə bu faktlarla bağlı cinayət işləri başlatmırlar. Bir çox bankların sənədlərini şəxsən görmüşəm - 10 milyon dollar istehlak krediti alan var. Belə kreditlərin heç birinə güzəşt tətbiq olunmamalıdır. Digər tərəfdən, biznes kreditlərinə görə də dövlət dəstəyi veriləcəksə, burada söhbət yalnız kiçik və məhdud olaraq orta sahibkarlardan gedə bilər. Səbəbini də deyim, istehlak kreditini götürən adi vətəndaşın maliyyə və hüquqi bilikləri aşağı səviyyədədir: o, devalvasiya ehtimalını müəyyənləşdirə bilməzdi. Maliyyə məsləhətçisi, vəkili və sair yoxdur. Eyni vəziyyət kiçik sahibkarlarla bağlı da mövcuddur. Lakin orta və xüsusilə iri sahibkarın maliyyə və hüquq məsləhətçiləri olmalıdır. Orta və iri sahibkar o deməkdir ki, öz maliyyə və biznes risklərini qiymətləndirmək bacarığın, yaxud belə bacarıqları olan məsləhətçilərin olmalıdır".

**Ə.Həsənov deyir ki, bu baxımdan, Azərbaycanda dövlət hesabına yalnız devalvasiyalardan əziyyət çəkən kiçik sahibkarlara dəstək verilə bilər:** "Dövlətin ayırdığı vəsait bizim hamımızın ödədiyimiz vergilərdən formalaşır. Biznes risklərini qiymətləndirməyi bacarmayan iri sahibkara bu vəsaitlər hesabına yardım edilməsi düzgün addım olmaz. Kiçik sahibkara yardım edərkən də diqqət yetirmək lazımdır ki, kredit təyinatı üzrə sərf olunub, ya yox. Burada da ciddi problemlər var. Çünki əksər biznes kreditlərinin təyinatı olaraq rəsmiləşmədə "dövriyyə vəsaitlərinin artırılması" göstərilib. Bu, cəfəngiyyatdır. Çünki istənilən məbləği alırsansa, dövriyyə vəsaitin artır da. Buna görə də müqavilədə konkret göstərilməlidir ki, kredit, tutalım, təmir, tikinti, avadanlıq alınması və ya digər istiqamət üçün alınır. Konkret təyinat göstərilən kreditlər üzrə də vəsaitlərin məhz həmin sahəyə xərclənib-xərclənmədiyi araşdırılmalıdır. Məsələ burasındadır ki, sahibkar kreditlərinin böyük əksəriyyəti elə bank sahiblərinin öz adamlarıdır, onların vasitəsilə banklardan külli miqdarda pullar çıxarılıb".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 106 (7276) 17 may 2019



# Yeni qərarla orta məktəblər pul qazanacaq, amma necə?

**Kamran Əsədov:** "Bu, orta məktəblərdə satış yarmarkası, hansısa evdə bişirilmiş məhsulların pulla satılması demək deyil..."

**Məlum olduğu kimi, orta ixtisas təhsili müəssisələri publik hüquqi şəxsə çevrilir. Nazirlər Kabinetinin təsdiq etdiyi "Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nə əsasən mərkəzi və yerli icra hakimiyyəti orqanları tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin (xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələri istisna olmaqla) publik hüquqi şəxslərə çevrilmə şəklində yenidən təşkili barədə təkliflərini bir ay müddətində hazırlayıb Nazirlər Kabinetinə təqdim etməlidirlər.**

Sözügedən qərarı "Yeni Müsavat"a şərh edən **təhsil eksperti Kamran Əsədov** bildirdi ki, artıq 2016-cı ildən etibarən bəzi dövlət büdcəsindən maliyyələşən müəssisələrin publik hüquqi şəxsə çevrilməsi başlayıb: "İlk növbədə qeyd edim ki, publik hüquqi şəxsin mövcud olması zəruri idi. Çünki dövlətin varlığı başlı-başına bu konseptin yaranmasını tələb edir. Orta ixtisas məktəblərinin publik hüquqi şəxsə çevrilməsinə gəlincə, burada maliyyələşmə təkcə valideynlərin ödəniş etməsi kimi nəzərdə tutulmur. Bilirsiniz ki, 1995-ci ildə qəbul edilmiş konstitusiyanın tələblərinə görə dövlət pulsuz təhsil verməyi öz üzərinə götürüb. Burada tamam başqa formada maliyyələşmədən söhbət gedir. Yəni hər bir məktəb xidmət göstərməlidir. Bu gün təkcə Bakı şəhəri üzrə 700-dən çox hazırlıq kursu, tədris mərkəzi və sayı heç də 10 mindən az olmayan bu və ya digər fəaliyyət və fənlərdən repetitor xidməti fəaliyyət göstərir. Bunlar heç bir mənbədən maliyyələşdirilmir, göstərilən xidmətlərə görə həm öz xərclərini ödəyirlər, həm də gəlir əldə edirlər.

Bilirsiniz, hər bir təhsil müəssisəsində yaradılmış şəraitlə böyük məbləğdə gəlir əldə etmək imkanı var. Əlbəttə ki, qanuni əsaslarla. Daha indi bir çox məktəb direktoru qeyri-qanuni yolla məktəbliləri dərsdən buraxmaq, onlara yüksək qiymət yazmaq yolu ilə yox. Təhsil müəssisəsinin binası və infrastrukturunu dərsdən sonra geniş şəkildə istifadə etmək olar. Belə ki, təhsil müəssisəsində rəqs dərsləri, şahmat dərsləri keçirmək olar, eyni zamanda ixtisaslı kadrlar öz sahələri üzrə məhsul istehsal edə bilərlər. Bununla yanaşı rəsm və digər yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq üçün şərait yaratmaqla məktəb bu xidmətlərdən gəlir əldə edə bilər. Bunlardan başqa, məktəb qrant layihələri, tender və müsabiqələrdə iştirak etməklə öz gəlirini artırılmaq imkanlarına malikdir. 2011-ci ildə Nazirlər Kabineti tərəfindən bununla bağlı hüquqi tənzimləmə üçün qanunvericiliklə müəyyən edilmiş qaydalar hazırlanıb. Orta ixtisas və peşə məktəbin rəhbərliyi öz kontingentindən istifadə etməklə məktəbdə treninqlər, təlimlər keçirə bilər ki, bundan da böyük həcmdə vəsaitin əldə edilməsi mümkündür".

**Ekspertin sözlərinə görə, birbaşa orta ixtisas təhsili müəssisələrinin, peşə məktəblərin pullu olması mümkün deyil:** "Çünki qanunvericilik aktlarına görə dövlət minimum təhsil verməyə borcludur. Bundan başqa orta ixtisas, peşə məktəblər dərsdən sonra ödənişli təhsil xidmətləri göstərə bilərlər ki, bu zaman valideynlər könüllü olaraq ödəniş edə bilərlər. Amma birbaşa orta ixtisas təhsili müəssisələrinin, peşə məktəblərin pullu olması mümkün deyil. Xatırladım ki, ümumtəhsil məktəbi qanunvericiliklə müəyyən edilmiş qaydada fiziki və hüquqi şəxslərə ödənişli müxtəlif təhsil xidmətləri göstərmək, fiziki və hüquqi şəxslərdən ianələr və könüllü yardımlar almaq hüququna malikdir. Bu mənbələrdən əldə olunan vəsait və digər əmlak dövlət təhsil müəssisəsinə büdcədən ayrılan vəsaitlərin miqdarına təsir göstərmir və onun nizamnaməsinə uyğun olaraq sərbəst istifadə edilir. Qeyd edim ki, 2011-ci ildə təsdiq edilmiş "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"nin tələblərinə görə Ümumtəhsil məktəbi qanunvericiliklə müəyyən edilmiş qaydada fiziki və hüquqi şəxslərə ödənişli müxtəlif təhsil xidmətləri göstərmək, fiziki və hüquqi şəxslərdən ianələr və könüllü yardımlar almaq hüququna malikdir. Bu mənbələrdən əldə olunan vəsait və digər əmlak dövlət təhsil müəssisəsinə büdcədən ayrılan vəsaitlərin miqdarına təsir göstərmir və onun nizamnaməsinə uyğun olaraq sərbəst istifadə edilir. Bununla bərabər orta məktəb öz maliyyə vəziyyətini yaxşıladırmaq üçün hüquqi və fiziki şəxslərin qanunvericiliyə uyğun verilən qrantları, vəsiyyət olunan vəsaitləri, ianələri və yardımları ala bilər. Bu o deməkdir ki, qanunvericilik aktlarına görə məktəblərin maliyyə mənbəyi və gəliri açıq şəkildə göstərilib. Bu, orta məktəblərdə satış yarmarkası, hansısa evdə bişirilmiş məhsulların pulla satılması demək deyil... Məktəblər xeyriyyə, sosial kampaniyalara qoşula bilərlər. Amma bu kampaniyalar hansısa kommersiya məqsədi daşıya bilməz. Buna yol verən məktəb direktoru qanunvericiliyin tələblərini ciddi şəkildə pozur. Çünki məktəb binaları daxilində satışa çıxarılan məhsulların sağlamlıq, gigiyenik qaydalara nə qədər uyğun olub-olmaması məlum deyil və bu, şagirdlərin sağlamlığı üçün təhlükəli ola bilər".



**K.Əsədov vurğuladı ki, pullu xidmət dedikdə dərsdənkənar rəsm, rəqs, hansısa bir idman növü üzrə bilik və bacarıqların şagirdlərə öyrədilməsi nəzərdə tutulur:** "Orta ümumtəhsil müəssisələri özlərini maliyyələşdirməlidir. Onlar təhsil xidməti göstərməlidir. Sadəcə, bu istiqamətdə qarşıya qoyulan vəzifəni təmin edəcək kadrlarımız yoxdur. Bu gün ölkə büdcəsindən ən çox vəsait ayrılan sahələrdən biri təhsil sahəsidir. Ancaq bununla bərabər təhsil müəssisələri özləri-özlərini təmin etməyi də bacarmalıdır. Məsələn, Sinqapurun iki universiteti hər il ölkə büdcəsinə 1 milyard dollara yaxın vəsait gətirir. Azərbaycanda isə nə universitet, nə də orta məktəblər dövlət büdcəsinə pul gətirmir. Yalnız mənimsəməklə məşğuldurlar. Ona görə də onlar dövlətin təhsil proqramında nəzərdə tutulmayan xidmətlər üzrə pullu xidmət göstərə bilərlər. Yəni əlavə xidmətlər ödənişli olacaq. Lakin problem kadr məsələsindədir. Bu istiqamətdə bacarıqlı, peşəkar kadrlar, direktorlarımız yoxdur. Ona görə də ilk növbədə lazımi qədər maliyyə biliyinə malik kadrları yetişdirməliyik. Düşünürəm ki, bu minvalla Azərbaycandakı orta məktəblər bir neçə ildən sonra publik hüquqi şəxsə çevriləcək. Məktəblər məcbur olacaq ki, keyfiyyətli təhsil versin. Keyfiyyətli təhsil fonunda isə şagird günün ikinci yarısında hazırlığa getməz. Dünyada qəbul edilən proses bundan ibarətdir. Bu mənada maliyyələşmə orta məktəblərə pis təsir göstərməyəcək. Əksinə, onların maliyyəsi artacaq və büdcədən asılılıqları aradan götürüləcək. Ən vacib məsələ bu prosesdə şəffaflığın və hesabatlılığın formalaşdırılmasıdır".

❑ **Nərgiz LİFTİYEVA**
**"Yeni Müsavat"**

# Köhnə maşınların köhnə problemi...

**Ərşad Hüseynov:** "Avropada Avro-6 standartına keçirlər, Avro-4 maşınlar bizə gəlir"

**"Biz avtomobil idxalında ekoloji standartlara məhəl qoymayan ölkələrdən biriyik". Bu fikri "Yeni Müsavat"a nəqliyyat mütəxəssisi Ərşad Hüseynov bildirdi. Onun sözlərinə görə, sözügedən problemə lazımi diqqət yetirilmir.**




Ə.Hüseynov hesab edir ki, istehsal tarixi 2005-ci ildən yuxarı avtomobillərin idxal olunması onların ekoloji standartlara cavab verməsi anlamına gələ bilməz: "Azərbaycana köhnə maşınlar gətirilmir. Yəni 1995-ci ilin, yaxud 1998-ci ilin avtomobilləri idxal olunmur. Ölkə daxilində kifayət qədər köhnə maşın var. Sadəcə, Avropada istehsal olan Avro - 4, Avro - 5 maşınlar onlar üçün artıq standarta uyğun deyil, Avro - 6 standartına keçirlər, bizdə isə o standartlara hələ ki uyğundur. Ona görə də həmin maşınlar idxal edilir və nəticədə ekoloji standarta cavab vermədiyi məlum olur".

**Ekspertin fikrincə, total şəkildə köhnə maşınları qadağan etmək mümkün deyil:** "Şərait yaratmaq lazımdır ki, yeni avtomobilin idxalına maraq artsın. Bu zaman köhnə, istismar müddəti başa çatmış maşınlar tədricən yığışsın. İlk növbədə xüsusi proqram hazırlanmalıdır və mərhələli şəkildə problemi yaxşılaşdırmaq olar".

**Ə.Hüseynov məsələnin üzərinə gedilməsinin vacibliyini vurğuladı:** "Avro-6 standartına uyğun maşın alırsan, amma Bakıda Avro-2 yanacağı vurursan. Yanacağın da keyfiyyəti qaldırılmalıdır. Yəni problemin biri də budur".

**Müsahibimiz deyir ki, Avropada maşın istifadəçiləri texniki baxışdan keçirlər:** "Standarta uyğun deyilsə, dəyişirlər. Ancaq həmin maşınlar bizdə hələ standartdır, sürülür, gətirilir. O baxımdan kompleks tədbirlər görülməlidir".

Qeyd edək ki, son 3 ildə Azərbaycanda istehsal olunduğu ölkədə istismar müddəti başa çatmış və ekoloji tələblərə cavab vermədiyi üçün istifadəsi qadağan edilmiş nəqliyyat vasitələrinin sayı 2,5-3 dəfə artıb.

Bunu "Trend"ə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin şöbə müdiri Mirsalam Qənbərov deyib.

Nazirlik rəsmisinin dediyinə görə, ölkədə atmosferə atılan zərərli qazların 75 faizə qədəri nəqliyyat vasitələrinin payına düşür. M.Qənbərov qeyd edib ki, bu gün Azərbaycana idxal edilən nəqliyyat vasitələrinin 80 faizdən çoxu işlənmiş, ekoloji tələblərə uyğun gəlmədiyindən istifadə olunduğu ölkələrdə istismarına qadağa qoyulan maşınlardır.

M.Qənbərov bildirib ki, köhnəlmiş nəqliyyat vasitələri yalnız ekoloji fəsadlar yaratmırlar, onlar həm də qəza hallarının baş verməsinə səbəb olurlar.

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

**"İlanların fəal dövrünün başlaması ilə əlaqədar insanlar diqqətli olmalıdır". Bu barədə Milli Elmlər Akademiyası Zoologiya İnstitutunun aparıcı elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru, zəhərli ilanların öyrənilməsi ilə məşğul olan Təvəkkül İsgəndərov "Trend"ə açıqlamasında bildirib. Onun sözlərinə görə, Azərbaycan ərazisinin 60 faizindən çoxunda ilanlara rast gəlmək mümkündür. İlanlar Kür-Araz ovalığında, Qarabağ, Şirvan düzənliyində, Muğan düzündə, bir sözlə, ölkəmizin bütün isti və quraq dağətəyi çöllüklərində olurlar: "İlanların, o cümlədən levantin gürzələrinin fəal dövrü başlayıb. Buna görə də həmin ərazilərdə yaşayan, işləyən və ya gəzintidə olan insanlar diqqətli olmalıdırlar".**

# İlan mələyən çöllərimizdəki "ilan zəhəri" adlı böyük xəzinə

## Sovet dövründə Orta Asiya və Azərbaycanda cəmi 5 kq ilan zəhəri istehsal olunurdu ki, onun da 70 faizi ölkəmizin payına düşürdü, indi isə...



**T.İsgəndərov qeyd edib ki, ilanlar adətən kolların dibində, qayaların altında, siçan və siçovulların yuvalarının içində, tərəvəz tağlarında, torpaqlardakı çatlarda, eləcə də insanlar tərəfindən yaradılmış "sığınacaqlarda"-zirzəmilərdə, abad olmayan həyətlərdə - burada toplanmış tullantıların içində, daş qalaqlarının, taxta materiallarının altında, evlərin damlarında gizlənirlər. Mütəxəssis ilanların ola biləcəyi ərazilərdə yaşayan və işləyən insanların təhlükəli ilan sancmalarından qoruna bilməsi üçün mümkün yolları da açıqlayıb:** "İnsanlar bilməlidirlər ki, adları qeyd edilən yerlərdə olarkən, məsələn, həyətindəki taxtanı qaldırarkən, yaxud tağlar arasında işləyərkən çox diqqətli olmaq lazımdır. Bunun üçün insanlar birinci növbədə ilan gizlənə biləcək yeri cubuqla yoxlamalıdırlar. Əgər ilan görərlərsə, narahat olmasınlar. Əllərində heç nə olmadıqları halda, onu tutmağa, ya da öldürməyə cəhd etməsinlər. Bu, onların həyatı üçün təhlükəli olar. İlanı tapdalamasan, ona yaxınlaşmasan, o, səni sancmayacaq, gizlənmək üçün özünə yer axtaracaq. Onu da unutmayın ki, ilan sizi heç vaxt təqib etməyəcək, o, yalniz özünü müdafiə edəcək! Yaxşısı budur ki, ilanı gördükdə onun ərazidən uzaqlaşmasına, gizlənməsinə imkan yaradasınız, onun harada gizləndiyini müəyyən edəsiniz. Bundan sonra isə ilanın gizləndiyi ərazidə, 1,5 metr məsafədən onun üstünü tamamilə örtmək üçün üzərinə kisə, pencək və s. atın. O, üstünü bağlı gördükdə özünü gizlənmiş hesab edəcək. Yalnız bundan sonra ilanı zərərsizləşdirmək olar".

T.İsgəndərov öldürülən ilana görə onun cütünün, yaxud qardaşlarının qisas alması barədə deyilənləri də rəvayət adlandırıb.

Qeyd edək ki, ölkəmizdə 29 növdə ilan olduğu bildirilir ki, bunun da 17 növü zəhərsiz, 5 növü yarızəhərli, 7 növü isə zəhərlidir.

Zəhərsiz ilanlar tamamilə təhlükəsizdir. Onlardan kor ilanı, qərb yatağanı, qarabaş rinxokalamus, xaltalı eyreniz, dinc eyreniz, nöqtəli eyrenis, qonur ilanı qeyd etmək olar.

Yarızəhərli ilanlar insan və digər məməlilər üçün təhlükəli deyil. Lakin zəhər dişi ağızın arxa şırımında olduğundan barmağınızı ağzına saldıqda sizi zəhərləyə bilər. Dişləməsi isə insanda allergik reaksiya verə bilir. Bu növdən olan ilanlardan daması su ilanı, bəzəkli təlxə, oxvari qum ilanı və digərlərini qeyd etmək olar.

Zəhərli ilanlar isə gürzəkimilər dəstəsinə aid olub, zəhəri olduqca təhlükəlidir. Bu ilanların sancması əksər hallarda ölümlə nəticələnir. Ölkəmizdə yayılan zəhərli ilanlar bunlardır: qalxansifət, nəhəng gürzə, radde dağ gürzəsi, dinnik gürzəsi, İrəvan çölgürzəsi, Şamaxı başıqalxanlısı, Lotievi gürzəsi.

Qeyd edək ki, mövsümlə əlaqədar olaraq ilan sancması ilə bağlı faktların sayı artmaqdadır. Məsələn, Lənkəranda təkcə mayın 15-də müxtəlif saatlarda 2 ilan sancması hadisəsi qeydə alınıb.

Ötən ay isə ölkədə 6 ilan sancması hadisəsi yaşanıb. İlan sancan şəxslərdən 2-si 5 və 7 yaşlarında uşaqlar olub. Sevindirici haldır ki, ilan sancan şəxslər arasında ölüm hadisəsi yaşanmayıb.

Mütəxəssislər qeyd edir ki, zəhərli ilanları öldürmək çıxış yolu deyil. Bu növdə olan ilanlar tapıldıqda mütləq mütəxəssis çağırılmalı, zərərləşdirilməlidir. Daha bir məsələ, məlum olduğu kimi, ilan zəhəri çox böyük müalicəvi əhəmiyyətə malikdir. Məsələn, dünyada qurudulmuş ilan zəhərinin bir qramı təxminən 300-800 dollardır. Zəhər təmizlənib sertifikatlaşdırıldıqda isə qiymət 2 dəfəyə qədər artır. Beləliklə, 1 qram ilan zəhəri bir barel neftin qiymətindən dəfələrlə bahadır.

Hazırda, dünyanın ilan zəhərinə olan illik tələbatı 10 kiloqramdır. Bu məhsulu dünya bazarına əsasən Cənubi Koreya, Çin, Vyetnam, Hindistan kimi Asiya ölkələri, eləcə də isti iqlimə malik digər ölkələr çıxarır. Ən yaxşı zəhər kobra ilanının zəhəridir. Hər bir ilan növünün zəhəri ayrı-ayrı xəstəliklərdə istifadə olunur. Kobra ilanının zəhəri sinir-əsəb sistemi ilə bağlı olan xəstəliklərin, gürzə və gürzə kimi ilanların zəhəri ürək-qan-damar sistemi xəstəliklərinin müalicəsində istifadə edilir. Məlumdur ki, tibdə ağrıkəsici vasitə kimi narkoz və digər narkoloji vasitələrdən istifadə olunur. Bir çox ilanlar güclü ağrıkəsici gücü olan yavaş təsirli zəhərə malikdirlər.

Azərbaycanda da vaxtilə sovet dövründə ilan zəhəri istehsal olunub. Həmin dövrdə ilan zəhəri istehsalı Zirə qəsəbəsi və Ağsudakı Herpetoloji kombinatlarda aparılıb. Xüsusən də Zirə Herpetoloji Kombinatı müxtəlif əczaçılıq zavodlarına hər il olduqca yüksək qiymətə zəhər idxal edirdi. İstehsalı artırmaq üçün maraqlı kampaniyalar aparılır, ilan tutub təhvil verənə bahalı mükafat verilirdi.

Ümumilikdə Orta Asiya və Azərbaycanda cəmi bir yerdə 5 kq ilan zəhəri istehsal olunurdu ki, onun da 70 faizi ölkəmizin payına düşürdü. Bu isə kifayət qədər yüksək göstəricidir. Lakin sovet hakimiyyəti dağıldıqdan sonra bu kombinatlar ləğv olunmasa da fəaliyyəti dayandırıldı.

**Mövzu ilə bağlı iqtisadçı ekspert Natiq Cəfərli "Yeni Müsavat"a danışıb:** "Əlbəttə ki, ilanların öldürülməsi yolverilməzdir. Bu, ümumi ekosistemə təsir edən amildir. Əgər hər hansı kənd təsərrüfatı zonasında və yaxud onun ətrafında olan ilanların məhv edilməsi prosesinə start verilsə həmin zonaların özü məhv ola bilər. Çünki həmin ərazilərdə olan gəmiricilərin sayı kifayət qədər artacaq və bu da təsərrüfata ziyan vuracaq. Yeni ilanlar gəmiricilərlə mübarizədə təbii vasitədir. Bunu nəzərə almaq lazımdır. Beləliklə, ilanları məhv etmək əvəzinə ondan səmərəli istifadə qaydalarını axtarıb tapmaq lazımdır.

Dünyada bununla bağlı mütəxəssisləşmiş şirkətlər də var. Onların təcrübəsindən yaralanmaq olar. Çox uzağa getmək lazım deyil, bildiyim qədər qonşu Türkiyədə yüzlərlə bu cür şirkət fəaliyyət göstərir. Hansısa formada onların işə cəlb olunması, zəhər toplama stansiyalarının yaradılması, insanlara, onların yaşayış yerlərinə ziyan vurmadan işlərin görülməsi üçün kifayət qədər təcrübə var. Sadəcə, onların fəaliyyətini yenidən bərpa etmək üçün şəraitə ehtiyac var. Dövlət bununla bağlı hansısa güzəştlər edə bilər. Məsələn, bu işlə məşğul olan şirkətlərin 5 illik vergidən azad olunan maaşı, onların istifadə etdiyi avadanlıqların tamamilə gömrük rüsumundan azad olunması ilə bağlı qərarlar verilə bilər. Bu zaman biznes təfəkkürü işə düşəcək və bu sektora maraq göstəriləcək. Çünki kifayət qədər gəlirli sahədir. Bildiyim qədər dünyada 1 qram ilan zəhərinin dəyəri 300-800 dollar arasındadır və bir sıra sahələrdə istifadə olunur. Məsələn, tibdə, kosmetologiyada və sairə. Ona görə də düşünürəm ki, bu məsələyə iqtisadi məntiqlə yanaşmaq daha doğru olar. Əgər hazırda Azərbaycanda bununla bağlı mütəxəssis yoxdursa, digər ölkələrdən mütəxəssislər cəlb edilə, xarici şirkətlərlə əməkdaşlıq etmək olar".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Musabəyovun bağlatdığı popkorn satışı yenidən açıldı

**"Mənim küçədə rəsm əsərlərinin, kitabların satışına etirazım yoxdur. Lakin yaxşı olar ki, onlara bir xüsusi yer ayrılsın, orada rahat fəaliyyət göstərsinlər". Bu sözləri "Yeni Müsavat"a deputat Araz Əlizadə səyyar ticarətin yığışdırılması, şəhərin mərkəzində vaxtilə olan pasajın ləğv edilməsi barədə danışarkən bildirdi.**



Deputat küçədə xırdavat alverinin, tum, konfet və s. satılmasının əleyhinə olduğunu açıqladı. Onun sözlərinə görə, bu ticarət Türkiyədə ola bilər: "Onlar əsasən Asiya ölkəsidirlər, hərənin öz adətləri var. Rəsm, kitab satışı bu gün Moskvada da var. Bizdə isə 90-cı illərdə yayılmağa başlamışdı. Ola bilsin ki, sakit yerlərdə etmək olar".

A.Əlizadə pasajın yerində açıq havada restoranların açılmasını təbii hesab edir. Onun fikrincə, dünyanın çox yerində turistlər üçün yay mövsümündə bu cür şərait yaradılır.

Deputat həmkarı Rasim Musabəyovdan fərqli olaraq onu da dedi ki, küçədə popkorn satılmasının əleyhinə deyil.

Qeyd edək ki, deputat R.Musabəyovun sosial şəbəkələrdə yazdığı statusdan sonra bağlanan popkorn aparatları yenidən açılıb.

Azxeber.com-un yaydığı xəbərə görə, keçidlərdə popkorn aparatları yenidən fəaliyyətə başlayıb. Sadəcə, dəyişiklik satıcılar arasında olub. Belə ki, satıcı kimi orta və yaşlı insanlar işə qəbul edilib. Musabəyov isə popkorn satan uşaq haqda bu sözləri yazmışdı:

""Azneft" meydanı yaxınlığında yeraltı keçid popkorn qoxusundan azad oldu. Müşahidə aparıb baxarıq nə qədər müddət davam edəcək.

Bu kiçik məsələ olsa da, ictimaiyyətin fəal reaksiyası onun önəmli olduğunu göstərir.

Bəzi müzakirə iştirakçıları ölkənin qlobal problemləri ilə məşğul olmağı və ikinci dərəcəli mövzulara vaxt ayırmamağı tövsiyə edirlər".

**Deputat Aydın Mirzəzadə isə bildirmişdi ki, o uşağı oradan aparatı ilə çıxartmaq yox, ona paltar və məktəb ləvazimatı alıb məktəbə yönləndirmək, ailəsinə isə iş tapmaqda kömək etmək lazım idi:** "Əgər valideynlərin biri yox idisə və ya işləmək qabiliyyətləri yoxdursa, o ailəyə sosial yardım verilməsinə nail olmaq lazım idi. Bütün bunlardan əvvəl isə yaxınlaşıb uşaqdan popkorn almaq lazım idi ki, verdiyimiz puldan ona həmin gün azacıq da olsa, pul qalaydı".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

## Elan

**Bakı şəhəri Yasamal rayonu, Mirəli Seyidov küçəsi, ev 37, mənzil 47 ünvanında yaşayan Sadıxov Mixail Yuriyeviç adına olan çıxarış itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 106 (7276) 17 may 2019




# Hər bir əməli məna ilə yükləyən amil

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Artıq mübarək Ramazan ayının müəyyən hissəsi arxadadır. Bu ay - insana ruhi təravət və yeniləşmə vermə, ruhi oyanış bəxş etmə baxımından misilsiz bir fürsətlər təqdim edir.**

Uca Allahdan diləyirik ki, cəmi inanc əhlinə bu mübarək ayın qalan hissəsində fəzilət və nemətlərdən faydalanmaq tövfiqini qismət etsin, inşəallah!

## Niyyət - işin təməlidir

Bəhsimizdə əziz Peyğəmbərimizin (s) Ramazan ayı ilə bağlı məşhur xütbəsinin bəzi hissələrinə diqqət edəcəyik. Allahın Rəsulu (s) bu aylar sultanının böyük kəramətlərini mübarək izahında bizlərə bəlli edir: "...Bu ayda aldığınız nəfəslər - zikr, yatmağınız - ibadət, əməlləriniz - qəbul, etdiyiniz dualar - müstəcəb olar..."

Hədisin davamında buyurulur: "Elə isə Allah Təaladan saf niyyət və sidq ürəklə istəyin ki, günah və pis əməllərinizdən keçib, sizlərə bu ayda oruc tutmağı, Quran tilavət etməyi qismət etsin».

Buradan aydın olur ki, bu aydan bəhrələnməyin, nemətlərindən istifadə etməyin zəruri və kafi şərti - saf niyyət və səmimi durumdur. Bu şərt əvəzolunmaz xarakter daşıyır və mübarək hədisdən göründüyü kimi, günah və pis əməllərdən qurtulmağın, tövbə, bağışlanma diləməyin, ibadət və itaətlərin insana qismət olmasının bünövrə şərtlərindəndir.

Niyyət - İslamda ən möhkəm institusional əsaslardan, ən əhəmiyyətli mövzulardandır. Niyyət - bir duyğu, emosiya, hiss deyil. Əslində niyyət - müəyyən mənada əməldir və funksional səciyyə daşıyır. Yəni, niyyət iradəvi xüsusiyyətə malikdir.

Bir sıra İslami mətnlərdə biz bunun təsdiqini görürük. Belə ki, bunlarda mərkəzi xətt olaraq nəinki tək əməlin niyyətə bağlılığı keçir, hətta, demək olar ki, əməlin niyyətin təzahürü olaraq, niyyətin məhsulu olaraq təqdimatına rast gəlinir.

**Həzrət Əlidən (ə) bu mövzuda çox əlamətdar bir hədis nəql edilir:** "Niyyət - işin təməlidir».

İnsan bəndəlik etmək istəsə, ilk növbədə niyyətinə diqqət yetirməlidir. Bəndəlik tək namaza qayıtmır - sözsüz ki, namaz bəndəliyin zirvə təzahürüdür - amma burada mətləb tək namaz deyil. İnsan bəndəlik etmək istəsə, hər nə iş görür, hər

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



nə edir - sırf Allaha xatir etməlidir.

## Allaha xatir nə deməkdir?

"Allaha xatir» nə deməkdir? Niyyətin dürüstlüyü - fəqət Müteal Allahın rizayəti, razılığı üçün hər hansı bir işi görməkdən keçir. İstər ruzi dalınca getmək olsun, istər həyat yoldaşına, balalarına qayğı olsun, qohumlara baş çəkmək, vicdanlı həyat sürmək, düzünü demək, prinsipial vətəndaş mövqeyi sərgiləmək - hər bir işdə ki, insanın qayəsi İlahi əhkamı yaşatmaq, yəni Allahın məsləhət bildiyi işlərə dəstək vermək və bəyənmədiyi işlərdən çəkinməkdir - elə bəndəlik budur.

Başqa məfkurələrdə, dünyagörüşlərində "dini" və "dünyəvi" anlayışlarını bir-birindən ayırırlar. Yəni bunlarda belədir ki, bir var insanın ruhi-mənəvi həyatı, bir də var hansısa digər həyatı. İslam dini belə bölgünü qəbul etmir. İslamın məntiqində insan - tamlıq, harmoniya ifazə edən bir varlıqdır və onun bütün fəaliyyəti vahid ünvana - kamillik hədəfinə yönəli olduqda, əhəmiyyətlidir.

Bəs həyatın ən müxtəlif sahələrində insanın fəaliyyətini tənzimləyən amil nədir? Məhz həmin bu niyyət! Bu, bir mübarək ortaq məxrəcdir ki, insanın bütün əməllərinin tənzimlənməsində müəyyənedici rol oynayır.

İnsan əgər bir iş gördükdə "qürbətən ilallah» - "Allaha yaxınlaşmaq» niyyətini rəhbər tutursa, onda bu işin nəticəsi də bərəkətli olacaq. İşlərin nəticəsinin olması özü nədir? Məlum olduğu kimi, insanın dünya həyatında gördüyü işlər - pisi də, yaxşısı da - onun axirət həyatına inikas olunur. Və bu baxımdan o əməl o zaman nəticəli demək olar ki, bu, insanın axirətdə karına gəlsin. Əməli nəticəli nə edir? Niyyət, daha doğrusu, niyyətin düzgünlüyü. Təməlsiz, bünövrəsiz heç bir bina mövcud ola bilmədiyi kimi, niyyətsiz də əməl yaşamaz.

## Əməlin mövcudluğu niyyətlədir

**İmam Səccaddan (ə) nəql edirlər: "Əməl yalnız niyyətlədir".**

O əməllərin perspektivi var, o əməllərin Allah Təala qəbul edənidir ki, bunların mənbəyində xalis niyyət dursun. Niyyəti bəndəlik olmayan əməllərin qəbuledəni Allah deyil, lənətlik iblisdir. Bizə tam aydın olur ki, niyyət əməlin bütün mərhələlərində müşaiyətçidir. Əgər insan axıradək gözəl niyyətdə bulunsa, əməli onu ruhani zənginliklərə qovuşduracaq. Əks təqdirdə, insan özünü zillətə salmış olur.

**İmam Cəfər Sadiqdən (ə) nəql edilən hədisdə isə tamamilə yeni müstəvi açılır:** "Heç bir bədən, niyyəti güclü olduğu şeyi yerinə yetirməkdə aciz deyil».

Niyyətin paklığı, saflığı, təmizliyi o qədər müəyyənedicidir və eyni zamanda o dərəcədə ruhi gücə səbəb olur ki, istənilən gözəl işi insana gördürə bilər. Minlərlə rəzilətlər var ki, insanın taqəti olmaz onlara nəinki qalib gəlsin, hətta güc göstərməyə cəhd etsin. Və minlərlə gözəlliklər var ki, insan onları yerinə yetirməyə aciz olar. Amma niyyəti güclü olduqda, ixlası həqiqi olduqda, bu, onun üçün son dərəcədə asan bir işə çevrilir.

## Əbədiyyətin növünü niyyət müəyyən edər

**Niyyətlə bağlı digər bir müstəvi, İmam Cəfər Sadiqdən (ə) nəql edilən mübarək hədisdə açıqlanır:** "Cəhənnəm əhli əslində ona görə (orada) saxlanılır ki, onların dünyada niyyətləri, orada əbədi qalsa idilər, Allaha qarşı həmişə itaətsizlik etmək olub. Behişt əhli də əslində ona görə cənnətdə əbədi qalır ki, onların da niyyətləri, əgər dünyada qalsa idilər, əbədi olaraq Allaha itaət etmək olub. Deməli, hər iki dəstənin əbədiliyinin səbəbi - onların niyyətləridir».

Dinimiz son dərəcədə gözəl bəlağətlə insanın müqəddəratının məhz onun özünün əlində olmasını açıqlayır. İnsan niyyətini dürüst etsə, o, dünyadaykən yaradılış harmoniyasına münasibətdə öz yerini və rolunu müəyyənləşdirir. İnsan edəbilər ki, dağıdıcılıqla məşğul olsun və edə də bilər ki, özünə gözəl aqibət hazırlasın. Zülmət əhli dünyada minillər boyu qalaçaqları təqdirdə belə, yenə də öz çirkin məfkurələrini yaşadacaq, insanların haqqını basa-basa zülmə dəstək verəcək, eybəcərliyi törədəcəkdilər.

Amma öz qayəsini insanlara xidmətdə görən, İlahi ədalətin bərqərar olunmasına töhfə verən insan isə, nə qədər çox yaşayacaqsa, ruhi təkamülü onu dünyada da həqiqi gözəlliyə qovuşduracaqdı.

**İmam Sadiqdən (ə) nəql edilən digər hədisdə bildirilir:** "Allah Təala Qiyamət günü insanları məhşərə niyyətləri əsasında gətirəcəkdir».

Demək, insanın Allah dərgahına dönüş edəcəyi gündə əldə etdiyi varlığı - niyyətinin məhsuludur. Xoş aqibət - insan olaraq öz təklifini anlayan və yerinə yetirən şəxslərlədir.

Allah Təala bizləri də, cəmi insanları da təklifini dərk edib, niyyəti xalis olanlardan qərar versin, inşəallah!

## Yaxşı niyyətin özü bir əməldir

**Allahın Elçisindən (s) nəql edilən hədisdə bildirilir:** "Ey camaat! Əməllər yalnız niyyətlədir. Əslində, hər bir kəsə, niyyətində olduğu şey çatacaqdır».

**Həzrət Əlidən (ə) nəql edilir:** "Yaxşı niyyətin özü bir əməldir".

Niyyət yalnızca ruhi bir halət deyil. Niyyət yalnızca əməlin xarakterini, əməlin psixoloji aurasını təşkil edən mühüm amil deyil. Niyyət - özü də bir əməldir. Yəni xoş niyyətə nail olmaq - iradəvi bir prosesdir, seçimin məhsuludur və nəticə etibarilə, niyyəti təmizləmədiyi əməlin özündən də daha əhəmiyyətli bir məsələdir.

Niyyət öz-özünə yaxşı və ya pis ola bilən deyil. Niyyət - qəlbin məhsuludur, insanın rəhbər tutduğu kateqoriyaların, riayət etdiyi həyat fəlsəfəsinin, bir sözlə - insanın ruhi-mənəvi halətini tənzimləyən amillər toplusunun nəticəsidir. Bütün başqa əməllərin başlanğıcı, müqəddiməsi məhz niyyətdir. Bu müqəddimə mübarəkləşməsə, insanın Allaha qovuşmaq amalı ilə tənzimlənməsə, deməli, insanın törəmə əməllərinin nə bərəkəti, nə də bir faydası olacaqdır.

**Səhabələrdən biri Həzrət Əliyə (ə) bildirir ki, qardaşının arzusu var idi ki, Cəməl müharibəsində iştirak etsin və Allah Təalanın düşmənləri necə qəhr etməsinin şahidi olsun. Həzrət Əli (ə) o kişidən soruşur:** "Qardaşının ürəyi bizimlədir?" Dedi: "Bəli". İmam Əli (ə) buyurdu ki, lOnda o, bizimlə olub».

Əgər insanın qəlbi min kilometrlərlə kənarda haqq mübarizəsi aparan qardaşlarıilədirsə, onda Müteal Allahın nəzərində o, həmin insanlarla birgə hesab edilir. Əlbəttə ki, bunun əksi də doğrudur - insan zülmə qəlbi ilə də belə dəstək verdikdə, həmin zülmə şərik olur.

**Digər hədisdə Həzrət Əlidən (ə) nəql edirlər:** "Allahın hər bir şəxsə bəxşişi, (onun) niyyəti qədərincədir".

Əlbəttə, Allah bəxşiş edən, hədiyyə edəndir. Amma həmin bəxşişin miqdarı, səviyyəsi - insanın niyyəti qədərdir. Niyyət gözəl olduqca, İlahi rəhmətin dərəcəsi də artır.

Niyyətlə bağlı müəyyən gündəlik tətbiqli məsələlər də vardır. Peyğəmbərimiz (s) ən yaxın səhabələrindən biri olan Əbazər Qəffariyə buyurur: "Ey Əbazər! Bütün məsələlərdə, hətta yemək və yatmağında da pak niyyətli ol!".

Demək, insanın iradəvi durumu, onun bütün həyati məsələlərində, hətta ilk görünüşdə az əhəmiyyətli görünə biləcək işlərdə də tətbiqatını tapır. Həyatın bütün çalarlarında insan Allahın razılığını əldə etməyi düşünməlidir. Yeyəndə də, yatanda da, digər işlərində də insanın niyyəti topladığı enerjini beşəriyyətə xidmətə, ətrafa işıq yaymağa sərf etmək olmalıdır.

**Bu bəhs, İmam Sadiqdən (ə) nəql edilən hədislə gözəl surətdə təsdiqlənir:** "İnsan gərək bütün hərəkətlərində və hərəkətsizliyində pak niyyətli olsun. Çünki, əgər ortada bu məna olmasa, (həmin insan) qafillərdəndir».

İnsan bir əməli yerinə yetirəndə də, bundan daşınanda da gərək düzgün niyyəti rəhbər tutsun. Danışmaq lazım gəldikdə də, susmağın zəruri olduğu yerlərdə də həqiqi meyar - Allahın razılığı olmalıdır.

**Rəsulallahdan (s) digər yerdə buyrulur:** "Ən fəziləti əməl - düzgün niyyətdir".

Allah Təala bütün insanları pak niyyətlə hərəkət edənlərdən qərar versin, inşəallah!

## Gözəl niyyət insanın ruzisini artırar

Həzrət Əlidən (ə) nəql edilən hədisdə isə, niyyətlə insanın daxili aləminin bağlılığına işarə edilir: "Niyyətin gözəlliyi - insanın təbiətinin gözəlliyidir".

Burada biz, niyyətlə insanın daxili aləminin birbaşa əlaqəsini sezirik. İnsan nə qədər saf qəlbli olarsa, onun daxilində ərsəyə çatan niyyət də eynitəbiətli olacaqdır. İnsanın niyyətinin necəliyi, onun daxilinin güzgüsüdür. Daxilində rəzil xislətlər yuva saldıqda, niyyəti də müvafiq olur. Və daxili İlahi məhəbbətdən qaynaqlandıqda, qəlbinin törəməsi olan niyyət də gözəl olur.

**Niyyətin yaxın və uzaq müqəddəratlara yetişməkdə rolu isə, Həzrət Əlidən (ə) nəql edilən digər hədisdə göstərilir:** "Gözəl niyyət, amal və arzulara çatdırır".

Niyyətlə ruzinin əlaqəsinə dəlalət edən hədisdə isə İmam Cəfər Sadiqdən (ə) nəql edilir: "Kimin niyyəti gözəl olsa, Allah onun ruzusunu artırar".

"İnsan öz vəzifəsini yerinə yetirmək üçün nə qədər ibadət etməlidir?" sualının cavabında İmam Cəfər Sadiq (ə) buyurmuşdur:"İtaətdə gözəl niyyətə malik olmalıdır".

Yəni dinimiz buyurur ki, əgər insan öz ibadət və itaətlərində gözəl niyyətə əsaslanırsa, bu, onun bəndə olaraq vəzifəsinin yerinə yetirməsinə dəlalət edir.

Eyni zamanda dinimiz niyyətin pisliyinin acı nəticələri barədə xəbərdarlıq etməklə də, insanı qəlbi saflığa doğru yönəldir. Həzrət Əlidən (ə) nəql edilən hədisdə bildirilir: "Bədniyyətlilik - gizli bir dərddir".

Digər hədisdə Həzrət Əli (ə) buyurur: "Niyyətin pisliyi ilə bərəkət aradan gedər".

Pis niyyətlər, qəlbi qaralıq fərdlərdən, ailələrdən, toplumlardan bərəkəti sovurub aparar. Nəticə etibarilə, bədniyyət durum bütün mümkün pisliklərin qapısını insanın üzünə açar.

Eyni zamanda niyyətin dəyişən, təkamül-tənəzzülə məruz qalan bir kateqoriya olması da bizə çatdırılır. Həzrət Əlidən (ə) bu mövzuda nəql edilən hədisdə bildirilir: "Niyyət pisləşəndə, qarşıya bəla və çətinliklər çıxar".

**Və bəhsin yekununda bir daha Peyğəmbərimizdən (s) nəql edilən tövsiyənin əhəmiyyətinə varaq:** "Elə isə Allah Təaladan saf niyyət və sidq ürəklə istəyin ki, günah və pis əməllərinizdən keçib, sizlərə bu ayda oruc tutmağı, Quran tilavət etməyi qismət etsin".

Nəzərə alaq ki, bu, bir iradəvi məsələdir və niyyətlərimizi gözəlləşdirək ki, əməllərimiz də gözəl olsun. Allah bu işdə cəmi inanc əhlini müvəffəq etsin!

**Allahım, bizləri və bütün inanc əhlini dünya və axirətdə Həzrət Peyğəmbər (s) və Əhli-Beyti (ə) ilə birgə et!**

**Allahım, millətin və ümmətin qarşısında duran çətinliklərin həll olmasını, işğal altında olan torpaqların azad olmasını, xəstələrin şəfa tapmasını, yoxsulların, acların, müşkülü olanların problemlərinin həllini nəsib et!**

**Allahım, 12-ci İmam - Həzrət Məhdi Sahib-əz-Zamanın (ə.f.) tezliklə zühur etməsini inayət et! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 106 (7276) 17 may 2019



# 2 yaşlı uşaq polisə zəng etdi, çünki...

Amerikanın Cənubi Karolina ştatında 2 yaşlı uşaq polisə zəng edərək, ilginc bir xahiş edib. Lenta.ru saytının xəbərinə görə, uşaq şalvarını geyinə bilmədiyi üçün polisdən yardım istəyib. 2 yaşlı Aliyanın zənginə cavab verən polis əməkdaşı Marta Lones bildirib ki, dəstəyin o biri ucundakı səs sahibinin uşaq olduğu hiss edilsə də, baş vermiş problemin nədən ibarət olduğunu aydınlaşdırmaq üçün uşağın evinə polislər göndərilib: “Bizim polislər evə çatanda isə şalvarını yarı geyinmiş halda olan bir balaca qız sevincək qapını açıb və ”salam" deyib. Sonra da bildirib ki, əsas problem şalvarını geyinə bilməməsi idi və buna görə yardım istəyib".

Hadisə yerində olan qadın polis isə iki uşaq anası olaraq bu məsələlərdə çox təcrübəli olduğu üçün Aliyanı dərhal geyindirib. Uşağın anası Pebls Ryan isə deyib ki, qızına hər hansı problem qarşısında polisə zəng etməyi özü tapşırıb. Amma qızcığaz şalvar geyinə bilməməyin problem olduğuna özü qərar verib. Uşaq isə evdə tək olmayıb.

# Balıq balıqçının ağzına hoppandı

Hindistanda həkimlər ağzına balıq hoppanan balıqçının həyatını xilas ediblər. Bu barədə “Daily Mirror” qəzeti xəbər verib. Hindistanın Orissa ştatının sakini çaydan 10 santimetr uzunluğunda balıq tutsa da, onu əlində saxlaya bilməyib. Balıq cəld bir şəkildə kişinin ağzına sıçrayıb və onun boğazında ilişib. Balıqçı nə qədər cəhd etsə də, balığı boğazından çıxara bilməyib. Balıq onun danışmasına və nəfəs almasına mane olub. Zərərçəkmiş balıqçını dərhal yaxınlıqdakı xəstəxanaya aparıblar. Amma yerli həkimlər ona kömək edə bilməyiblər. Ona görə də balıqçını ştatın paytaxtına - Bxubaneşvar şəhərinə aparıblar. Həkimlərdən birinin dediyinə görə, xəstənin boğazından balığın quyruğunu çıxara biliblər.



Əməliyyat zamanı zərərçəkmişə ağrıkəsici veriblər. Yalnız bundan sonra onun boğazında kiçik əməliyyat edə biliblər. Balıqçının boğazına atılan tikişlərin 10 gün müddəti olub. Bu müddət ərzində kişi burnundan salının zond vasitəsilə qidalanmağa çalışıb.

# Məktəbli qızlar sərxoş vəziyyətdə maşın sürüblər

Amerikanın Nyu Meksiko ştatındakı Alamoqordo şəhərində məktəbli qızı sərxoş vəziyyətdə maşın sürdüyünə və polisdən saxlanmaq istədiyinə görə həbs ediblər. Bu barədə “The Independent” nəşri xəbər verib. 12 yaşlı amerikalı üç rəfiqəsi ilə birlikdə babasından bir maşın oğurlayıb və şəhərdə sürməyə başlayıb. Polis saxlamaq istəyəndə isə o, gizlənməyə çalışıb. Təqib prosesi o vaxta qədər davam edib ki, uşaq üzərində sürət həddi yazılan işarəni maşınla vurub. Yerli polisin bildirdiyinə görə, onlar maşından uşaqların çıxmasını gözləmirdilər. Maşının salonunda araq və bir neçə başqa spirtli içki tapılıb.

Dörd qızın hər birinə yetkinlik yaşına çatmadan spirtli içkidən istifadə etdiklərinə görə cərimə kəsilib. Bundan başqa, yeniyetmələri saxlayan polis əməkdaşları yeniyetmələrin spirtli içkiləri haradan əldə etdiyini öyrənməyə cəhd edib. Sükan arxasında olan qızın atası bildirib ki, onların evində heç kim spirtli içki içmir. O, hətta bildirib ki, polis onun qızını polis bölməsində saxlamaq istəsə, buna etirazı olmayacaq.






# Uşaq bağçaya narkotik gətirib

Amerikanın Filadelfiya ştatında 5 yaşlı oğlan bağçaya narkotik maddə gətirib. Uşaq bağçaya səhər saatlarında gəlib və özünü qeyri-adi aparıb. Tərbiyəçi köməkçisi fikir verib ki, onun cibində nəsə var. O düşünüb ki, bu, oyuncaqdır və uşaqdan onu göstərməsini xahiş edib.

Uşaq ona içində şübhəli əşya olan qutunu verib. O izah edib ki, tanımadığı bir nəfər ona bu qutunu verərək, təhsil müəssisəsinin həyətində saxlamağı xahiş edib. Qadın bu barədə administratora xəbər verib. Sonuncu polis çağırıb. Hadisə yerinə gələn polis paketin içində narkotik maddə aşkarlayıb. İnsident nəticəsində heç kim ziyan çəkməyib. Digər tərbiyəçilər narkotiklə kontaktda olmayıblar. Polis araşdırmaya başlayıb, heç kim həbs olunmayıb.

Apreldə xəbər verilib ki, Böyük Britaniyada uşaqlar oyun baseynində kokain tapıblar. Sonuncular polis çağırıblar.




**QOÇ** - Təxminən saat 15-ə qədər ümumi ovqatınız xoş olacaq. Ünsiyyətdə olduqlarınız sizi anlayacaq. Sonrakı müddətdə isə ciddi və böyük mübahisələrə cəlb olunacağınız gözlənilir. Tədbirli olun.

**BUĞA** - Ulduzların düzümü səhhətinizlə bağlı bəzi problemlərlə rastlaşa biləcəyinizdən xəbər verir. Bu səbəbdən də orqanizminizə zidd olan işlərdən yayınmalısınız. Digər hadisələr isə sizi sevindirəcək.

**ƏKİZLƏR** - Maraqlı görüşlər və sövdələşmələr yolunuzu gözləyir. Bir qədər qətiyyətli olun. Bədxah adamlara qarşı rəhmli olmaq o qədər də səmərəli deyil. Ulduzlar qidanıza fikir verməyi məsləhət görür.

**XƏRÇƏNG** - Yeni əlaqələr yaratmaq üçün ideal ərəfədir. Çox güman ki, bir neçə yeniliyin şahidi olacaqsınız. Sevindirici təkliflər də labüddür. İmkan daxilində ziyarətgahlara üz tutun.

**ŞİR** - Bütün enerjinizi fəaliyyətə istiqamətləndirin. Çünki yaxın perspektivləriniz bugünkü addımlarınızdan birbaşa asılı olacaq. Daşınmaz əmlak alqı-satqısı ilə bağlı sövdələşmələrə getməyin.

**QIZ** - Bu mülayim təqvim sizin üçün həddindən ziyadə uğurlu keçməlidir. Ürəyinizcə olan şəxslərlə rastlaşmağınız, eləcə də təzə xəbərlər eşitməyiniz sizi sevindirəcək. Riskdən qorxmayın.

**TƏRƏZİ** - Astroloji göstəricilər işgüzar səfərlərə çıxmağınızda qəbahət görmür, xüsusən də əgər bu, yeni fəaliyyətlə bağlıdırsa. Başqa məsələlərdə isə neytral qalmağınız məqsədəuyğundur.

**ƏQRƏB** - O qədər də uğurlu gün deyil. Bir tərəfdən ətrafınızda lazımi adamların olmaması, digər tərəfdənsə əsəbi situasiyalar ovqatınızı korlaya bilər. Bacardığınız qədər istirahət edin.

**OXATAN** - Saat 13-ə qədər sakit şəraitdə olmağınız vacibdir. Riskli iş görmək, səfərə çıxmaq yolverilməzdir. Əks təqdirdə, əsəbi məqamlar yaşayacaqsınız. Axşam sevdiyiniz şəxslərlə görüşün.

**OĞLAQ** - Göy qübbəsi yalnız ev-eşiklə məşğul olmağınızı tövsiyə edir. Digər işləri isə hələlik təxirə salmağınız məsləhətdir. Yaşca sizdən kiçik olanların qayğısına qalın.

**SUTÖKƏN** - İxtiyarınızda olan bu təqvimdə üzərinizə böyük öhdəliklər düşür. Nəticənin uğurlu olacağını nəzərə alıb yorulmaqdan çəkinməyin. Kənar müdaxilələrə isə ciddi reaksiya verməyin.

**BALIQLAR** - Əgər bizneslə məşğulsunuzsa, bu gün bəxtiniz gətirə bilər. Çünki bütün göstəricilər uğurlu işbirliyi yaradacağınızdan, həmçinin varlanmağa başlayacağınızdan xəbər verir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Hamiləlikdə yağlı yeyən qadın... gələcəkdə...



Hamiləlik vaxtı yağlı yeməklər yeyən qadınlar qız nəvələrinə böyük pislik edirlər. Türkiyə mətbuatının xəbərinə görə, bu cür qidalanan qadınların qız nəvələri döş xərçənginə daha tez yaxalanırlar. Alimlər bunu təsdiqləmək üçün öncə hamilə siçanları testdən keçirib. Məlum olub ki, hamilə vaxtı yağlı yeməklər yeyən qadınlar xərçəng riskini təkcə qızlarının qızına yox, eyni zamanda oğullarının qızlarına da keçirir. Alimlər bu yoluxma mexanizmini tam bilməsələr də, ehtimal edirlər ki, buna səbəb döş toxumalarındakı genetik dəyişiklikdir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 3.190

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.